Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 50 (8073) ŞƏNBƏ, 2 mart 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Sistemli islahatların növbəti mərhələsi mədəniyyət sahəsi olacaq



## Prezident İlham Əliyev ölkənin görkəmli sənət xadimləri ilə mədəni intibahın yeni hədəflərini müzakirə etdi

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva martın 1-də mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşüblər.**

**AZƏRTAC xəbər verir ki, dövlət başçısı görüşdə çıxış etdi.**

## Prezident İlham Əliyevin çıxışı

- Əziz dostlar, mən sizi səmimiyyətlə salamlayıram. Bu gün Azərbaycan mədəniyyətinin inkişafı ilə bağlı sizinlə danışmaq istərdim. Mənim ölkəmizin görkəmli mədəniyyət xadimləri ilə bir çox görüşlərim olub, həm fərdi qaydada, həm müxtəlif tədbirlərdə, mərasimlərdə, mədəniyyət ocaqlarının açılışlarında. Bu gün isə biz daha geniş formatda görüşürük. Hesab edirəm ki, buna ehtiyac var. Çünki ölkəmiz yeni inkişaf mərhələsinə qədəm qoyur, bütün sahələrdə çox ciddi islahatlar aparılır. İslahatların yeni mərhələsinin anonsu keçən il prezident seçkilərindən sonra verilmişdir. Ciddi islahatların hazırlanması üçün keçən ilin ikinci yarısında çox fəal iş aparılırdı və bu ilin əvvəlindən genişmiqyaslı islahatlara start verildi. Bu islahatlar bütün sahələri əhatə edəcək. Buna ehtiyac var. Hətta inkişaf etmiş ölkələrdə daim islahatlar aparılır. İslahatlar yenilik, yeni yanaşma, mövcud problemlərin həlli deməkdir. Bu baxımdan 2019-cu il əvvəlki illərdən fərqlənən çox ciddi il olacaqdır.

İqtisadi sahədə apardığımız islahatlar gözəl nəticələr verir. Bu ilin birinci ayının göstəriciləri bunu deməyə əsas verir. İqtisadiyyatımız demək olar ki, tamamilə bərpa edilib. Əminəm ki, bu il iqtisadi inkişaf baxımından çox ciddi nəticələr olacaqdır. Bilirsiniz, dünyada baş vermiş çox dərin maliyyə və iqtisadi böhran bizim ölkəmizdən də yan keçmədi və 2015-ci ildən sonra demək olar ki, bütün ölkələrdə iqtisadi tənəzzül müşahidə olunurdu. İlk növbədə, iqtisadiyyatı neft-qaz sektoru ilə bağlı olan ölkələrdə bu tənəzzül özünü daha çox büruzə vermişdir. Təsəvvür edin ki, qısa müddət ərzində ölkənin gəlirləri təxminən 4 dəfə aşağı düşür. Bu, nə deməkdir? O deməkdir ki, biz öz xərclərimizi 4 dəfə azaltmalı idik, çox qısa bir müddət ərzində çox ciddi addımlar atmalı idik, heç bir ölkə buna hazır deyildi, o cümlədən də biz. Biz bunu etiraf edirik və əlbəttə ki, bu böhranlı vəziyyət ölkəmizə böyük zərbə vurdu. O vaxt bizim əsas məqsədimiz vətəndaşların sosial müdafiəsini gücləndirmək və bu iqtisadi böhrandan az itkilərlə çıxmaq idi. Hesab edirəm ki, biz buna nail ola bilmişik. 2017-ci il iqtisadi sabitləşmə ili olmuşdur. Keçən il biz artıq iqtisadi inkişafa qədəm qoyduq. Bu il isə artıq inkişaf daha da böyük ölçülərlə özünü göstərir.

İqtisadi islahatlar imkan verdi ki, sosial sahədə çox ciddi addımlar atılsın. Bu ilin əvvəlindən keçən il ərzində hazırlanmış sosial layihələr icra edilməyə başlanmışdır. Azərbaycan vətəndaşları bunu yaxşı bilirlər. Minimum əməkhaqqının, minimum pensiyanın təxminən 40 faiz artırılması 830 minə yaxın insanı əhatə edir. Sosial müavinətlərin orta hesabla 100 faiz artırılması təxminən 600 min insanı əhatə edir. Çoxmənzilli binaların sənədləşdirilməsi təxminən 350-400 min insanı əhatə edir. Şəhid ailələrinin problemlərinin həlli, müavinətlərin artırılması və ödənişlərin verilməsi minlərlə insanı əhatə edir. Tələbələrin təqaüdləri əhəmiyyətli dərəcədə artırıldı, bu da 100 mindən çox tələbənin maliyyə vəziyyətini yaxşılaşdırır. Digər sosialyönümlü addımlar, dünən imzaladığım fərman 800 min insanı əhatə edir və deyə bilərəm ki, bu fərmanın dünyada analoqu yoxdur. Fərmanı oxuyan, onu təhlil edən hər bir vətəndaş bunu görə bilər. Bu, çox ciddi bir sosial təşəbbüsdür. Dövlət bir daha göstərir ki, öz vətəndaşının yanındadır. Bizim iqtisadi imkanlarımız yarandıqca, ilk növbədə, problemli kreditlər məsələsini həll etməyə qərar verdik və bunu bacardıq. Onu da bildirməliyəm ki, ciddi devalvasiyadan əziyyət çəkən ölkələrin sayı kifayət qədər çoxdur və bizdən də dərin devalvasiyaya uğramış ölkələr vardır. Ancaq heç bir ölkədə bu dərəcədə sosialyönümlü, vətəndaşın marağını güdən addım olmamışdır. Yəni, bütün bu sosial paket təqribən 3 milyona yaxın insanı əhatə edir və bir daha bizim niyyətimizi göstərir.

Digər sahələrdə islahatlar aparılır və aparılmalıdır. Təhsil sahəsində islahatlar aparılır və deyə bilərəm ki, müəllim peşəsini seçən abituriyentlərin sayı kəskin artmışdır. Yəni, cəmiyyətdə müəllim peşəsinə ənənəvi hörmət qayıdır və bu, islahatlar nəticəsində mümkün olmuşdur. Təhsil sahəsinin maddi-texniki bazasının möhkəmləndirilməsi, 3200-dən çox məktəbin tikilməsi, əlbəttə ki, böyük dəyişikliklərə gətirib çıxardı.

Səhiyyə sahəsində çox ciddi islahatlar aparılır. Qərar qəbul olunub və ümid edirəm ki, biz gələn ildən icbari tibbi sığorta sisteminə keçəcəyik. Biz bir neçə şəhərdə pilot layihələri icra etdik və bu layihələr çox müsbət nəticə verir. Həm vətəndaşlar razıdırlar, həm də tibbi xidmət yüksək səviyyədə göstərilir. Deyə bilərəm ki, bu şəhərlərdə səhiyyə sahəsində şəffaflıq tam təmin edilib. Beynəlxalq maliyyə qurumları, ilk növbədə, Dünya Bankı, - bu yaxınlarda onların nümayəndələri ilə mənim görüşüm olubdur, - bunu çox yüksək qiymətləndirirlər. Hesab edirəm ki, hər bir Azərbaycan vətəndaşı bunun faydasını görəcək. Bu, çox ciddi bir islahatdır, sadə məsələ deyil, bəzi ölkələr illər boyu bu islahata doğru gedirdilər, bunu əldə edə bilməyiblər. Ancaq biz nisbətən qısa müddət ərzində bütün lazımi sənədləri hazırladıq və səhiyyə sahəsində çox ciddi dönüş yaranacaq. Çünki keçən dövrdə biz bütün şəhərlərimizdə müasir xəstəxanalar, diaqnostika mərkəzləri tikmişik, yəni, infrastruktur mövcuddur.

Digər sahələrdə, məsələn, məhkəmə-hüquq sahəsində islahatlara çox ciddi ehtiyac var və müvafiq göstərişlər verilibdir. Şəhərsalma sahəsində. Bakı şəhərində xaotik tikinti prosesi artıq sona çatır. Şəhərsalma və Arxitektura Komitəsi qarşısında çox ciddi vəzifələr qoyulub ki, buna son qoyulsun. Əlbəttə, biz imkan verə bilmərik ki, inşaat sektorunda durğunluq yaransın. İnşaat iqtisadiyyatın təkanverici sektorlarından biridir, on minlərlə iş yeri yaradan sahədir. Ancaq Bakının bundan sonrakı şəhərsalma qaydaları baş plan əsasında olmalıdır və gözəl şəhərimizin gözəl siması daha da gözəlləşdirilməlidir. Şəhər nəqliyyatı, şəhər təsərrüfatı ilə bağlı islahatlar aparılır. Hesab edirəm ki, biz bu islahatların aparılmasında uğurlar əldə edəcəyik.

O ki qaldı mədəniyyət sahəsinə, mən elə bu gün istərdim ki, sizinlə bu məsələlərlə bağlı fikir mübadiləsi aparım və bundan sonra görüləcək işlər haqqında danışaq. Çünki əvvəlki illərdə bir çox işlər görülüb. Mən Prezident kimi çalışırdım ki, həmişə bu sahəyə öz diqqətimi göstərim. Hesab edirəm ki, görülmüş işlər qiymətləndirilməlidir. Bizim əsas teatrlarımız - Milli Dram Teatrı, Rus Dram Teatrı, Gənc Tamaşaçılar Teatrı, Musiqili Teatr əsaslı təmir olundu. Bölgələrdə teatrlar tikildi və əsaslı təmir edildi, yeni teatrlar yaradıldı. Muzeylərimiz, Bakı şəhərinin muzeyləri, demək olar ki, tam şəkildə əsaslı təmir edildi - Tarix Muzeyi, Nizami adına Muzey, Muzey Mərkəzi. İncəsənət Muzeyinin iki binası və Xalça Muzeyi tikildi. Müasir İncəsənət Muzeyi fəaliyyətə başladı, digər muzeylər, mən indi hamısını xatırlaya bilmərəm. Hər bir şəhərdə Tarix-Diyarşünaslıq muzeyləri fəaliyyətə başladı.

Dini abidələr əsaslı şəkildə təmir edildi. Bakıda və bölgələrdə yüzlərlə məscid əsaslı şəkildə bərpa olundu. Onların arasında böyük mənəvi əhəmiyyət daşıyan Təzəpir, Bibiheybət, Əjdərbəy məscidləri, Gəncədəki İmamzadə dini-tarixi kompleks, Azərbaycanın ən qədim məscidi - 743-cü ildə tikilən Şamaxı Cümə məscidi əsaslı şəkildə bərpa edildi, Heydər məscidi tikildi. Yəni, bunlar bizim milli irsimizdir.

Digər sahələrdə. Yadımdadır, elə ilk qərarlarımdan biri də o idi ki, Azərbaycan klassiklərinin əsərlərini latın qrafikası ilə çap etdirək. Çünki bir qədər anlaşılmayan vəziyyət yaranmışdı. Biz tam olaraq latın qrafikasına keçmişdik və təhsil də latın qrafikası ilə aparılırdı. Ancaq bizim bütün klassiklərimizin kitabları vaxtilə kiril qrafikası ilə çap olunmuşdu. Ona görə şagirdlər, tələbələr onları oxuya bilmirdilər. O vaxt bizim o qədər də maddi imkanlarımız yox idi. 2004-cü ildə biz bu qərara gəldik. Baxmayaraq ki, maddi vəziyyətimiz çox məhdud idi, biz qısa müddət ərzində bunu da etdik. Nəinki Azərbaycan klassiklərinin, dünya ədəbiyyatının klassiklərinin kitabları latın qrafikası ilə çap olundu.

Kinoteatrların yaradılması, özəl kinoteatrların fəaliyyətə başlaması sevindirici haldır. Nizami Kino Mərkəzi əsaslı şəkildə təmir edildi. Görkəmli mədəniyyət xadimlərinin xatirəsini əbədiləşdirmək üçün abidələr qoyuldu. Qara Qarayev, Fikrət Əmirov, Bülbül, Niyazi və digər görkəmli mədəniyyət xadimlərimizin xatirəsi əbədiləşdirildi. Görülən bütün işləri yada salmaq çətindir. Bizim iki konservatoriyamızdan biri əsaslı şəkildə təmir edildi, o birisi yenidən tikildi.

İndiyədək bu sahədə görülən işlər bundan ibarətdir. Bundan sonra hansı işlər görülməlidir, bunu siz deməlisiniz. Çünki mən istəyirəm ki, bundan sonra mədəniyyət sahəsində işlər sistemli qaydada görülsün.

*Ardı 2-ci səh.*

# Növbə problemli kreditlərin həllinə çatdı

### Prezidentin imzaladığı fərman minlərlə vətəndaşımızı kredit girovluğundan xilas edəcək

Prezident İlham Əliyev əhalinin sosial müdafiəsinin gücləndirilməsinin dövlətin iqtisadi siyasətinin prioritet istiqamətlərindən olduğunu qəbul etdiyi qərarlarla, imzaladığı fərman və sərəncamlarla, verdiyi tapşırıq və tövsiyələrlə dəfələrlə sübut edib. Sübut edib ki, dönə-dönə xatırlatdığı "Bizim əsas vəzifəmiz xalqın güzəranını yaxşılaşdırmaqdır" bəyanatının arxasında bu istiqamətdə həyata keçirilən konkret əməl, real addımlar durur.

Bu baxımdan artıq iki ayını arxada qoyduğumuz 2019-cu ili ayağı sayalı il kimi də qəbul etmək olar. Prezidentin minimum əməkhaqqı və minimum pensiyaların kifayət qədər yüksək faizlə artırılması, əhalinin dövlətin qayğısına daha çox ehtiyacı olan təbəqələrinin, o cümlədən əlillərin, müharibə veteranlarının, məcburi köçkünlərin, Çernobıl qəzasının aradan qaldırılmasında iştirak etmiş vətəndaşlarımızın, eləcə də tələbələrin sosial müdafiəsinin gücləndirilməsi və s. digər tədbirlərlə bağlı imzaladığı sərəncamlar yüz minlərlə ölkə vətəndaşını əhatə edir. Artıq Azərbaycan minimum pensiyanın məbləğinə görə MDB-də ikincidir. Ölkəmiz orta aylıq əməkhaqqına görə də keçmiş İttifaq respublikaları sırasında ön yerlərdədir. Bu gün Azərbaycan həm də ödənilən sosial müavinətlərin sayına və həcminə görə fərqlənir. Prezidentin təkcə cari il bu istiqamətdə imzaladığı sərəncamlardan əhalinin demək olar, bütün təbəqələri - tələbədən pensiyaçıyadək hamı bəhrələnir.

Amma ölkədə müəyyən bir təbəqə də var ki, onların problemi tamam fərqlidir. Bu nə əməkhaqqı, nə də sosial ödənişlə bağlıdır. Bəli, söhbət məlum səbəbdən - neftin qiymətinin kəskin ucuzlaşması üzündən manatın məzənnəsinin ucuzlaşması ilə bağlı əhalinin banklara xarici valyutalarla olan borclarını ödəməkdə çətinlik çəkmələrindən və nəticədə ölkədə problemli kredit deyilən sosial gərginliyin yaşanmasından gedir. Lakin hətta belə gərginlikdə də sözügedən problemdən əziyyət çəkən vətəndaşlarımız bütün ümidlərini dövlətə bağlayır, Prezidentin bu məsələdə onları tək qoymayacağına inanırdılar.

*Ardı 9-cu səh.*

# Azərbaycan bütün dünyada etibarlı tərəfdaş kimi tanınır

### Bunun bir səbəbi də ölkədə xarici investisiyaların tam qorunmasıdır

Azərbaycan xarici şirkətlərlə birgə həyata keçirdiyi qlobal neft-qaz layihələri çərçivəsində mükəmməl əməkdaşlıq və tərəfdaşlıq formatı yaradıb. Getdikcə genişlənən və indi artıq iqtisadiyyatın digər sahələrini də əhatə edən bu əməkdaşlığın təməli 25 il əvvəl Xəzər dənizinin Azərbaycan sektorunda nəhəng neft ehtiyatlarının istismarı ilə bağlı sazişin - "Əsrin müqaviləsi"nin imzalanması ilə qoyulub.

"Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarının tammiqyaslı işlənməsi layihəsinin həyata keçirilməyə başlanması, əslində, Xəzər dənizinin xarici sərmayələr üçün açılması, Azərbaycan üçün isə transformasiya və inkişaf istiqamətində atılmış ilk vacib addım idi. "Cənub qaz dəhlizi" Məşvərət Şurasının cari ilin fevral ayında Bakıda keçirilən beşinci toplantısında Prezident İlham Əliyev bu barədə demişdir: "Cənub qaz dəhlizi" ümumi marağımızı əks etdirən və qarşılıqlı surətdə əhəmiyyətli layihədir. Bu, Azərbaycanın 1994-cü ildə təməli qoyulmuş enerji strategiyasının tərkib hissəsidir. O zaman Azərbaycan nəhəng "Azəri-Çıraq-Günəşli" neft yatağı ilə bağlı beynəlxalq neft şirkətlərindən ibarət konsorsiumla müqavilə imzaladı. Bu, bizim beynəlxalq enerji şirkətləri ilə əməkdaşlığımızın başlanğıcı idi".

"Əsrin müqaviləsi" sayəsində Azərbaycan hərtərəfli və böyük inkişafa nail oldu. Layihənin uğurlu icrası və AÇG yataqlarındakı potensial 2017-ci ildə "Yeni əsrin müqaviləsi"nin imzalanmasına imkan verdi.

*Ardı 10-cu səh.*

# Dövlət başçısı milli-mədəni inkişafın prioritetlərini müəyyənləşdirdi

Ölkənin hərtərəfli inkişafı, ilk növbədə onun iqtisadiyyatının gücündən asılıdır. Son on beş ilin göstəricilərinin ürəkaçan olması da məhz iqtisadi islahatlarla sıx bağlıdır. Dövlət başçısının təşəbbüsü ilə tətbiq edilən çevik iqtisadi islahatlar imkan verir ki, sosial sahədə də ciddi addımlar atılsın.

Dünyanı qlobal iqtisadi böhran bürüdüyü halda, Azərbaycanda bütün sahələrdə inkişafın şahidiyik. Həyata keçirilən islahatların nəticəsidir ki, bu ilin əvvəlindən də bir sıra sosial layihələrin icrasına başlanıb. Sosial arenada qazanılanlar özünü, təbii ki, humanitar sahədə də göstərir. Həmin sahənin də inkişafına stimul yaradır.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın martın 1-də mədəniyyət və incəsənət xadimlərinin bir qrupu ilə görüşündə də bu barədə ətraflı müzakirələr aparıldı. Dövlət başçısı diqqəti ölkənin ümumi inkişafına, eləcə də bunun müqabilində humanitar sahədə əldə edilən uğurlara, qarşıda duran hədəflərə yönəldərək qeyd etdi ki, adıçəkilən sahənin maddi-texniki bazasının möhkəmləndirilməsi böyük dəyişikliklərə gətirib çıxarıb. Səhiyyə sahəsində də çox ciddi islahatlar aparılır: "O ki qaldı mədəniyyət sahəsinə, mən elə bu gün istərdim ki, sizinlə bu məsələlərlə bağlı fikir mübadiləsi aparım və bundan sonra görüləcək işlər haqqında danışaq. Çünki əvvəlki illərdə bir çox işlər görülüb. Mən Prezident kimi çalışırdım ki, həmişə bu sahəyə öz diqqətimi göstərim. Hesab edirəm ki, görülmüş işlər qiymətləndirilməlidir. Bizim əsas teatrlarımız - Milli Dram Teatrı, Rus Dram Teatrı, Gənc Tamaşaçılar Teatrı, Musiqili Teatr əsaslı təmir olundu. Bölgələrdə teatrlar tikildi və əsaslı təmir edildi, yeni teatrlar yaradıldı..."

Azərbaycan Prezidentinin görüşdə xüsusi olaraq vurğuladığı kimi, Bakı şəhərinin muzeyləri - Tarix, Nizami adına Muzey, Muzey Mərkəzi, İncəsənət Muzeyinin iki binası tam şəkildə əsaslı təmir edilib. Xalça Muzeyi kimi müasir xalq sənətkarlığı məbədi tikilib, Müasir İncəsənət Muzeyi fəaliyyətə başlayıb. Hər bir şəhərdə Tarix-Diyarşünaslıq muzeyləri fəaliyyət göstərir.

*Ardı 6-cı səh.*

# Sosial paketdən 3 milyona yaxın insan faydalanacaq

Prezident İlham Əliyevin yanında iqtisadi və sosial məsələlərlə bağlı keçirilən müşavirə bir daha onu təsdiq edir ki, Azərbaycan islahatlara sadiq ölkə kimi qalmaqdadır və tətbiq edilən bütün yeniliklər ölkə iqtisadiyyatının güclənməsinə, insanların maddi rifahının yüksəlişinə xidmət edir. Uzun illər davam edən islahatlar köklü yeniliklərə nail olmağa imkan vermişdir.

Dövlət başçısı müşavirədəki çıxışında iqtisadi islahatların miqyas və istiqamətlərinin ölkədə iqtisadi sabitliyə nail olmağa, son 2-3 il ərzində isə görünməmiş nailiyyətlərə imza atmağa imkan verdiyini diqqətə çatdırdı. Uğurlu sənayeləşmə siyasəti artıq bu ilin birinci ayında qeyri-neft sektorunda sənaye istehsalının təxminən 14 faiz artmasına səbəb olmuşdur. Makroiqtisadi vəziyyətin və manatın məzənnəsinin sabit olaraq qalması, inflyasiyanın ən aşağı səviyyədə olması həyata keçirilən böyük islahatların məntiqi davamıdır. Regionların sosial-iqtisadi inkişafına dair III Dövlət Proqramının artıqlaması ilə icra edilməsi və IV proqramın qəbul edilməsi daha əminliklə yeni uğurlara köklənməyə əsas verir.

Dövlət başçısı müşavirədə məxsusi olaraq diqqətə çatdırdı ki, artıq bir neçə aydır ciddi sosial paket üzərində iş aparılır, minimum əməkhaqqı və pensiya, tələbələrin təqaüdləri artırılacaq: "Yəni, bütün bunlar - bu çox böyük proqram 500 mindən çox əhalini əhatə edəcək. Sadaladığım bütün bu təşəbbüsləri əgər biz təhlil etsək, o cümlədən problemli kreditlərdən əziyyət çəkən vətəndaşların da sayını müəyyən etsək, təqribən 2 milyon 200 min əhali dövlətin sosial təşəbbüslərinin icrasından böyük dərəcədə faydalanacaq".

Bu baxımdan Prezidentin "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" 2019-cu il 25 fevral tarixli sərəncamı da daha bir humanist təşəbbüs kimi əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində mühüm tədbirlərə start verildiyini təsdiq edir. Qeyd etmək vacibdir ki, dövlət başçısının əhalinin güzəranının yaxşılaşdırılması istiqamətində atdığı sonuncu addımlar cəmiyyətdə geniş müzakirə olunmaqdadır. Əhalinin razılıq hissi ilə qarşıladığı bu addım ekspertlər tərəfindən də müxtəlif baxış bucaqları altında qiymətləndirilir və şərh edilir.

*Ardı 9-cu səh.*

# Sistemli islahatların növbəti mərhələsi

*Əvvəli 1-ci səh.*

Biz bu məsələlərlə bağlı siyasətimizi ardıcıl olaraq aparmalıyıq. Əlbəttə ki, sadəcə olaraq, mədəniyyət obyektlərinin tikintisi, təmiri bizim məqsədimizi tam ifadə edə bilməz. Biz bu məsələlərə daha da geniş kontekstdə baxmalıyıq. Ümumiyyətlə, mədəniyyətimizin gələcək inkişafı, cəmiyyətdə mövcud olan ovqat, gənc nəslin tərbiyə olunması, bütün bu məsələlər bir-biri ilə bağlıdır. Ölkə iqtisadi cəhətdən inkişaf edə bilər, siyasi cəhətdən də beynəlxalq mövqeləri güclü ola bilər, ancaq əgər biz xalqımızın əsas, təməl prinsiplərini diqqətdən kənarda qoysaq, onda ölkəmizin uğurlu inkişafı dayanıqlı ola bilməz.

Mən düz bir ay bundan əvvəl gənclərlə görüşdə dedim ki, bizim gənc nəslimiz milli ruhda tərbiyə olunmalıdır. Ancaq bu halda Azərbaycan əbədi müstəqillik yolu ilə gedə bilər. Buna nail olmaq üçün, əlbəttə ki, əsas amil bizim mədəniyyətimizdir, incəsənətimizdir, ədəbiyyatımızdır, ana dilimizdir, milli təfəkkürümüzdür. Ona görə bu məsələlərlə və istənilən məsələ ilə bağlı bu gün mən sizinlə danışmaq istərdim. Hesab edirəm, mən giriş sözümü yekunlaşdırmalıyam ki, sizə daha çox imkan yaradım və siz öz sözünüzü deyəsiniz.

Diqqətinizə görə təşəkkür edirəm.

❖ ❖ ❖

Sonra mədəniyyət və incəsənət xadimləri çıxış etdilər.

Yazıçılar Birliyinin sədri, xalq yazıçısı **Anar RZAYEV** dedi:

- Hörmətli cənab Prezident.

Hörmətli Birinci vitse-prezident Mehriban xanım.

Əziz dostlar.

Cənab Prezident, mən, ilk növbədə, Sizə təşəkkür etmək istəyirəm ki, iş qrafikinizin gərgin olmasına baxmayaraq, bizə vaxt ayırmısınız və bizimlə görüşürsünüz. Başqa yaradıcılıq təşkilatları kimi, Yazıçılar Birliyi də Sizin daim qayğınızı və diqqətinizi hiss edir. Yazıçılara - 50 nəfər yaşlı, 20 nəfər cavan yazıçıya Prezident təqaüdünün təyin olunması, 5 il bundan qabaq 80 illiyimizin geniş qeyd edilməsi, Yazıçılar Birliyinin binasının təmiri, klassiklərimizin və müasir yazıçılarımızın yubileyləri bu qəbildən olan işlərdir. Siz bu ili Nəsiminin yubileyi ilə bağlı olaraq "Nəsimi ili" elan etmisiniz. Bu il Cəlil Məmmədquluzadənin, Cəfər Cabbarlının, İsmayıl Şıxlının yubileyləri haqqında Sizin sərəncamlarınız var. Yeri gəlmişkən, istərdim ki, Cəlil Məmmədquluzadənin yubileyi ilində onun məzarı da səliqəyə salınsın və Bakıda heykəli ucalsın. Çünki Nizami Muzeyinin eyvanında bizim yazıçıların və şairlərin - Füzulinin, Mirzə Fətəlinin, Natəvanın, Cəfər Cabbarlının heykəlləri var, o cümlədən Mirzə Cəlilin də. Amma bizim çox böyük yazıçımız Cəlil Məmmədquluzadənin Bakıda ayrıca heykəli yoxdur. Naxçıvanda heykəltəraş Mirqasımov Mirzə Cəlilin çox gözəl heykəlini düzəldib, onun bənzərini Bakıda da ucaltmaq olar.

Dekabr ayında Siz məni qəbul etdiniz və mən Yazıçılar Birliyinin bir çox təkliflərini, xahişlərini Sizə yetirdim. Çox məmnunam ki, Sizin göstərişlərinizlə bunların böyük qismi artıq həyata keçib. Bizim Şüvəlandakı yaradıcılıq evimizi vaxtilə qaçqınlara, köçkünlərə vermişik, artıq 30 ilə yaxındır orada yaşayırlar. İndi Sizin sərəncamınızla onlara mənzillər verilir, köçürülür və o bina təmir olunacaq. Sizin tapşırığınızla Bakı Şəhər İcra Hakimiyyəti Heydər məscidinin yanında bir sahə ayırdı, orada biz yazıçılar üçün 16 mərtəbəli bina tikiləcək, kooperativ ev. Bununla da bizim yazıçıların mənzil məsələsi, demək olar ki, həll ediləcək.

Daha böyük və şad bir xəbər odur ki, bir neçə il bundan qabaq Sizin təşəbbüsünüzlə bəstəkarların, rəssamların və yazıçıların yaradıcılıq evi tikilməsi haqqında məsələ qaldırılmışdı. Mən bir daha bunu Sizdən xahiş etdim və Siz tapşırıq verdiniz. Mən gedib o yeri görmüşəm. Şabran rayonunda çox səfalı bir yerdir, meşənin içində. Amma böyük bir tala var. Ona görə deyirəm ki, orada ağac da qırılmayacaq, bulaq var, gözəl bir yerdir. Dünən mən Şabran Rayon İcra Hakimiyyətinin başçısı ilə telefonla danışdım, dedi ki, layihə artıq hazırdır. Bəstəkarlar, rəssamlar, yazıçılar üçün üç bina, bir də ümumi bina tikiləcək ki, orada konfrans zalı, poliklinika və dükanlar olacaq. Torpaq və yol işləri qurtarıb. Martda tikinti işləri başlanacaq. Mən Sizə həm Yazıçılar Birliyi adından, həm də icazələri ilə bizim Rəssamlar və Bəstəkarlar ittifaqlarının adından təşəkkürümü bildirmək istəyirəm ki, belə bir nadir şəhərcik yaranacaq.

Bir təklifimi də vermək istərdim. Mən istərdim ki, bu şəhərcik ulu öndərin şərəfinə Heydərabad adlansın. Çünki bu, həm Heydər Əliyevin Azərbaycan mədəniyyətinə sevgisinin, qayğısının rəmzi olar, həm də Azərbaycanın coğrafi xəritəsində ulu öndərin adı ilə daha bir məskən ola bilər.

Mənim bir neçə təklifim də var. İstəyirəm onları da bu gün fürsət var ikən Sizə çatdırım. Ədəbiyyatımızın xaricdə təbliği ilə bağlı məsələ qaldırmaq istəyirəm. Bilirsiniz, ispanların Servantes Mərkəzi var, o, bütün dünyada ispan ədəbiyyatını təbliğ edir. Almanların Höte Mərkəzi var, o da bütün dünyada alman ədəbiyyatını təbliğ edir. Türklərin Yunus Əmrə Mərkəzi var, o da həmin işi görür. Biz də belə bir Füzuli Mərkəzi yaratsaydıq, ən azı böyük şəhərlərdə - Moskvada, İstanbulda, Tehranda, Avropa şəhərlərinin birində həm klassik və müasir Azərbaycan ədəbiyyatını, həm də Azərbaycan ədəbiyyatı vasitəsilə xalqımızın tarixini, bugünkü gününü, siyasətini təbliğ edərdik.

Nəhayət, son təklifim odur ki, cənab Prezident, mən çox istərdim heç olmasa ildə bir dəfə Sizinlə bu formatda görüşək. Bir də əgər mümkündürsə, Mehriban xanımın yanında ziyalıların məşvərət şurasını yaradaq ki, ara-sıra biz orada toplaşaq, ictimai-siyasi, mədəni hadisələr haqqında söhbətlər edək. Mən bu təkliflərimi yazılı şəkildə Sizə təqdim edirəm, bir hissəsi həyata keçsə, çox şad olaram, hamısı keçsə isə daha da şad olaram. Çox sağ olun.

❖ ❖ ❖

Bəstəkarlar İttifaqının sədri, xalq artisti **Firəngiz ƏLİZADƏ** dedi:

- Möhtərəm cənab Prezident.

Əziz və hörmətli Birinci vitse-prezident Mehriban xanım.

Hörmətli həmkarlar.

Mən də bəstəkarlar və musiqişünaslar adından Sizə dərin minnətdarlığımı bildirirəm ki, vaxt tapıb bizimlə görüşdünüz. Amma zənn edirəm ki, hər halda bizim qədər Sizə minnətdar olan insanlar yoxdur. Ona görə ki, ilk növbədə, Siz bizə binamızı qaytardınız. Unudulmaz açılış oldu. Biz onu heç vaxt unutmayacağıq. Çox gözəl bir mərasim idi. Sizin və ailənizin çox böyük diqqəti, dəstəyi ilə bu mərasimi həyata keçirdik. Doğrudan da, uzun illər yurdsuz-yuvasız qalan Bəstəkarlar İttifaqı, nəhayət, öz evinə qayıtdı.

Bundan başqa, Anar müəllimin dediyi kimi, artıq 10 ildir ki, bəstəkarlarımız və musiqişünaslarımız təqaüd alırlar. Bu da 85 illik tariximizdə ilk dəfə olan bir hadisədir, az məbləğ də deyil. Bizim bəstəkarlarımız və musiqişünaslarımız onlarla kitab və yeni əsərlər yazıblar və bu təqaüd onlara maddi tərəfdən çox böyük dəstəkdir. Çox təşəkkür edirik, bu, çox gözəl bir haldır. Bundan əlavə, təbii ki, fəxri adlara, evlərə görə Sizə dərin minnətdarlığımızı bildiririk. Amma yenə də ehtiyaclar var, möhtərəm cənab Prezident. Burada bir adı çəkmək istəyirəm, bağışlayın, bəlkə yeri deyil, amma bizim 90 yaşında bir bəstəkarımız var, Yaşar İmanov, Abxaziyadan qaçqındır. Artıq ailəsində üç nəsil musiqiçilər böyüyüb. Onun evi yoxdur. O, çox istərdi ki, 90 yaşında evi olsun. Mümkündürsə, bu məsələni həll edərdiniz. Biz çox minnətdar olarıq.

Təbii ki, gənc bəstəkarların da evə ehtiyacları var. Bu sahədə çox böyük işlər görülür. Amma bilirsiniz, gənc bəstəkarlar ailə qururlar və kirayədə qalmaq onlar üçün bir az çətin olur. Yeni tikilən o evlərdə bizə də imkan daxilində 5-6 mənzil versəniz, çox xoşbəxt olarıq.

Biz çox fəxr edirik ki, son illər islahatlar aparılır. Bu, musiqiyə də aiddir. Mən burada Heydər Əliyev Fondunun işini xüsusi vurğulamaq istəyirəm. Biz həmişə bu fondun sadiq köməkçiləri olmuşuq və çox gözəl, böyük, mən deyərdim ki, vacib layihələrdə yaxından iştirak etmişik, məsələn, Azərbaycan və rus dillərində Muğam Ensiklopediyasının yaradılmasında. Rus dilində ensiklopediya bu dildə oxuyan 150 milyon insana, o cümlədən musiqisevərlərə, muğamsevərlərə təqdim olunan böyük elmi işdir. Bundan başqa, "Üzeyir dünyası" bizi çox sevindirən böyük bir layihədir. "Üzeyir dünyası", "Fikrət zirvəsi". Burada mən bir məsələyə də toxunmaq istəyirəm, möhtərəm cənab Prezident. Televiziya kanallarında balans bir az pozulub. Mən istəyərdim ki, bu proses bir az tənzimlənsin. Mən 2007-ci ildə bütün kanallara bəstəkarlar və musiqişünaslar adından məktublar göndərdim ki, televiziya kanallarında bədii şuralar bərpa olunsun. Ona görə ki, vaxtilə bu şuralar olub, qadağa qoymaq məqsədilə yox, tənzimləmək, yəni, bu balansı saxlamaq üçün. Amma bu bədii şuraların tərkibi də çox vacib bir məsələdir. Yəni, o tərkibdə kimlər olmalıdır, onların zövqü, savadı, səviyyəsi, doğrudan da, bu prosesi aparmağa yetərlidirmi? Bax, bunlar çox böyük məsələdir.

Biz yenə də vurğulamaq istəyərdik ki, Azərbaycan musiqisi təkcə mahnılardan ibarət deyil. Biz çox böyük fəxr hissi ilə deməliyik və vurğulamalıyıq ki, bütün Şərqdə, bütün İslam dünyasında nadir bəstəkarlıq məktəbi Azərbaycanda yaradılıb. Bu, haradan gəlir? İlk növbədə, dahi bəstəkarlarımız Üzeyir Hacıbəyli, Qara Qarayev, Fikrət Əmirov və onların ənənələrini bu gün də davam etdirən bəstəkarlar. Bu, nadir bir məktəbdir və onu həmişə dəstəkləmək, ona kömək etmək lazımdır. Ona görə ki, Avropada musiqi tarixi XIII əsrdən başlayıb, amma bizdə XX əsrdə. Bu 7 əsrlik boşluğu doldurmaq bizə o qədər də asan olmur. Belə dahi insanlar və ulu öndərimiz Heydər Əliyevin dəstəyi, çox böyük diqqəti, bizim bəstəkarlarla şəxsi dostluğu - bunlar hamısı bizim üçün çox böyük dayaq idi. Biz fəxr edirik ki, bizim müəllimlərimiz həmişə Heydər Əliyevin yanında olub, həmişə birlikdə gözəl layihələr işlənib.

Mən istərdim ki, bir problemi də Sizin diqqətinizə çatdırım. Son illər nədənsə bizim bəstəkarlarımızın əsərləri alınmır. Burada çox böyük maliyyə problemi yaranır. Ona görə ki, bizim Bəstəkarlar İttifaqında 11 bölmə fəaliyyət göstərir və bu bölmələrdə bütün janrlara aid olan əsərlər dinlənilir, seçilir. Biz istərdik ki, bu əsərlər alınsın. Ona görə ki, bu, həm bəstəkarlara və musiqişünaslara ruh verər, həm də ki, bu, yenə də Sizin dəstəyinizin bir təzahürü olar.

Bundan başqa, istərdik ki, sifarişlər də olsun. Sizin sərəncamlarınız bizim bəstəkarları və musiqişünasları çox gözəl istiqamətləndirir. Yəni, hansı mövzulara daha böyük diqqət yetirmək lazımdır. Bu baxımdan, bizim Mədəniyyət Nazirliyi yeni əsərlər sifariş etsəydi, daha uyğun olardı və bu əsərlər daha müntəzəm meydana gələrdi.

Bundan başqa, yada salmaq istəyirəm ki, Bəstəkarlar İttifaqı bütün beynəlxalq musiqi festivallarının təşkilində yaxından iştirak edir. Biz fəxr edirik ki, "Muğam aləmi" festivalı artıq beş dəfə keçirilib. Biz bu festivalda çox fəal iştirak edirik. Çox yüksək səviyyədə simpoziumlar keçirilir. Amma Bəstəkarlar İttifaqının da özünün gözəl Şəki festivalı, "İpək Yolu" festivalı var. Təəssüflər olsun ki, son illər biz bu festivalı keçirmək üçün heç bir maliyyə dəstəyi ala bilmirik. Bu il artıq 10-cu yubiley festivalı keçiriləcək və çox istərdik ki, burada bir az bizə dəstək versinlər. Son festivalda mədəniyyət naziri də iştirak etdi. Gördü ki, orada çox yüksək səviyyədə, UNESCO səviyyəsində simpozium keçirildi. Çox gözəl keçdi və UNESCO-nun saytında da bu barədə çox qiymətli sözlər söyləniIdi. Biz istərdik ki, bu proses davam etsin və bizim Sizin dəstəyinizə də ehtiyacımız var.

Nəhayət, "Nəsimi ili" bizi çox sevindirdi. Ona görə ki, necə deyərlər, bizim bəstəkarlarımızın qələmləri həmişə əllərindədir, həmişə yazıb-yaradıblar. Bizim xalqımızın bütün sevincləri, problemləri bəstəkarların əsərlərində əks olunur. Mən inanıram ki, bəstəkarlar və musiqişünaslar həmişə yüksək səviyyədə, yəni, Sizin dəstəyinizə layiq olan əsərlər yaradacaqlar. Diqqətinizə görə təşəkkür edirəm. İstərdim ki, bizim bəstəkarlarımızın və musiqişünaslarımızın dərin minnətdarlığını bir daha Sizə çatdırım. Sağ olun.

❖ ❖ ❖

Xalq artisti, professor **Arif BABAYEV** dedi:

- Hörmətli Prezident.

Hörmətli Mehriban xanım.

Əziz həmkarlar, hamınızı salamlayıram.

Mən öz fikrimi qısa şəkildə deyəcəyəm. Mən müsabiqələr haqqında danışmaq istəyirəm. Bizim növbəti muğam müsabiqəmiz bu yaxınlarda başlayacaq. Həddindən çox insan zəng edir, soruşur, maraqlanır, deyir ki, mən o müsabiqədə iştirak etmək istəyirəm. Doğrudan da, çox böyük bir layihədir. Sağ olsun bu layihəni quran Mehriban xanım. Çünki muğam müsabiqələrinin keçirilməsi bizim sənət adamlarının inkişafına çox böyük təkandır. Yəni, cavanların araya-ərsəyə gəlməsi, onların püxtələşib xanəndə kimi formalaşması böyük işdir. Məsələn, bu yaxınlarda Ağdamda möhtəşəm bir bina tikildi. Açılışda cənab Prezident, Mehriban xanım da iştirak etdilər. Yəni, bununla demək istəyirəm ki, çox sağ olun cənab Prezident, Mehriban xanım. Siz milli mədəniyyətimizin inkişafına, doğrudan da, böyük qiymət verirsiniz. Bu yaxınlarda, - gərək mən deyim bunu, - onurğa sütunumda bir problem var idi, sağ olsun Mehriban xanımın köməyi ilə o problem aradan qaldırıldı. İndi şükür Allaha ki, ayaq üstəyəm. Buna görə də Sizə təşəkkürümü bildirirəm.

Onu demək istəyirəm ki, cənab Prezident, camaatın Sizə çoxlu xeyir-duası, alqışları var. Mən bir sənət adamı kimi, bir ağsaqqal kimi Sizə "Çox sağ olun!" deyirəm. Bu yeni fərmanlar camaatı çox sevindirdi və çox böyük işdir. Mən qulaq asdım, doğrudan da, çox sevindim və camaat da sevindi. Bunu alqışlayırlar. Doğrudan da, bu, böyük işdir.

Mən demək istəyirəm ki, uşaqlar musiqi məktəblərində formalaşırlar. Xalq və bəstəkar mahnılarını onlara balaca vaxtlarından öyrətmək lazımdır. Onların not bilmələri daha yaxşıdır. Bir xanəndə kimi biz bunu görürük. Mən hazırda Milli Konservatoriyada kafedra müdiriyəm. Bizim peşəkar, çox gözəl müəllim yoldaşlarımız var, birgə çalışırıq və yaxşı xanəndələri ortaya çıxarırıq.

Mən Sizə təşəkkürümü bildirmək istəyirəm. Çox sağ olun, var olun. Diqqətinizə görə təşəkkür edirəm.

❖ ❖ ❖

Azərbaycanın və SSRİ-nin xalq artisti, Milli Məclisin deputatı **Zeynəb XANLAROVA** dedi:

- Mən də bir-iki kəlmə söz demək istəyirəm. Görürəm ki, bəzi çıxışlar xahişlərdən ibarətdir. Mənim xahişim yoxdur. Mən ancaq danışa bilərəm. Ataların bir sözü var: "Görünən dağa nə bələdçi".

Azərbaycanımız çox gözəlləşib, çox böyük inkişaf var. Biz əvvəlki dövrləri də görmüşük, gələn turistləri də görmüşük. Hələ indiyə qədər Azərbaycana bu cür turist axını olmayıb. Hamı nəyə görə gəlir? Ancaq Azərbaycanımızın gözəlliyinə. Neçə prezidentlər görmüşəm. Mən bu sözü dəfələrlə demişəm, yenə də özümü xoşbəxt hesab edirəm ki, bu sözü həmişə təkrar edirəm. Elə prezidentlərimiz, elə başçılarımız olub ki, bizim kəndlərimizi, rayonlarımızı tanımırdılar.

Bizim əziz Prezidentimiz, bizim əzizimiz Mehriban xanım rayonları, kəndləri qarış-qarış gəzirlər. Mən onlara indi rayon deyə bilmərəm, mən onlara şəhər deyərəm. Mən bu qədər ölkə gəzmişəm, inanın, bəlkə də elə bir şəhər görməmişəm. Mən, misal üçün, keçmişdə konsertlər verirdim. Nə qədər konsertlər vermişəm. Ancaq maşınların kuzalarını birləşdirirdilər, üstünə xalçalar döşəyirdilər. Biz onun üstündə stadionlarda yorulmadan konsertlər verirdik. İndi, maşallah, hər bir rayonda elə böyük mədəniyyət sarayları yaradılıb ki, sanki Heydər Əliyev Mərkəzidir. Gözəl hotellər, mərkəzlər tikilib. Vallah, bunu görməmək korluqdur. Ancaq kor adamlar bunları görə bilməz.

Mən Prezidentimizə uzun ömür arzulayıram. Çünki o, Azərbaycanı bu qədər inkişaf etdirib, bu qədər gözəlləşdirib. Hər il mən xaricdə oluram. O qədər gözəl sözlər deyirlər. Fəxr edirəm ki, mənim Azərbaycanım belə inkişafdadır. Mən heç bir xahişdən ötrü gəlməmişəm. Xahiş edirəm, çıxış edənlər də bu gözəlliklərdən danışsınlar. Xahiş lazım olanda onsuz da elə bir adam yoxdur ki, Prezident onunla ayrıca görüşməsin, onu ayrıca eşitməsin. Xahiş edirəm, burada olanlardan, Azərbaycanımızın gözəlliklərindən, inkişafından danışaq.

Mən bunu dəfələrlə demişəm ki, ölməz Heydər müəllimimiz var. İnanın, mən onun yoxluğuna inanmıram. Mən elə bilirəm ki, Heydər müəllim hələ də yaşayır. Siz nə qədər yaşayırsınızsa, Heydər müəllim də həmişə yaşayacaq. Azərbaycan nə qədər varsa, həmişə Heydər müəllim var, Sizinlə birlikdə həmişə yaşayır.

Mehriban xanım, Sizə, mənim əziz Prezidentim, Sizə cansağlığı arzulayıram. Bəlkə də mən natiq deyiləm. Mən 70 ildir səhnədəyəm, indiyədək fonoqramla oxumamışam, səslərini verirlər. Hətta Amerikada qollarımdan tutub deyiblər ki, görəsən, bu, canlı oxuyur, yoxsa fonoqram? Ömrüm nə qədər var, mən canlı oxuyacağam və fonoqram görməyəcəyəm. Yəni, bunu da demək istəyirəm. Danışmağa çox sözüm var. Əlbəttə, muğam olsa, mahnı olsa, mən burada çox oxuyaram, qolumdan tutub çıxarmasanız səhnədən. Ancaq inanın, ürəyimdə Azərbaycanımızın gözəlliyi haqqında o qədər sözlər var ki, yoldaşlardan xahiş edirəm, xahişlərinizi saxlayın, Azərbaycanımızın gözəlliyindən, inkişafından danışın. Çox xahiş edirəm sizdən. Sağ olun.

❖ ❖ ❖

Xalq artisti, Azərbaycan Teatr Xadimləri İttifaqının sədr müavini **Hacı İSMAYILOV** dedi:

- Möhtərəm cənab Prezident.

Hörmətli Mehriban xanım.

Mən bizim dünya şöhrətli müğənnimizlə tamamilə şərikəm ki, Azərbaycanın gözəllikləri bu gün göz oxşayır. Amma o gözəlliklərlə yanaşı, biz dayana bilmərik, biz qabağa getməliyik, inkişaf etməliyik hər barədə, həm mədəniyyətimiz, həm iqtisadiyyatımız. Mən fürsətdən istifadə edərək, möhtərəm Prezidentimizə ürəkdən təşəkkür edirəm. Nəinki mədəniyyət xadimləri, bütün Azərbaycan xalqı sizi çox istəyir, Sizə böyük ehtiramları, böyük inamları var. Mədəniyyət işçiləri, hamımız sevinirik ki, bizim belə Prezidentimiz var. Dünya şöhrətli, gözəl, böyük siyasəti olan, Azərbaycanın xoşbəxtliyini təmin edə bilən bir insan bizim möhtərəm Prezidentimizdir, dövlətimizin başçısıdır.

Əlbəttə ki, müstəqil Azərbaycan Respublikası bu gün sürətli inkişaf yolundadır. Bu gözəlliyi hamımız görürük. Onu da qeyd edim ki, bu inkişaf başqa sahələrlə yanaşı, eyni zamanda, mədəniyyətimizin və incəsənətimizin də inkişafına kömək edir. Sözsüz ki, bu inkişaf, canlanma, cənab Prezident, Sizin mədəniyyətə, xüsusilə də teatr sənətinə qayğı və diqqətiniz sayəsində mümkün olmuşdur. Ulu öndər Heydər Əliyev teatrı və aktyor sənətini həmişə yüksək qiymətləndirib, ona böyük dəyər verib. O deyərdi ki, teatr müqəddəs yerdir, tərbiyə ocağıdır, orada işləyənlər fədakardırlar, fədaidirlər. Mən həmişə teatra yaxın və bağlı olmuşam. Bu, ötəri hiss deyil. Bu, mənim içimdən gələn bir məhəbbətdir. Ümummilli liderimizin mədəniyyətə qayğısı, diqqəti bu gün məhz Azərbaycan Respublikasının Prezidenti hörmətli İlham Əliyev tərəfindən davam etdirilir. Əlbəttə, o gözəllikər deyirsiniz, inanın, mən Azərbaycanda olan teatr binalarını, təmir olunmuş teatr binalarını, o səhnələri, o gözəllikləri görəndə deyirəm, İlahi, nə yaxşı ki, biz bu gözəl dövlətin vətəndaşlarıyıq. Əlbəttə, vətəndaş olmaq üçün gərək vətəni sevəsən, dövlətinə qulluq edəsən, millətinə xidmət edəsən. Bu gün buraya yığışan insanların, Azərbaycanın görkəmli incəsənət, mədəniyyət xadimlərinin, sözsüz ki, bu işdə böyük fəaliyyəti, böyük zəhməti olub. Mən onların hamısına ürəkdən təşəkkür edirəm. Burada məndən yaşlı, məndən titullu insanlar var. Amma çox sevinirəm ki, bu gün hamımız bir yerdəyik. Hamımız bir yerdə Azərbaycan mədəniyyətinin təntənəsi uğrunda nələrisə deyirik, nələrisə istəyirik.













# mədəniyyət sahəsi olacaq

Əlbəttə, sənət adamlarına verilən fəxri adlar, Prezidentin fərdi təqaüdü, mükafatlar, onların mənzillə təmin olunması - inanın, cənab Prezident, Siz nə qədər böyük işlər görmüsünüz ki, hamımızın qəlbində Sizə böyük ehtiram, böyük məhəbbət var. Biz Sizi çox istəyirik. Həmişə Sizin yanınızda olmuşuq. İnanın, son prezident seçkilərində mədəniyyət işçiləri Sizi çox böyük coşqu ilə dəstəklədilər. Həmin gecə Sizin parka gəlişiniz, oradakı görüşlər, o şadlıq, o bayram mənim heç yadımdan çıxmır. Azərbaycan xalqı bütövlükdə sevinirdi ki, bizim belə Prezidentimiz var. Sizin mədəniyyətə, teatr sənətinə olan münasibətiniz bizi çox sevindirir.

Onu da deyim ki, 50 ilə yaxın işlədiyim Azərbaycan Akademik Milli Dram Teatrı bu illər ərzində böyük uğurlar qazanıb. Uğurlarımız da onda olub ki, biz elə saydığımız yerdə qalmamışıq. Bizim teatrda əvvəllər böyük səhnə və kiçik səhnə olub, indi artıq böyük səhnədən başqa dörd səhnəmiz var.

Bu gün bizim martın 1-də toplaşmağımız çox əlamətdardır. Çünki 2013-cü ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev məhz martın 1-də Azərbaycanda 10 mart - Milli Teatr Gününün təsis edilməsi haqqında sərəncam imzalayıb. Artıq 6 ildir ki, biz bu günü bayram edirik, buna görə Sizə ürəkdən təşəkkür edirik. Bu, milli teatra verilən dəyər və qiymətdir.

Akademik Milli Dram Teatrının böyük bir arzusu var. Əvvəla deyim ki, kollektivimiz Sizi həmişə arzulayır, həmişə istəyir. Çünki bu adət bizə ulu öndər tərəfindən miras qalmışdır. O, həmişə teatra gələndə tamaşadan sonra aktyorlarla, rejissorlarla söhbət edirdi. İndi də bu istək var, həmişə də bizim işçilər tərəfindən səslənir. Mən istəyirəm onu bir şəkili Mustafa kimi deyim: Sa qurban olum ay Allah, noolar, elə et bizim möhtərəm Prezidentimiz bir dəfə bizim Akademik Milli Dram Teatrına təşrif gətirsin, biz o günü bayram edək.

Əlbəttə, bu gün Azərbaycan teatr xadimlərinin gördüyü çox işlər var. Yəni, bir çatışmayan, daha doğrusu, arzuolunan odur ki, Azərbaycanda gənc dramaturqlara və gənc rejissorlara çox böyük ehtiyac var. Biz də, bizim direktorumuz Azərpaşa müəllim də bu barədə fikirləşdi. Keçən il bizim ittifaqda 5 yaradıcılıq laboratoriyası açılıb. Gənc rejissorların, aktyorların, eksperimental rejissorların, tənqidçilərin və bir də gənc dramaturqların laboratoriyası artıq fəaliyyət göstərir. Burada 43 nəfər təhsil alır və mən inanıram ki, onların Azərbaycan mədəniyyətinə böyük töhfələri olacaq. Çünki bunlar hamısı gəncliyə aiddir və gənclər mütləq bu sənətə gəlməlidirlər. Bizlərin çoxu yaşlaşır.

Mən bir cəhəti də qeyd edim ki, Azərbaycanda tamaşaçı problemi var. Ancaq bu, bizim teatra aid deyil. Maşallah, bizim teatrda həmişə tamaşaçılar olur, yəqin ki, bizim teatrı çox istəyirlər. Amma bizim teatrda uşaq tamaşaları var. Mən mətbuatda oxumuşam, tənqid edirlər ki, Akademik Milli Dram Teatrına uşaq tamaşaları hazırlamaq yaraşmaz. Axı, bugünkü uşaq sabah böyüyəcək, sabah teatrın əsas tamaşaçısına çevriləcək. Biz onlardan necə əl çəkə bilərik? Burada əyləşən mədəniyyət xadimlərinin hər birindən soruşsanız ki, sən mədəniyyətə, teatra, başqa sənətə hansı yaşından başlamısan, hamı deyəcək ki, məktəb illərindən. Məktəblilərlə teatrların münasibəti, ünsiyyəti qurulmalıdır. Özü də bu, ya yazılı, ya şifahi şəkildə olmalıdır ki, məktəblilər mütləq teatra gəlsinlər. Çünki onlar bizim gələcək tamaşaçılarımızdır.

Bir-iki kəlmə də onu demək istəyirəm ki, çox ağrılı da deyil, paradoksal bir şeydir ki, dövlət tərəfindən maliyyələşən ittifaqlar və təşkilatlar var. Onlar da 18 faiz vergi ödəyir. Amma dövlət tərəfindən maliyyələşməyən Teatr Xadimləri İttifaqı da 18 faiz vergi ödəyir. Burada qəribə uyğunsuzluq var, yəqin ki, bunu düzəltmək olsaydı, bizim daha çox imkanlarımız olardı. Çünki Teatr Xadimləri İttifaqının üzvlərdən yığdığı pulların hamısı o üzvlərin xəstəliyinə, yaşlı olmağına, xeyrinə-şərinə istifadə olunur. Yəni, teatr xadimləri özü-özünü dolandırır. Mən Mədəniyyət Nazirliyinə ürəkdən təşəkkür edirəm. Üç ildir ki, onlar bizə maddi yardım edirlər. Çox sağ olsun Əbülfəs müəllim o barədə. Ürəkdən təşəkkür edirik.

Yəni, deyiləsi sözlər çoxdur. Mən bir şeyi də qeyd edim ki, Azərbaycan Teatr Xadimləri İttifaqı dünyada tanınmış təşkilatın - UNESCO-nun beynəlxalq teatr institutunun üzvüdür. Eyni zamanda, Beynəlxalq Teatr İttifaqları Konfederasiyasının üzvüdür. Buraya MDB, Baltikyanı ölkələr, bir də Gürcüstan daxildir. Bu forumda Azərbaycanı 5 gənc dramaturq, 6 teatr rəssamı, 3 tənqidçi təmsil edib və iki tamaşa oynanılıb. Hazırda isə Mədəniyyət Nazirliyinin bilavasitə təşəbbüsü, maddi köməyi və Azərbaycan Teatr Xadimləri İttifaqının təşkilatçılığı ilə Moskvadakı Şukin adına teatr məktəbində bizim 10 gənc teatr təhsili alır, həm aktyor kimi, həm rejissor kimi. Mən inanıram ki, onlar qayıdandan sonra bizim mədəniyyətimizə öz töhfələrini verəcəklər və eyni zamanda, özlərinin yeni teatr düşüncələrini gətirəcəklər.

İcazənizlə, çıxışımı müstəqil Azərbaycanın memarı və qurucusu ulu öndərin tarixi sözləri ilə bitirim. O deyirdi ki, yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə inkişaf edəcək, həmişə yaşayacaqdır. Mədəniyyət bəşəriyyətin topladığı gözəl nümunələrlə xalqları zənginləşdirir. Azərbaycan mədəniyyəti o zənginliyə öz payını verib və əminəm ki, bundan sonra da verəcək. Diqqətinizə görə çox sağ olun.

❖ ❖ ❖

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, xalq artisti **Fərhad BƏDƏLBƏYLİ** dedi:

- Hörmətli cənab Prezident.

Hörmətli Mehriban xanım.

Bu görüşə görə dərin minnətdarlığımı bildirmək istərdim. Burada əyləşənlərin hamısı, bütün yaradıcılıq ittifaqları Sizi bir il bundan qabaq filarmoniyada dəstəkləyiblər. Mən bacım Zeynəblə razı ola bilmərəm. Nəyə görə, Zeynəb? Firəngiz xanım da, Anar da böyük ittifaqların sədrləridir. Onların min dərdi var. Onlar özləri üçün heç bir şey xahiş etmirlər. Camaatın dərdi var, onlara qulaq asmaq lazımdır. Ona görə də 90 illiyini qeyd edən bəstəkarımız 1991-ci ildə Abxaziyadan lüt gəldi. Mən onu işə qəbul etdim. Bütün ailə Azərbaycan üçün işləyir. Ona görə mən Firəngiz xanımı alqışlayıram və dəstəkləyirəm.

2021-ci ildə bizim Bakı Musiqi Akademiyasının 100 illiyi tamam olacaq. Onun məzunları buradadırlar, dünya şöhrətli ifaçılar Xuraman, Fidan, Firəngiz xanım, maestro Rauf. Yəni, bizim nəticələrimiz çox böyükdür. Bəstəkarlar məktəbi, vokal məktəbi. İndi bizim məzunlarımız Bolşoy Teatrda, La-Skalada ən möhtəşəm səhnələrdə konsertlərlə çıxış edirlər. Mən çox şadam ki, Üzeyir bəyin ənənələri davam etdirilir. Bu ənənələrin çox böyük bünövrəsi var, cənab Prezident, bu, musiqi məktəbləridir. Əgər musiqi məktəbləri, bu gözəl musiqi təhsili sistemi olmasaydı, bizim uğurlarımız da olmazdı. Bunu mütləq və mütləq saxlamaq lazımdır. Nəbadə musiqi məktəblərini ixtisara salmaq, xüsusilə rayonlarda azaltmaq olmaz. Biz rayonları nəyə görə diqqət mərkəzində saxlayırıq. Şəkidə Firəngiz xanım öz festivalını keçirir. Qəbələ festivalına görə sağ olsun Mehriban xanım, onun rəhbərlik etdiyi Heydər Əliyev Fondu. Bu festivala 10 il ərzində ən möhtəşəm orkestrlər, solistlər gəliblər. Camaat indi özləri ailə üzvləri ilə konsertlərə gəlir. Yəni, mühit dəyişir. Rayonlarımızda musiqi məktəbləri çox vacibdir. Ona görə çox xahiş edirəm, biz nəbadə onlara toxunaq.

Mən ikinci məsələyə toxunmaq istərdim. Məncə, artıq ölkəmizdə klassik musiqi alətləri kolleksiyasının yaradılmasının vaxtı gəlib çatıb. Cənab Prezident, bu, bütün dünyada böyük bir bazardır. Sizə misal gətirim. Qvarneri del Cezu skripkasının 2010-cu ildə iki milyon dollar qiyməti var idi. Bu gün onun qiyməti dörd milyon dollardır. Yəni, bunu biz investisiya şəklində ala bilərik və Azərbaycanın bu kolleksiyası olsa, burada bizim ən istedadlı cavan skripkaçılar oturublar. Elvin Qəniyev ayın 7-də maestro Rauf Abdullayevlə filarmoniyada çıxış edəcək. Onun qvarneri skripkası var, ona kirayə veriblər. Mən çox istərdim ki, Rusiyada, misal üçün, 60 milyon dollarlıq kolleksiya alıblar, violonçel. Yenə də deyirəm, bu, investisiyadır. Bu, o demək deyil ki, biz aldıq və qaldı. Vaxt ötdükcə, onun qiyməti qalxır. Əgər mümkünsə, bu kolleksiya məsələsinə baxasınız, cənab Prezident. Bu iki məsələ, bir də mən çox danışmaq istərdim. Amma bu iki məsələyə toxundum.

Cənab Prezident, doğrudan da, biz Sizi dəstəklədik və sözün düzü, biz Sizi çox sevirik. Sizin ailənizi sevirik. Maşallah, Sizin qızınız Leylanı hamı çox istəyir. Mən bir neçə dəfə "Xocalıya ədalət!" kampaniyasında iştirak etmişəm. Bir qarabağlı kimi deyim ki, bu, çox təsirlidir. O kampaniya









bütün dünyada aparılır. Sağ olsun Leyla xanım, ona dərin təşəkkürümü bildirirəm. Qarabağ icmasının üzvü kimi burada Elçin və bizim ağsaqqalımız əyləşib. Biz bir arzu ilə yaşayırıq - bu yol Şuşaya aparan yoldur. İnanırıq ki, biz gec-tez orada olmalıyıq. Biz Şuşasız yaşaya bilmərik. Çox sağ olun.

❖ ❖ ❖

Azərbaycan Memarlar İttifaqı İdarə Heyətinin sədri **Elbay QASIMZADƏ** dedi:

- Möhtərəm cənab Prezident.

Çox hörmətli Mehriban xanım.

Bu gün buraya Azərbaycanın ən görkəmli sənət adamlarını topladığınız üçün hamımızın adından Sizə dərin minnətdarlığımı bildirirəm. Son illərdə Azərbaycanda memarlıq və şəhərsalma sahəsində çox böyük işlər görülüb - şəhərlərimizin abadlığı, yeni-yeni memarlıq əsərlərinin yaranması, tarixi irsimizin qorunub saxlanılması, memarlıq abidələrinin bərpası. Bu işlərdə Heydər Əliyev Fondunun səyləri və zəhməti ölçüyəgəlməzdir. Bizim ölkəmizin Mədəniyyət Nazirliyinin abidələrə olan diqqəti, Sizin sərəncamınızla nazirliyin tərkibində yaranmış Dövlət Xidməti, bunlar hamısı, əlbəttə ki, tarixi irsimizin qorunub saxlanılması üçün çox böyük zəmindir. Bunu təkcə biz yox, bizim beynəlxalq peşəkar qurumlar da görürlər. Ötən ilin mart ayında Siz Beynəlxalq Memarlar İttifaqının rəhbərliyini qəbul edərkən bu yüksək qiymətləri onların özlərindən eşitdiniz. Onlar bunu söylədilər və inanın ki, biz o görüşdən ayrılandan sonra Sizin memarlıq, memarlıq sənəti haqqında yüksək peşəkarlıq səviyyəsində verdiyiniz məlumat onlara çox böyük təəssürat bəxş etdi. Bunun sayəsindədir ki, Azərbaycan memarlığı bu gün dünyada tanınır. Beynəlxalq Memarlar İttifaqının 134 üzvü var. Yalnız 25 nəfər şuranın üzvü var və onlardan biri də Azərbaycan təmsilçisidir. Bu, həqiqətən böyük nailiyyətdir. Bu nailiyyətə biz Sizin səyləriniz nəticəsində gəlib çıxmışıq.

Bu il iyun ayının 7-dən 11-nə qədər Bakıda tarixi şəhərlər və turizm mövzusunda beynəlxalq forum keçiriləcək. Bu forum Sizin dəstəyinizlə keçirilir. Əlbəttə, biz xoşbəxt olarıq ki, o forumun açılışında hər ikiniz iştirak edəsiniz, imkanınız, vaxtınız olsa. Bu forumdan sonra ayın 11-də Beynəlxalq Memarlar İttifaqının Baş Assambleyası keçiriləcək. Bu assambleyanın təşkil olunması üçün adətən müsabiqə keçirilir. Bu dəfə Beynəlxalq Memarlar İttifaqının rəhbərliyi qərara gəlib ki, bunu Bakıda müsabiqəsiz keçirsin. Bizim şuranın növbəti iclasında bəzi üzvlər məsələ qaldırdılar ki, niyə müsabiqəsiz olur, niyə Azərbaycanda olmalıdır? Yəni, gəlin müsabiqə elan edək, kim qalib gələrsə, bunu götürər. Sizin artıq tanıdığınız Beynəlxalq Memarlar İttifaqının prezidenti Tomas Vonier dedi ki, mən sizə bir sual verəcəyəm, əgər mənə cavab verə bilsəniz, mən bu mövzunu davam etdirərəm. Soruşdu ki, neçə illərdir hamınız Beynəlxalq Memarlar İttifaqının rəhbərliyindəsiniz və üzvüsünüz. Mənə deyin görüm, Azərbaycandan başqa hansı ölkədə Beynəlxalq Memarlar İttifaqının rəhbərliyini cənab



Prezident qəbul edib. O dəqiqə mübahisə aradan qaldırıldı.

Biz bu gün tədbirə çox ciddi şəkildə hazırlaşırıq. Tədbiri biz Bakı Media Mərkəzi ilə birgə hazırlayırıq. Bilirsiniz ki, bu tədbirdən sonra iyul ayında Bakıda UNESCO-nun Tarixi İrs Komitəsinin sessiyası keçiriləcək. Əlbəttə ki, bunların hamısı Sizin bu ixtisasa, bu sənətə göstərdiyiniz qayğı və diqqətin nəticəsidir. Mən də heç bir xahişlə müraciət etməyəcəyəm. Mənim, sadəcə bir-iki təklifim var. Bu gün Bakının mərkəz hissəsində çox böyük abadlıq işləri aparılır, tarixi mərkəzində binalar bərpa olunur, təmir edilir. Siz də çıxışınızda çox gözəl vurğuladınız ki, son vaxtlar şəhərsalma problemlərinə çox böyük diqqət yetirilir. Çünki Siz çox gözəl bilirsiniz ki, şəhərsalma dövlətin sosial proqramının əsasını təşkil edən bir amildir. Bizim şəhərimizin tarixi mərkəzinin sərhədləri müəyyənləşməyib. Bakının tarixi mərkəzi var. Mütləq bunun sərhədləri müəyyənləşməlidir. Bu gün Bakının tarixi mərkəzi dörd inzibati rayonun arasında bölünüb. Səbail, Yasamal, Nəsimi və Nərimanov rayonları. Nə qədər bunlara mərkəzdən rəhbərlik olunsa da, aydın məsələdir ki, dörd rəhbərin, dörd komandanın hərəsinin bu işə baxışı müxtəlifdir. Mən təklif edirəm o sərhədlər müəyyənləşsin və Bakının tarixi mərkəzi əsasında xüsusi ərazi vahidi yaransın. Mərkəzi rayon - bu təcrübə başqa paytaxtlarda var, Moskvada da var. Bunu etsək, orada tətbiq olunan qanunlar, normalar, əlbəttə, başqa yerlərdən fərqlənəcək. Yeni Yasamalla Bakının tarixi mərkəzində tələblər eyni ola bilməz. Bu, təbiidir. Onda Sizin istədiyinizə, Bakının tarixi mərkəzinin qorunub saxlanılmasına biz mütləq nail ola bilərik.

İkinci məsələ. Burada yaradıcı ittifaqların rəhbərləri oturublar, məncə bu məsələ onlara da çox yaxındır. Bu gün yaradıcılıq ittifaqlarının fəaliyyəti Azərbaycan Respublikasının "Qeyri-hökumət təşkilatları haqqında" Qanunu ilə tənzimlənir. Məncə bu, üzr istəyirəm, bir qədər ədalətsizdir. Çünki biz yaradıcı ittifaqlar dövlətin siyasətini dəstəkləyərək yaradıcılıqla, quruculuqla məşğuluq. Amma həmin qanun çərçivəsində bir çox təşkilatlar var ki, onlar əks fəaliyyətlə məşğuldurlar. Mən bilirəm ki, dörd il bundan öncə Milli Məclisdə "Yaradıcılıq birlikləri haqqında" qanunun hazırlanması başlamışdı. Mən müəyyən qədər orada iştirak etmişəm, məsləhətlərimi vermişəm. Sonra o qanunun hazırlanması dayandı. Düşünürəm ki, bu gün elə bir qanunun qəbul olunması həm yaradıcılıq ittifaqlarının statusunu qaldırar, həm onlardan olan fayda başqa ictimai təşkilatlardan fərqlənər və bunu hamı görər ki, yaradıcı kimdir, dağıdıcı kimdir. Məncə bunu bərpa etmək lazımdır.

Sonuncu, bəlkə də xahişdir, demişdim ki, etməyəcəyəm. Amma bu, elə bir xahişdir ki, mən bilirəm, Sizin ürəyinizcə olacaq. Bakının müasir dövrdə, yəni, XX əsrdə memarlıq simasının formalaşmasının iki banisi olub - Sadıq Dadaşov və Mikayıl Hüseynov. Bakıda Zivər bəyin heykəli var, amma bu iki nəfərin heykəli yoxdur. İcazənizlə biz onun layihəsini hazırlayarıq. Biz Ömər müəllimlə bir yerdə bu layihə üzərində bir müddət işləmişik, onu təqdim edək. Xahiş edirəm, bu iki böyük şəxsiyyətə Bakıda mütləq abidə qoyulsun. Çox sağ olun. Sizə uğurlar, cansağlığı arzu edirəm.

❖ ❖ ❖

Xalq artisti **Afaq BƏŞİRQIZI** dedi:

- Canım Prezidentim, mənim Sizə danışmamağım qeyri-mümkündür. Canım Prezidentim, çünki Sizi mən seçmişəm. Mən Sizə səs vermişəm. Mən Sizi dəstəkləyirəm.

Canım Mehriban xanım, bu gün mənim burada oturmağımın səbəbkarı göydə Allah, yerdə Sizsiniz. Mənim səhhətimə göstərdiyiniz o qayğıya görə Sizə minnətdaram, ömrüm boyu minnətdar olacağam.

Burada əyləşən bütün incəsənət xadimləri sənətə öz canlarını qoyublar və bu sənətin inkişafında çox böyük rolları olubdur. Lakin biz bununla kifayətlənməməliyik. Biz Sizin sərəncamlarınızdan sui-istifadə edənlərə qarşı çox böyük bir inqilab etməliyik. İki açıq cəbhəsi olan ovuc boyda Azərbaycanı Siz necə qoruyursunuz? Bu dövlətçiliyi necə qoruyursunuz? Hər birimizi necə qoruyursunuz? Siz necə əziyyətlər çəkirsiniz? Bunu biz hamımız başa düşməliyik. Sizin əməyinizi qiymətləndirmək bu balaca məclislərdə deyil, geniş meydanlarda olmalıdır, bizim müsahibələrimizdə olmalıdır. Bu hadisəni başa düşməyən və bu hadisədən sui-istifadə edən ortabab xalqı, bəlkə də deyim Sizə ki, sadə bir xalqı qızışdıran, vətənin bu vəziyyətində öz şəxsi ambisiyaları üçün istifadə edən şəxslərə bizim dilimiz çox uzun olmalıdır. Çünki hər bir xalqı mədəniyyəti ilə tanıyırlar. Hər bir tikilini təzədən bərpa etmək olar, hər bir dağıntını təzədən qurmaq olar, amma mədəniyyət çat verərsə, bu, çox böyük bir bəladır. Burada oturanlar bilirlər ki, bizə, bizim mədəniyyətimizə çox böyük qayğı var. Bəlkə də biz yeganə xalqıq fikirləşirik ki, problemlərimiz olanda Prezidentimizə, Mehriban xanıma deyəcəyik və onlar bizi bu bəladan, bu problemdən qurtaracaq. Bəlkə də bizim içimizdə bunu təsdiq edənlər var. Çox problemləri biz onların vasitəsilə həll etmişik. Amma bu, təkcə şəxsi ambisiya üçün olmamalıdır. Bizdən sonra yeni nəsil yetişir, yeni, cavan nəsil gəlir. Bəli, çox gözəl mədəniyyət nazirlərimiz olub. Mənim yaşım o vaxta çatmayıb, amma biz onlarla indiki kimi ünsiyyət qura bilməmişik. İndiki kimi deyə bilməmişik ki, cənab nazir, filankəs ağır vəziyyətdə xəstəxanadadır, özəl xəstəxanadır, onun pulu ödənməlidir, o, oradan çıxmalıdır. Bilirsiniz, bütün bunlar hamısı həyat hadisələridir. Bunun hamısını biz çılpaqlığı ilə deməliyik, boynumuza almalıyıq. Nə üçün? Çünki bizim həyat devizimiz, yəni, aktyorların, incəsənət xadimlərinin əsas həyat devizi təbii, düzgün olmaqdır. Biz yalanlardan uzaq olmalıyıq.

Cənab Prezident, teatr başqa sahələrə nisbətən bir az çətin vəziyyətdədir. Yəni, Mehriban xanımın qayğısı ilə bizim musiqiçilərimiz, Allaha şükür olsun, muğam festivalı, hamısı maşallah təmin olunublar. Çox sevinirəm. Bizim özümüzün də Sizin xüsusi mükafatınız, Allah ulu öndərimizə qəni-qəni rəhmət etsin, xüsusi təqaüdünüz var. Amma biz tək deyilik. Biz özümüzdən sonrakıları da fikirləşməliyik. Cənab Prezident, mənim işlədiyim Musiqili Teatr, - şəhər mərkəzində yerləşən, öz sənəti, öz tarixi, öz sənətkarları olan bir teatr, - üçüncü kateqoriyadadır. Mən bir faktı diqqətinizə çatdırmaq istəyirəm. Aktyor səhər tezdən kirayə qaldığı Müşfiqabaddan iki övladı və yoldaşı ilə çayını, çörəyini götürüb gəlib konservatoriyanın qabağında dayanır. Uşaqların biri dərsə gedir, ikinci uşağı ikinci növbəyə hazırlayırlar. Orada onu yedirdir, özü isə məşqə gedir. Axşam yenə də həmin o ailə qayıdır Müşfiqabada. Sizə demək istəyirəm ki, bəli, Afaq Bəşirqızına ev, mükafat, fəxri ad verilib. Çox sağ olun. Amma Afaq Bəşirqızı tək deyil. Afaq Bəşirqızı özündən sonrakıları fikirləşməlidir. Sizə olan xahişlər buna görədir, ümumi xalq üçündür.

Canım Prezidentim, çox xahiş edirəm, imkansız aktyorların maaşı və bir də evlə təmin olunması məsələsinə diqqət yetirilsin. Aktyorlarımızın mənzil şəraiti və sosial vəziyyəti ağırdır, bilirsiniz ki, maaşlarımız azdır. Başa düşürük, indi bizim Sizdən heç nə tələb etməyə ixtiyarımız yoxdur. Çünki biz müharibə şəraitində yaşayan bir ölkəyik. Bunun hamısını bilirik və başa düşənlər bunu bilirlər. Amma çox xahiş edirik, teatr sahəsinin, Teatr Xadimləri İttifaqının inkişafı ilə bağlı yeni konsepsiya hazırlanmalı, yeni işlər görülməlidir. Çünki teatr xadimlərinin Teatr Xadimləri İttifaqına həqiqətən də çox böyük ehtiyacı var.

Qarşıdan gələn Novruz bayramınız mübarək olsun. Uğurlu, xeyirli olsun. Gün o gün olsun ki, Allah qoysa, Qarabağda görüşək, sevinək və dərindən bir sevinc ahı çəkib deyək ki, çox şükürlər olsun Sənə, İlahi, alnımız qeyrətlə açıldı. Çox sağ olun.

❖ ❖ ❖

Xalq artisti **Mehriban ZƏKİ** dedi:

- Hörmətli cənab Prezident.

Hörmətli Birinci vitse-prezident Mehriban xanım.

Mən Sizə dərin təşəkkürümü bildirmək istəyirəm. Hər zaman mədəniyyətimizə, incəsənətimizə qayğınız olub və bugünkü görüşümüz bunun bariz nümunəsidir.

Mədəniyyət, bədii yaradıcılıq nümunələri hər zaman arxetiplərimizdən qaynaqlanmalı, tariximizə, köklərimizə söykənməli və bu, günümüzlə aktuallaşmalıdır. Mənim uşaq vaxtı gördüyüm ilk filmlərdən biri "Nəsimi" filmi idi. Bəlkə də həmin film, - altı-yeddi yaşım olardı, - məni sənətə bağladı, Nəsimi poeziyasına sevgimi artırdı. O vaxtdan mən - altı-yeddi yaşlı uşaq Nəsiminin qəzəllərini əzbərləməyə başlamışdım. Həmin o sevgim illər boyu daha da artdı, artıq yarım əsr keçib. Keçən ilin sentyabr ayında Heydər Əliyev Fondunun və şəxsən Leyla xanımın təşəbbüsü ilə Nəsimi festivalı keçirildi. Bakıda, Moskvada bu tədbirdə fəal şəkildə iştirak etdim. Cənab Prezident, bu il Sizin sərəncamınızla elan edilən "Nəsimi ili" ilə bağlı təşkil olunan bütün tədbirlərdə fəal şəkildə iştirak edəcəyəm. Həm Bakıda, həm bölgələrdə öz təşəbbüsümlə tədbirlər təşkil edəcəyəm, xaricdə də tədbirlərdə iştirak edəcəyəm. Mən niyə Nəsimidən danışdım? Çünki mədəniyyətdə və dövlətçilikdə kino çox böyük bir rol oynayır, çox böyük bir maarifləndirmə vasitəsidir. Mən bu gün teatr-kino aktrisasıyam. İki universitetdə müəllim işləyirəm və tələbələrim var ki, çox istedadlıdırlar. Çox istedadlı gənc nəslimiz yetişir.

Teatr barədə danışdılar. Mən daha çox diqqətinizi kinoya yönəltmək istəyirəm. Mənim gəncliyimdə kinostudiyanın həyətində, onun divarları arasında çox fəal yaradıcı proseslər baş verirdi. Son illərə qədər bu proses davam edirdi. Müasir dövrdə, müstəqillik dövrümüzdə artıq çəkilmiş filmlər, mənim də çəkildiyim "Nabat", "Yarımçıq xatirələr", "Dolu", "Axınla aşağı" filmləri və adlarını unutduğum bir çox filmlər var. Bir çox filmlər A kateqoriyalı festivallarda iştirak edib, müəyyən nailiyyətlər qazanıb. Amma təəssüf edirəm ki, son iki ildə dövlət sektorunda filmlərimizin inkişafı, çəkilməsi nədənsə avazıyıb. Kinostudiyamızın divarları soyuyub. Ona görə, cənab Prezident, mənim o uşaqlıq arzum olan kinostudiyada coşqun həyat, sənət eşqi davam etsin, diqqətinizi bir daha oraya yönəltmək istərdim. Sizə təşəkkür edirəm.

❖ ❖ ❖

Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının sədri, xalq artisti **Şəfiqə MƏMMƏDOVA** dedi:

- Möhtərəm cənab Prezident.

Çox hörmətli Mehriban xanım.

Vaxtınızı almaq istəmirəm. Mən bəlkə də protokoldan kənar danışacağam, ona görə çox qısa sözüm olacaq. Çox həyəcan keçirirəm, çünki, ilk növbədə, dərin təşəkkürümü bildirirəm ki, bu görüşümüzü təşkil etmisiniz, bizə diqqət yetirmisiniz. Hər şeyə görə minnətdaram. Amma mən xahiş edirəm, burada bir neçə ittifaqların sədri çıxış etdi, çox gözəl təkliflər, çox gözəl xahişlər oldu. Amma mən istərdim ki, bu Kinematoqrafçılar İttifaqının aqibətini bu gün Sizə çatdırım. Artıq 6 ildir ki, təsis olunmuş Respublika Kinematoqrafçılar İttifaqı binasızdır. Azacıq da olsa bizə dəstək verilən o büdcədən il boyu biz kirayə pulu veririk. Fəaliyyətimizə uyğun olmayan yerdə yerləşirik. Düzdür, ağlamırıq. Məktublar yazmışam, lakin bəlkə çatmayıb. Bunu mən dəqiq deyirəm. Görürsünüz, burada nə qədər kinematoqrafçılar əyləşiblər, mən buna görə çox sevinirəm. Bu ittifaq 6 ildir fəaliyyət göstərməsinə baxmayaraq, çox böyük işlər görüb, onun artıq 400-ə yaxın üzvü var. Ümumiyyətlə, ittifaqın aqibəti elə olub, həmişə binasız olub. Bilirsiniz, Rəssamlar, Bəstəkarlar, Teatr Xadimləri, Yazıçılar ittifaqları Xəqani küçəsində düzülüb. Amma kinematoqrafçıların ordusu çox böyükdür. Onların içində operatorlar, istehsalın bütün növünə aid istər rəssamlar, istər sexlərin işçiləri, istər operatorlar, rejissorlar, ssenaristlər var. Kinematoqrafiya elə böyük sahədir ki, mən say naminə çox xahişlər edə bilərdim. Çünki İttifaq, doğrudan da, cavan olmasına baxmayaraq, çox işlər görüb. Amma çox istərdim, bilirsiniz artıq bu, mümkünsüzdür, il boyu mənim büdcədən verilən vəsaitimin çox hissəsi kirayəyə gedir. Ona görə mən Sizdən xahiş edirəm, bizə elə bir məkan verilsin ki, artıq bu, Kinematoqrafçılar İttifaqına layiq olsun. Doğrudan da, Kinematoqrafçılar İttifaqının istər İdarə Heyəti, istər çoxsaylı üzvləri Sizə çox əmindirlər. Təşəkkür edirəm.

Ardı 4-cü səh.

# Sistemli islahatların növbəti mərhələsi



Əvvəli 3-cü səh.

❖ ❖ ❖

Azərbaycan Dövlət Rus Dram Teatrının baş rejissoru, xalq artisti **Aleksandr ŞAROVSKİ** dedi:

- On-on bir il əvvəlin gözəl may günü mənim və Rus Dram Teatrının bütün kollektivinin yaddaşında həmişəlik qalıb. O vaxt Siz və Mehriban xanım gəldiniz və bütün aparatlarla, əsl teatra xas olan hər şeylə təchiz olunmuş yeni binanın açılışını etdiniz. Sizə deməliyəm ki, həmin vaxtdan teatrın yeni həyatı başladı. Dövlət sifarişi ilə biz bugünədək hər mövsümdə 7-8 tamaşa hazırlayırdıq və indi də hazırlayırıq. Biz çoxlu qastrollara gedirik, kollektivləri qəbul edirik, Moskva teatrları bizdə qastrolda olublar. Biz də xarici ölkələrə və şəhərlərə qastrollara gedirik. Sizin şəxsən gördüyünüz xeyirxah işlərin sayı-hesabı yoxdur. Bunlar həm mükafatlar, həm məvaciblərin daim artırılması, həm sosial layihələr və qanunlar, həm də nəhayətsiz və çox gözəl, daim davam edən tikinti işləridir. Bütün qonaqlarımız şəhərimizin gözəlliyinə valeh olurlar və heç bir yerdə bunun şahidi olmadıqlarını deyirlər.

Yeganə olaraq, burada böyük müğənnimiz də söylədi ki, xahişlə müraciət etmək olmaz. Lakin icazə verin, hər halda kiçik bir xahişlə Sizə müraciət edim. Məsələ bundadır ki, teatr 100 illik yubileyi ərəfəsindədir və o vaxt bizim teatrın açılışı zamanı Siz də dediniz ki, Azərbaycanda rus teatrı həmişəlikdir. Siz keçmiş ittifaq respublikalarında rus teatrlarının əksəriyyətinin necə acınacaqlı vəziyyətdə olduğunu və bizim bu fonda özümüzü necə yaxşı hiss etdiyimizi bilməlisiniz. Lakin məsələ bundadır ki, həmin respublikalarda rus dram teatrları akademikdir, bizdə isə yox. Çox istərdik ki, biz də bu qürurverici adı daşıyaq və Sizinlə birlikdə sevinək. Çox sağ olun.

❖ ❖ ❖

Əməkdar artist **Tahir İMANOV** dedi:

- Cənab Prezident.

Çox hörmətli Mehriban xanım.

İlk növbədə, təşəkkürümüzü bildiririk ki, bizi, KVN-çiləri bu gözəl tədbirə dəvət etmisiniz. Bir daha fürsətdən istifadə edib hamımızın adından təşəkkür bildiririk ki, KVN-nin ən çətin illərində bizə dəstək olmusunuz. Məhz Sizin sayənizdə “Parni iz Baku” KVN komandası ən yüksək zirvələrə qalxıb, əsrin çempionu adını qazanıb. Biz bu gün də KVN-i yaşadırıq, təbii ki, teatrımızın çərçivəsində. Mən heç vaxt özüm üçün xahiş etməmişəm. Bu gün də xahiş etməyəcəyəm. Ancaq nəzərinizə çatdırmaq istəyirəm ki, bu son illərdə bizə qoyulan qadağalara baxmayaraq, biz aktiv fəaliyyətimizi davam etdiririk. Bunun nəticəsi kimi, Leyla xanımın köməyi ilə biz Rusiyada çox böyük filmi təqdim etdik. Nəinki Rusiyada, MDB-nin 9 ölkəsində bu film yayım hüququ aldı. Hazırda ikinci film üzərində işləyirik. İkinci Dünya müharibəsi qəhrəmanı, milliyyətcə azərbaycanlı olan Əhmədiyyə Cəbrayılov haqqında film üzərində işləyirik. Daha dəqiq desəm, Rusiya Prodüserlər Gildiyasının prezidenti Renat Davletyarovun, həmçinin Rusiya Kino Fondu adlı bir qurum var, onların razılığını almışıq. Hörmətli səfirimiz Polad Bülbüloğlu bu barədə Rusiya Mədəniyyət Nazirliyinə də məktub yazıb, onlardan da müsbət cavab almışıq. Hətta Rusiyanın “Rossiya 1” kanalı bu filmin 4 seriyasında maraqlıdır ki, film orada da işıq üzü görsün. Bildiyiniz kimi, 2020-ci ildə bütün bəşəriyyət faşizm üzərində Qələbənin 75 illik yubileyini qeyd edəcək. O cümlədən də biz - Azərbaycan Respublikası. Ona görə Sizdən xahiş edirəm ki, bizə bu işdə yardımçı olasınız. Bir neçə biznesmenə, tanınmış iş adamlarına müraciət etmişik, amma hamı bir nəfər kimi deyir ki, qadağalarınız olmasaydı kömək edərdik. Sizdən xahiş edirik ki, bizə bu işdə yardımçı olasınız. Əgər imkan olarsa, başqa bir görüşdə biz bu barədə daha ətraflı məlumat verə bilərik. O cümlədən Sizdən teatrımızın aparıcı aktyorları Bəhram Bağırzadə və Cabir İmanov üçün fəxri ad xahiş edirəm. Çünki biz heç bir dövlət qurumunun balansında deyilik. Ona görə bu sistemi bilmirik, bu sistem necə həyata keçirilir, məktublar necə yazılır. Fürsətdən istifadə edib, Sizdən xahiş edirəm.

Sonuncu xahişim də odur ki, bu il mənim babam bəstəkar Süleyman Ələsgərovun 95 illiyi qeyd olundu. Doxsan illikdə də ailəmiz adından cəhd göstərib Sizə məktub yazdıq, amma bilirik ki, o məktublar çatmadı. Sağ olun ki, 80 illik yubileyində Siz onun adını əbədiləşdirdiniz, məktəbə ad verildi. İmkan varsa, Süleyman Ələsgərovun adına bir küçə də versəniz, biz çox şad olarıq. Bir daha fürsətdən istifadə edib cənab Prezident, Sizə, hörmətli Mehriban xanım, Sizə təşəkkürümüzü bildiririk.









❖ ❖ ❖

Əməkdar artist **Bəhram BAĞIRZADƏ** dedi:

- Cənab Prezident.

Hörmətli Mehriban xanım.

Mən üzr istəyirəm, bu gün səmimi çıxışıma görə. Heç vaxt Sizin qarşınızda çıxış etməmişəm.

Prezident İlham Əliyev: Biz çoxdan görüşməmişik KVN-çilərlə, ona görə siz nə qədər istəyirsiniz danışın.

Bəhram Bağırzadə: Ürəyimi boşaltmaq istəyirəm. Bu fürsət olmayacaq.

Prezident İlham Əliyev: Olacaq. Bundan sonra da olacaq.

Bəhram Bağırzadə: İnşallah. İlk növbədə, mən ağsaqqallarımızdan və ağbirçəklərimizdən üzr istəyirəm. Rəhmətlik atam mənə deyərdi ki, həmişə ağsaqqallar, ağbirçəklər olan yerdə danışma, sus, qulaq as, söz verilsə, onda danışarsan. Ona görə hamınızdan dəfələrlə üzr istəyirəm. Hətta zalın 60 faizi mənim müəllimlərimdir. Hansılar ki, mənə vaxtilə dərs deyiblər. Hamınıza minnətdaram. Sizə də, cənab Prezident, öz minnətdarlığımı bildirirəm. Siz də, Mehriban xanım da mənə efir vasitəsilə hər zaman dərs demisiniz. Bu gün mən problemlər haqqında danışmaq istəmirəm. O demək deyil ki, mənim problemlərim olmayıb. Müəyyən həyat məqamlarında problemlər olub, onları, şükür Allaha, Siz həll etmisiniz, istər 1995-ci ildə, istərsə də 2000-ci ildə. Özünüzün də xəbəriniz olmayıb, amma ətrafınızda olan insanlar mənim bütün problemlərimi həll ediblər. Ona görə mən Sizə dərin təşəkkürümü bildirirəm. Fürsət olmamışdı, bu gün xalqımın qarşısında bunu edirəm.

Bir tərəfdən də, bilirsiniz, mənim “Instagram” və “Facebook” səhifələrimdə yarım milyona qədər izləyicim var. Bu günləri mən onlara çıxış etməliyəm, sözümü deməliyəm. Onlar mənə sual verəcəklər ki, Allah-Təala sənə fürsət yaratdı, cənab Prezidentə bu xahişi, Elbay müəllim demişkən, xahiş yox, bir təklif kimi, Azərbaycan Respublikasının vətəndaşı kimi, Bakı şəhərinin sakini kimi çox istəyərdim ki, Bakı şəhərində Hacı Zeynalabdin Tağıyevin heykəli ucaldılsın. Bunu nəinki mən, bunu milyonlarla insan istəyir. Çünki onun çox böyük işləri olub Azərbaycanda, Bakıda. İnanın mənə ki, 10 milyonluq xalq həmişə dua edəcək Sizə, əgər bu yaxınlarda Hacı Zeynalabdin Tağıyevin heykəli ucalsa. Kukla Teatrının önündə bir bağ var, mən onu orada faytonda görürəm, Hacı Zeynalabdin Tağıyev faytonda oturub və Siz hər dəfə səhərlər işə gedəndə görəcəksiniz və sevinəcəksiniz ki, məhz Sizin vaxtınızda o heykəl ucaldı. Çox sağ olun, təşəkkür edirəm Sizə.

❖ ❖ ❖

Azərbaycanın və SSRİ-nin xalq rəssamı **Tahir SALAHOV** dedi:

- Möhtərəm Prezident.

Çox hörmətli Birinci vitse-prezident.

Əziz İlham Heydər oğlu.

Əziz Mehriban xanım.

Bu gün Azərbaycanın yüksək mədəniyyət ulduzları arasında olduğuma görə çox həyəcanlıyam. Sizin bu gün bizi toplamağınız mənim üçün tarixi gündür. Odur ki, çox xoşbəxtəm. Şadam ki, noyabrın 29-da Moskvada məni telefon zəngi yuxudan oyatdı və mən İlham Heydər oğlunun səsini eşitdim. İlham Heydər oğlu məni yubiley münasibətilə təbrik etdi. Mən dedim: “Bəs nə üçün belə erkən, məgər işdəsiniz?”. O isə mənə cavab verdi: “Tahir, mən birinci olmaq istədim”. Mən bu təbrikə görə Sizə çox minnətdaram. Bu, bizə - yaradıcı mədəniyyət xadimlərinə böyük stimul verir. Odur ki, Sizin mükafat barədə xəbəriniz, - Siz ilk dəfə 1-ci dərəcəli “Əmək” ordeni ilə təltif-etmə barədə sərəncam verdiniz, - böyük xoşbəxtlikdir və mənim yaradıcı əməyimə böyük hörmətdir. Mehriban xanım, təbrikinizə və aldığım hədiyyələrə görə çox sağ olun, çox minnətdaram.

Mən demək istəyirəm ki, Sizin Ekspo Mərkəzində sərgimə gəlməyiniz də məni xoşbəxt etdi. Mən bəlkə də ilk dəfə hansısa qanunları pozdum. Hər halda Ekspo Mərkəzində öz işlərimi göstərmək istəyirdim.

Tamaşaçılar ilə ünsiyyətin yeni formalarını tapmaq lazımdır, öz yaradıcılığını nümayiş etdirmək üçün hansısa yeni cəhətlər tapmaq lazımdır.

Siz ailəvi gəldiniz. Leyla xanım da valideynləri ilə birlikdə gəldi. O da yaradıcılıqla məşğul olur və Azərbaycan mədəniyyətinin, təsviri sənətinin inkişafında müəyyən yer tutur. Bu da böyük xoşbəxtlikdir. Düşünürəm ki, bu gün və qarşıdan gələn görüşdə biz mədəniyyətimizin, bütün növlərin və janrların məqsəd və vəzifələrini uzun illər irəlicədən müəyyən etməli, planlaşdırmalıyıq.

Çünki əsərin ərsəyə gəlməsi vaxt tələb edir. Siz də bilirsiniz ki, vaxt sürətlə ötüb keçir. Odur ki, əgər prezident seçkiləri gedirsə, mədəniyyətimizin inkişafını da dərhal Prezidentlə birlikdə uzun illər üçün planlaşdırmalıyıq. Gələcəkdə mədəniyyətimizin simasını müəyyən edəcək möhtəşəm əsərləri bu illər ərzində, 5-6 ildə yaratmaq üçün bizi hansı tarixlər, hansı hadisələr, hansı işlər narahat edir.

Mən demək istəyirəm ki, Heydər Əlirza oğlu mədəni həyatımızda fəal iştirak edirdi, özü də təkcə bizim deyil, bütün Sovet İttifaqının mədəni həyatında da. O, bununla çox məqsədyönlü şəkildə məşğul olurdu. O dövrdə o, Sovet İttifaqında 19 istiqaməti idarə edirdi və bütün Sovet İttifaqının mədəniyyətinin simasını müəyyənləşdirirdi. Yaradıcılıq ittifaqlarına və yaradıcılıq növlərinə dair bir çox qərarlar verilmişdi. Tretyakov Qalereyasının və keçmiş Sovet İttifaqının bir çox müəssisələrinin təmirinə külli miqdarda vəsait xərclənmişdi. O, burada, Azərbaycanda da bunu edirdi və bu işlər yüksək səviyyədə görülürdü.

Bizim İncəsənət Universitetimiz, Rəssamlıq Akademiyamız var. Bu illər ərzində həmin təhsil ocaqlarını çoxlu sayda gənc rəssam bitirib. İncəsənət Universiteti ildə 60 məzun, Rəssamlıq Akademiyası isə 150 məzun buraxır.

Onlar istedadlı, bacarıqlı gənclərdir, çox böyük təşəbbüsləri var. Mən nə arzu edə bilərəm? Qoy, onların əməyindən bütün Azərbaycan faydalansın. Baş memar vəzifələri ilə bərabər, baş rəssam vəzifələrini də təsis etmək lazımdır. Təkcə mərkəzdə - Bakıda və böyük şəhərlərdə deyil, regionlarda da. Bu, çox gözəl olardı. Heydər Əlirza oğlu həmişə arxitektura ilə təsviri sənətin sintezindən danışırdı. Məncə, təkcə eksteryerdə deyil, interyerdə də arxitektura ilə təsviri sənətin vəhdəti çox gözəl olardı və rəssamın əməyini qiymətləndirməyə imkan verərdi. Bu, çox gözəl olardı. Mən təklif və xahiş edirəm ki, hər il, yaxud iki ildən bir respublika sərgiləri keçirilsin. Təkcə Bakıda deyil, həm də Azərbaycanın bütün regionlarında təsviri sənət və memarlıq festivalları və baxışları, fərdi sərgilər, bir çox digər sərgilər təşkil olunsun. Mən beynəlxalq səviyyəli rəssamların və münsiflər heyətinin iştirakı ilə beynəlxalq biennale keçirilməsini də təklif edirəm. Bilirsiniz, bu, musiqi mədəniyyətində olduğu kimi - Qəbələdə keçirilən festivallar kimi, təsviri sənətimizin, mədəniyyətimizin nüfuzunu yüksəldərdi. Bu, çox gözəl olardı.

Mən dəvətə görə təşəkkür edirəm. Mən bu gün dostlar arasındayam. Burada oturan hər bir şəxs mənim üçün respublikanın mədəniyyəti ilə ürəkdən məşğul olan və tarixi töhfə vermək istəyən insanlardır. Sizin vaxtınız - bizik. Çox sağ olun.

❖ ❖ ❖

Xalq artisti **Xuraman QASIMOVA** dedi:

- Cənab Prezident, çox üzr istəyirəm, mən özüm çıxış etmək istədim. Çünki mən bilirəm, möhtərəm Prezidentimiz, sevimli Mehriban xanım, burada əyləşən insanların ürəyi o qədər doludur, hər kəs Sizin olduğunuz məclisdə iki kəlmə də olsa çıxış etmək istəyir. Çünki Siz bizim hər birimiz üçün o qədər gözəl işlər görmüsünüz, daşıdığımız fəxri adlar, aldığımız təzə mənzillər, bunları sadalamaq çox vaxt alar.

Amma mənim çoxdankı arzum var. Siz Fidan xanımı bu yaxınlarda ən yüksək mükafatla - “İstiqlal” ordeni ilə təltif etdiniz. Cənab Prezident, bu ordeni ona şəxsən Siz verdiniz. Biz çox fəxr edirik, çünki Sizin ailəniz, başda ulu öndərimiz olmaqla bizim ailəmizin həyatında böyük rol oynamısınız. Biz bunu heç zaman unutmuruq.

Bu gün susmaq olmazdı. Bircə arzumuz var. Vaxt elə keçir ki, mən bilmirəm Siz bizim ikimizi bir də səhnədə nə vaxtsa görəcəksiniz, ya yox. Çünki özünüz demisiniz ki, çox nadir hallarda teatra gedirsiniz. Görürsünüz, burada neçə nəfər istəyir ki, Siz teatra tez-tez gedəsiniz. Amma çox təəssüf ki, biz artıq teatrda çalışmırıq, yalnız konservatoriyada çalışırıq və bununla da fəxr edirik. Mən yalnız demək istəyirəm ki, möhtəşəm Heydər Əliyev Fondu var. Onu demək istəyirəm ki, bizim evimizdə də Sizin ailənizə həsr olunan kiçik fondumuz var. Mən Sizdən bütün xahişlərdən bir az qeyri-adi bir xahiş etmək istəyirəm. Mən istəyirəm ki, Siz nə vaxtsa ailənizlə birgə bizim qonağımız olasınız. Bağışlayın, çünki bunu möhtərəm Prezidentimiz Heydər Əliyev demişdi. O demişdi ki, Allah qoysa, təzə mənzilinizi alın, təmirinizi edin və mən sizə qonaq gələcəyəm. Odur ki, biz Sizi hər zaman gözləyirik, bizim Sizə həsr olunan, Sizə göstərəcəyimiz xüsusi arxivimiz var. Dinlədiyinizə görə çox sağ olun.

❖ ❖ ❖

Qaldırılan vacib məsələlərin həlli ilə bağlı tapşırıqlarını verən dövlət başçısı görüşün yekununda çıxış etdi.

Bax: səh. 5

# mədəniyyət sahəsi olacaq

## Prezident İlham Əliyevin yekun çıxışı

- Əziz dostlar, bilirəm ki, söz almaq istəyənlər kifayət qədər çoxdur. Mən təklif edərdim belə görüşlər müntəzəm olaraq keçirilsin ki, biz bütün məsələləri əhatə edə bilək.

Bugünkü görüş bir daha onu göstərir ki, bunun çox böyük faydası var. Çünki burada qaldırılan məsələlər, doğrudan da, vacibdir və hesab edirəm ki, bu məsələlərin həlli bir çox mətləblərə aydınlıq gətirə bilər. Mən artıq mədəniyyət nazirinə göstəriş vermişəm, eyni zamanda, Prezident Administrasiyasına da göstəriş verirəm ki, burada səslənən bütün təkliflər təhlil olunsun, bir proqram halına salınsın və biz bu məsələləri ardıcıl olaraq həll edə bilək.

Bəzi məsələlərlə bağlı mən elə bu gün öz fikrimi xronoloji ardıcıllıqla bildirmək istərdim. Yazıçılar üçün Yaradıcılıq Evinin bərpası prosesinə start verildi. Anar müəllim bu barədə öz fikrini söylədi və bildirdi ki, biz görüş əsnasında bu məsələni həll etdik. Orada məskunlaşan köçkünlərə yeni evlər, yeni mənzillər verilir. Həmin bina əsaslı şəkildə təmir olunacaq və yazıçıların ixtiyarına veriləcəkdir. Eyni zamanda, Şabran rayonunda da Müasir Yaradıcılıq Mərkəzi yaradılır.

Digər təkliflərə, abidələrlə bağlı olan təkliflərə də mütləq baxılacaq. Cəlil Məmmədquluzadənin abidəsi ilə bağlı təklifləri mən qəbul edirəm, dəstəkləyirəm. Yazıçılar üçün tikiləcək evlə bağlı müvafiq göstəriş verildi, torpaq sahəsi ayrıldı və bu ev tikiləcək. Bununla bərabər, hesab edirəm ki, dövlət tərəfindən görkəmli mədəniyyət xadimləri, gənc istedadlar üçün yeni yaşayış binası tikilməlidir. Bakı Şəhər İcra Hakimiyyətinə, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə, Dövlət Əmlak Komitəsinə müvafiq göstərişlər veriləcək. Onlar indi mənim göstərişlərimi eşidirlər. Qısa müddət ərzində torpaq sahəsi ayrılsın və biz görkəmli xadimlərə gözəl ev tikək, onları mənzillərlə təmin edək.

Mən Bəstəkarlar İttifaqı tərəfindən qaldırılmış təklifləri də qəbul edirəm. Yaşar İmanovun mənzil probleminin həlli ilə bağlı bu gün Bakı Şəhər İcra Hakimiyyətinə göstəriş veriləcək. Əgər mən bunu əvvəldən bilsəydim, çoxdan bu məsələ həll olunardı. Siz bilirsiniz ki, son illər ərzində yüzlərlə görkəmli mədəniyyət xadimi dövlət tərəfindən mənzillərlə təmin olunub. Deyə bilərəm ki, bu məsələ ilə bağlı mənə daxil olan müraciətlərin mütləq əksəriyyəti öz həllini tapıb və bundan sonra da biz bunu edəcəyik. Çünki mən hesab edirəm ki, dövlət bu məsuliyyəti öz üzərinə götürməlidir. Mən bilmirəm başqa ölkələrdə bu məsələ necə həll olunur. Amma bildiyimə görə, Azərbaycan bu sahədə də liderlik nümunəsi göstərir. Xalq qarşısında, dövlət qarşısında xidmətlər göstərmiş, xalqın sevgisini qazanmış mədəniyyət xadimləri dövlət tərəfindən mütləq dəstəklənməlidir. Bu görüşün məqsədlərindən biri də məhz ondan ibarətdir ki, mən sizdən təkliflər eşidim və bu təkliflər nəticəsində biz düzgün qərar qəbul edək.

Televiziya kanallarında bədii şuraların yaradılması çoxdan gündəmdə olan məsələdir, ancaq əfsuslar olsun ki, öz həllini tapmır. Mən hesab edirəm ki, Azərbaycan Dövlət Televiziyası - AzTV bu sahədə birinci olmalıdır. Digər telekanallara da tövsiyə olunur ki, bədii şuralar yaradılsın. Ancaq Firəngiz xanım tamamilə haqlıdır deyəndə ki, baxır o bədii şuralarda kim təmsil olunacaq. Ona görə yəqin ki, burada yaradıcı insanların təklifləri nəzərə alınmalıdır. Mədəniyyət Nazirliyi, Prezident Administrasiyası, ittifaqlar təkliflər versinlər. Çünki televiziyalarda gedən proqramlarla bağlı müxtəlif fikirlər, müxtəlif yanaşmalar var, bəzilərinin xoşuna gəlir, bəzilərinin xoşuna gəlmir. Bir çox hallarda özəl telekanallar reklam uğrunda mübarizə aparırlar. Ona görə daha baxımlı verilişləri təqdim etməyə çalışırlar və bəzi hallarda orada səviyyə də bir qədər aşağı düşür. Biz bu məsələyə kompleks şəkildə yanaşmalıyıq. Ancaq mütləq bu sahədə vahid bir yanaşma olmalıdır.

Festivallara gəldikdə deməliyəm ki, Şəki festivalının dövlət tərəfindən dəstəklənməsi ilə bağlı hesab edirəm heç bir problem ola bilməz. Yenə də bu, elə məsələdir ki, çox asanlıqla öz həllini tapa bilər. İndi mədəniyyət naziri bunu qeyd edir və biz bunu da həll edə bilərik.











Muğam mərkəzlərinin yaradılması, - Arif müəllim qeyd etdi, - geniş vüsət alıb. Sonuncu mərkəz Ağdam şəhərində yaradılıb. Biz onun açılışını birlikdə qeyd etmişik. Ondan əvvəl digər şəhərlərdə açılıbdır. Muğam müsabiqələrinin çox böyük əhəmiyyəti var. Muğam bizim milli sərvətimizdir. Gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunmasında bizim musiqi mədəniyyətimizin xüsusi çəkisi var. Təsadüfi deyil ki, canlı yayımda göstərilən muğam müsabiqələri çox böyük auditoriya yığır. Yəni, biz də baxırıq, bilirəm ki, vətəndaşların mütləq əksəriyyəti baxır. Muğam sənətinin həm ölkə daxilində, həm də xaricdə inkişafında Heydər Əliyev Fondunun, Mehriban xanımın rolunu xüsusilə qeyd etmək istəyirəm. Azərbaycan muğamının UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına salınması tarixi nailiyyətdir. Biz, eyni zamanda, beynəlxalq muğam müsabiqələri, festivalları keçirmişik. Bu sənət bir neçə ölkədə yaşayır, ancaq Azərbaycan muğamının UNESCO tərəfindən bəşəriyyətin qeyri-maddi mədəni irsi kimi qəbul edilməsi, əlbəttə ki, böyük nailiyyətdir.

Onu da bildirməliyəm ki, UNESCO-nun müxtəlif siyahılarına Azərbaycan xalqının 13 qeyri-maddi mədəni irs nümunəsi salınıbdır.

Zeynəb xanımın həmişə olduğu kimi, parlaq çıxışını mən alqışlayıram. Zeynəb xanım xalqımızın sevimli insanıdır, böyük şəxsiyyətdir, böyük sənətkardır, böyük ictimai xadimdir. Azərbaycanda elə adam tapılmaz ki, Zeynəb xanımı sevməsin. Bizim ailəmiz Zeynəb xanımla sıx bağlıdır. Xatırlayıram ki, atamın ən ağır günlərində, - o vaxt ki, o, vəzifədən çıxmışdı, pensiyada idi, səhhətində problemlər var idi, müəyyən mənada təcrid vəziyyətində idi, - Zeynəb xanım bizim evimizə baş çəkdi, onda mən də orada idim, ona mənəvi dayaq oldu. O vaxt atam üçün bu, xüsusi əhəmiyyət daşıyırdı. Əlbəttə, Zeynəb xanım da başa düşürdü ki, o vaxt Heydər Əliyev sovet məkanında arzuolunmaz şəxs kimi qəbul olunurdu. Əfsuslar olsun ki, ovaxtkı Azərbaycan rəhbərliyi də ədalətsizliyə yol vermişdi. Zeynəb xanımın bu cəsarətli və vicdanlı addımları həmişə bizim ürəyimizdədir, bizim xatirəmizdədir.

Burada teatrlarla bağlı bir neçə təklif səsləndi. Aparıcı teatrların adlarını mən çəkdim və giriş sözümdə dedim ki, ilk növbədə, teatrların təmiri ilə biz məşğul olduq - Akademik Dövlət Dram Teatrının, Rus Dram Teatrının, Musiqili Teatrın, Gənc Tamaşaçılar Teatrının, Kukla Teatrının. Ona görə, əlbəttə, mən hesab edirəm ki, burada fərq qoymaq olmaz. Teatr işçilərinin əməkhaqları ilə bağlı təkliflər hazırlansın və əməkhaqları əhəmiyyətli dərəcədə artırılsın. Biz bunu mütləq etməliyik. Əlbəttə ki, dəvətə görə, Hacı müəllim, təşəkkür edirəm. Mən məmnuniyyətlə gələrəm və sizinlə birlikdə gözəl tamaşalara baxmağa məmnun olaram.

Vergilərlə bağlı burada bir fikir səsləndi. Bu, gərək araşdırılsın və baxılsın ki, nə etmək olar. Bununla paralel olaraq, hesab edirəm ki, bizim aparıcı teatrlarımıza dövlət tərəfindən maddi dəstək də göstərilməlidir. Göstəriş veriləcək. Düşünürəm ki, özəl sektor da teatrlara sponsorluq etməlidir. Mən bu gün özəl sektora da çağırış edirəm ki, bu məsələ ilə bağlı onlar da öz dəstəyini göstərsinlər. Amma ilk olaraq dövlət bu məsələni öz üzərinə götürəcək. Görüşümüzün yekunu olaraq qəbul ediləcək qərarlarda bu, öz əksini tapmalıdır.

Musiqi alətləri ilə bağlı səslənən fikirləri də mən dəstəkləyirəm. Biz son illər ərzində musiqi alətlərinin alınması ilə bağlı bəzi işləri görmüşük, o cümlədən Fərhad müəllimin təklifləri əsasında. Ancaq, eyni zamanda, biz böyük dəyər kəsb edən, o cümlədən tanınmış ustaların əsəri olan musiqi alətlərinin alınmasına mütləq baxmalıyıq. Bu sahəyə qoyulan investisiyalar həm sərmayə kimi qalacaq, həm də bizim musiqi sənətimizin inkişafında mühüm rol oynayacaq.

Mən memarlıqla bağlı səslənən təklifləri də bəyənirəm. Hesab edirəm ki, Bakı Şəhər İcra Hakimiyyəti və Memarlar İttifaqı birlikdə Elbəy müəllimin səsləndirdiyi təklifi təhlil etsin, çünki siz tamamilə haqlısınız. Elə bil ki, Bakının mərkəzi bir neçə rayonda cəmləşir. Mən bilmirəm bu, nə üçün belə olub, tarixən belə olubdur. Burada çox böyük məntiq var. Əgər şəhərin mərkəzinin hüdudları dəqiq müəyyən olunarsa, əlbəttə ki, vahid idarəetmə sistemi də yaradıla bilər. Necə ki, misal üçün, mənim qərarımla Bulvarı, İçərişəhəri ayrı-ayrı inzibati vahid kimi yaratdıq. Məhz buna görə həm Bulvarda, həm də İçərişəhərdə indi səliqə-sahman, qayda-qanun və gözəl ab-hava var. Ona görə mən Bakının mərkəzi rayonunun yaradılması təklifini prinsipcə dəstəkləyirəm. Gərək biz bunu təhlil edək, incələyək ki, hansı addımlar atılmalıdır. Ona görə bu göstəriş də verilir.

Əlbəttə ki, biz Bakının tarixi binalarının bərpası ilə bağlı çox həssas iş aparmalıyıq. Mən həmişə demişəm ki, təmir zamanı binaların tarixi görkəmi saxlanmalıdır. Bu, əsas prinsip olmalıdır. Son illərdə şəhərimizin əsas tarixi binaları əsaslı şəkildə bərpa olunub və onların tarixi siması qorunub.

Görkəmli memarların şərəfinə abidələrin ucaldılması məsələsinə də Mədəniyyət Nazirliyi ilə birlikdə baxın və təklif verin. Aktyorların maaşları və teatrların kateqoriyalara bölünməsi məsələsini Afaq xanım səsləndirdi, mən də öz fikrimi bildirdim.

Kinofilmlərin çəkilişi ilə bağlı təkliflər səsləndi. Mən hesab edirəm ki, son bir-iki il ərzində buna kifayət qədər fikir verilməmişdir. Biz gərək bu boşluğu dolduraq. Yəni, dövlət xətti ilə, dövlət sifarişi ilə kinofilmlərin çəkilişi prosesi bərpa olunmalıdır. Düzdür, bu ilin dövlət büdcəsində bu, nəzərdə tutulmayıb. Mən bilirəm ki, Əbülfəs Qarayev çox çalışırdı ki, bu, nəzərə alınsın, ancaq hansısa səbəblər üzündən nəzərdə tutulmayıb. Ona görə bunun yolu odur ki, bu il üçün Prezidentin Ehtiyat Fondundan kifayət qədər vəsait ayrılsın, indi siz təklif verin. Gələn ilin və ondan sonrakı illərin dövlət büdcəsində dövlət xətti ilə kinofilmlərin çəkilişi mütləq bərpa edilməlidir.

Kinematoqrafçılar İttifaqının binası ilə bağlı. Əbülfəs Qarayev mənə dedi ki, sizin binanız var.

**Əbülfəs Qarayev:** Kirayədir.

**Prezident İlham Əliyev:** Onda təklif olunur ki, Bakı şəhərinin mərkəzində gözəl bina seçilsin. Bakı Şəhər İcra Hakimiyyətinə, Əmlak Məsələləri Komitəsinə, Mədəniyyət Nazirliyinə göstəriş verilir. Şəfiqə xanım, siz özünüz də bu məsələ ilə bağlı təkliflər verin. Əlbəttə ki, biz bunu etməliyik. Çünki Kinematoqrafçılar İttifaqının müstəqil binası olmalıdır və şərait yaxşı olmalıdır.

Rus Dram Teatrının akademik teatra çevrilməsi məsələsində mən heç bir problem görmürəm. Bu gün tapşırıq verirəm ki, bu məsələ həll olunsun və digər teatrların da səviyyəsini qaldırmaq üçün mütləq addımlar atılmalıdır. Prinsipcə, həm maaşlar, həm də status artacaq. Mən dedim ki, teatr işçilərinin maaşlarının qaldırılması məsələsi tezliklə öz həllini tapmalıdır. Siz qeyd etdiniz ki, 11 il keçməsinə baxmayaraq, sanki bu, lap yaxınlarda olub. Yəqin ki, təmirə ehtiyac var. Əgər zərurət yaranarsa, deyərsiniz. Prinsipcə, bizim teatrlarımızda təmir işləri artıq on il bundan əvvəl görülmüşdü. Əgər təmirə ehtiyac varsa, mənə məlumat verin, biz bu məsələni həll edə bilək.

Mən Tahir İmanovun sözlərini də şərh etmək istərdim. Mən bilmirəm, mən Əbülfəs Qarayevdən soruşdum, kim qadağa qoyub sizə? Sizə heç kim qadağa qoya bilməz. Əgər qadağanı kim qoyub, de, biz bu qadağanı aradan götürək.

**Tahir İmanov:** Özəl telekanallar qoyub qadağanı.

**Prezident İlham Əliyev:** Özəl telekanallar? Hesab edirəm ki, onlar səhv ediblər. Onlara da məsləhət görürəm, tövsiyə edirəm ki, əgər, doğrudan da, bu qadağa varsa, tamamilə götürülməlidir. Hesab edirəm ki, bütün televiziya kanalları sizin kimi istedadlı insanlar üçün açıq olmalıdır.

**Tahir İmanov:** Təşəkkür edirik.

**Prezident İlham Əliyev:** Mən şadam ki, bu məsələni sən qaldırmısan. Çünki görünür ki, burada hansısa anlaşılmazlıq olub. Yəni, dövlət xətti ilə sizə heç bir qadağa qoyula bilməz. Mən sizi artıq 20 ildən çoxdur ki, tanıyıram. Əvvəlki illərdə yaxşı təmaslarımız olubdur. Bu gün də sizin fəaliyyətinizi izləyirəm. Gördüyünüz işlərlə bağlı mənə müntəzəm olaraq məlumat verilir. Şadam ki, siz öz fəaliyyət dairənizi genişləndirirsiniz. Siz çox istedadlı insanlarsınız və Azərbaycan xalqı sizi çox sevir.

**Tahir İmanov:** Çox sağ olun.

**Prezident İlham Əliyev:** Qaldı Süleyman Ələsgərovun adının əbədiləşdirilməsi ilə bağlı məsələyə, bu gün Bakı Şəhər İcra Hakimiyyətinə göstəriş verirəm ki, Süleyman Ələsgərovun adına küçə verilsin. Siz də şəhər icra hakimiyyətinin başçısı ilə əlaqə saxlayın, küçənin seçilməsində sizin ailəniz mütləq iştirak etməlidir.

**Tahir İmanov:** Təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Mən Bəhramın təklifini də bəyənirəm. Hacı Zeynalabdin Tağıyev böyük insan, böyük xeyriyyəçi olub. Azərbaycan xalqı qarşısında çox böyük əməyi olan bir şəxsiyyətdir. Təqribən 20 il bundan əvvəl Pir Həsən ziyarətgahı mənim tapşırığımla abadlaşdırılmışdır. Hacı Zeynalabdin Tağıyevin xeyirxah fəaliyyəti bizim ailəmizdə də özünü göstərmişdir. O vaxt mənim babam Əziz Əliyev ona məktub yazaraq xahiş etmişdi ki, ona pul versin, getsin həkim peşəsinə yiyələnsin. Hacı Zeynalabdin, əlbəttə ki, onu tanımırdı, tanıya da bilməzdi. Tək o məktuba görə ona pul göndərdi. O pulla da Əziz Əliyev getdi Sankt-Peterburqda Hərbi-Tibbi Akademiyaya daxil oldu, həkim oldu, ondan sonra da onun həyatında yeni dövr başladı. Hacı Zeynalabdin Tağıyevin minlərlə, bəlkə də on minlərlə insana köməyi dəyib və mənim Prezident kimi addımlarımdan biri də o idi ki, onun evi əsaslı şəkildə təmir olunsun. Orada Tarix Muzeyi yerləşir. Amma mən o binaya məhz onun evi kimi baxırdım və biz bunu etdik. Onun şərəfinə abidənin ucaldılması düzgün qərardır. Bəhram, əgər sən də burada fəal iştirak etsən, çox yaxşı olar. Təkliflər hazırlayın. Ümumiyyətlə, mən sənin fəaliyyətini izləyirəm. Sən şəhərimizin inkişafı, tarixi mirasımızın qorunması ilə bağlı çox fədakar, çox böyük iş aparırsan. Mən izləyirəm, təqdir edirəm və sənə bu işdə yeni uğurlar arzulayıram.

Mən Tahir müəllimin həm baş rəssam vəzifəsinin təsis edilməsi, həm də Bakıda bienallenin keçirilməsi təkliflərini də dəstəkləyirəm. Mənə məlumat verildi ki, bu il bienalle keçiriləcək. Bu da çox gözəl bir təklifdir.

Xuraman xanımın da dəvətini məmnuniyyətlə qəbul edirəm. Demək olar ki, burada qaldırılan əsas məsələlərə mən öz münasibətimi bildirdim.

Əziz dostlar, bir daha demək istəyirəm ki, belə səmimi və açıq söhbət bir çox məsələlərin həlli üçün gözəl imkanlar yaradır. Mən təklif edirəm, belə görüşlər bu və ya digər formatda müntəzəm olaraq keçirilsin ki, bizim bu sahədə görəcəyimiz işlər daha düzgün aparılsın, daha sistemli xarakter alsın, bu gün bizim yaradıcı ictimaiyyətimizi narahat edən problemlərin hamısı həll olunsun. Sizə təşəkkür edirəm, yeni uğurlar arzulayıram və Sizi qarşıdan gələn Novruz bayramı münasibətilə təbrik edirəm. Sağ olun.

❖ ❖ ❖

Xalq yazıçısı Anar: Cənab Prezident, bağışlayın. Mən birinci danışdığım üçün bu cəsarəti üzərimə götürüb son sözü də demək istəyirəm, hamının adından Sizə təşəkkür edirəm. Bizi çox diqqətlə dinlədiniz, təklifləri qəbul edirsiniz və operativ cavab verirsiniz. Çox sağ olun. Sizə də, Mehriban xanıma da təşəkkür edirəm.

❖ ❖ ❖

Sonda xatirə şəkli çəkdirildi.

# Azərbaycan kinematoqrafiyasının inkişafı ilə bağlı bəzi tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycanda kino sənəti əlamətdar hadisələrlə zəngin böyük inkişaf yolu keçmiş və ciddi sənət nailiyyətləri qazanmışdır. Ötən əsrin xüsusən 50-80-ci illərində yaradılmış və milli özünəməxsusluğu ilə seçilərək mədəniyyətimizin qızıl fonduna daxil olmuş ekran əsərləri kino salnaməmizin parlaq səhifələridir.

Müstəqillik illərində milli kino ənənələrinin qorunması və Azərbaycan kinematoqrafiyasının yeni şəraitdə fəaliyyət göstərə bilməsi istiqamətində mühüm addımlar atılmışdır. "Azərbaycan kinosunun 2008-2018-ci illər üzrə inkişafına dair Dövlət Proqramı" kino tariximiz üçün əhəmiyyəti baxımından ilk genişmiqyaslı mühüm sənəddir. Proqram çərçivəsində ötən dövr ərzində kino müəssisələrinin maddi-texniki bazası xeyli möhkəmləndirilmiş, o cümlədən Bakı şəhərində Dövlət Film Fondu üçün ən müasir texnoloji avadanlıqlara malik yeni bina inşa edilmiş və Nizami Kino Mərkəzi dünya standartları səviyyəsində yenidən qurulmuşdur. Dövlət sifarişi ilə film istehsalı təkmilləşdirilmiş, milli kinonun kadr potensialının gücləndirilməsinə yönəlmiş müxtəlif layihələr gerçəkləşdirilmişdir. Dövlət sifarişi və maliyyə yardımı ilə dövlət və özəl studiyalarda 300-dən artıq film çəkilmiş, istehsal edilən çox sayda ekran əsərləri beynəlxalq film festivallarında müxtəlif mükafatlara layiq görülmüşdür. Eyni zamanda, son illərdə özəl kino sektoru tərəfindən istehsal olunan filmlərin sayının və film çəkilişinə özəl vəsait qoyuluşunun həcminin artması, eləcə də həmin filmlərin tamaşaçı auditoriyasının genişlənməsi kinematoqrafiyamızın keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyduğunu göstərir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə mədəniyyətə dövlət qayğısının daha da artırılması, kino sənəti ənənələrinin yaşadılması və film istehsalı sahəsinin modernləşdirilməsi zərurətini nəzərə alaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının və digər aidiyyəti qurumların təkliflərini nəzərə almaqla, milli kinematoqrafiyanın dövrün tələblərinə uyğun inkişaf etdirilməsinə dair "Azərbaycan kinematoqrafiyasının inkişaf konsepsiyası" layihəsini hazırlayıb üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

2. Dövlət sifarişi ilə film istehsalını və gənc kinematoqrafçıların yaradıcılığının dəstəklənməsi ilə bağlı layihələrin həyata keçirilməsini təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə 5,0 (beş) milyon manat ayrılsın.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 2-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 mart 2019-cu il*

# Prezident İlham ƏLİYEV: "Öz mədəniyyətini qoruyan dövlətlər həm hörmətə layiqdir, həm də daha böyük uğurlar qazanır"




Öz mədəniyyətini qoruyan dövlətlər həm hörmətə layiqdir, həm də daha böyük uğurlar qazanır. Bax, biz o dövlətlərdənik. Bizim mədəniyyətimiz qürur mənbəyimizdir. Biz mədəniyyətimizi qoruyuruq və çox şadam ki, çox gözəl gənc nəsil yetişir. Bizim gənc nəsil artıq həm müasir musiqini öyrənir, həm də öz milli köklərinə çox sadiqdir. Azərbaycanda keçirilən, həm yerli, həm də beynəlxalq iştirakçıların qatıldığı muğam festivalları, muğam müsabiqələri çox böyük maraq doğurur və bütün bölgələrdən olan gənclər, uşaqlar, yeniyetmələr çalışırlar ki, o müsabiqələrdə iştirak etsinlər, özlərini göstərsinlər. Bu, çox əlamətdar hadisədir.

AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin yenicə çapdan çıxmış 78-ci kitabında yer alan bu fikirlər dövlət başçısının 2017-ci il fevralın 2-də görkəmli dirijor maestro Niyazinin abidəsinin açılış mərasimindəki çıxışından götürülüb.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin növbəti kitabındakı materiallar 2016-cı ilin dekabrından 2017-ci ilin mart ayınadək olan dövrü əhatə edir.

Kitaba Prezident İlham Əliyevin Dünya İqtisadi Forumunda iştirak etmək üçün İsveçrəyə işgüzar səfəri və Davosda keçirdiyi görüşlər barədə informasiyalar, forumun "İpək yolunun səmərəsi" mövzusunda interaktiv iclasında çıxışının mətni, Almaniyaya işgüzar səfəri zamanı Münxen Təhlükəsizlik Konfransı çərçivəsində "Qiymətlərin sabitləşməsinə doğru: OPEC-in qayıdışı və neft geosiyasəti" mövzusunda "dəyirmi masa"da, "Avrasiyada əməkdaşlıq və problemlər" adlı panel müzakirədə çıxışlarının mətnləri daxil edilib. Panel müzakirədə dövlət başçısı dünyanın diqqətini bir daha Qarabağ məsələsinə yönəldərək problemin ədalətli həllinə çağırış edib və bu məsələlərlə bağlı sualları cavablandırıb. Nəşrdə, həmçinin Azərbaycan Prezidentinin Belçika Krallığına, Qətər Dövlətinə və Pakistan İslam Respublikasına səfərlərinə dair materiallar, İslamabadda İqtisadi Əməkdaşlıq Təşkilatının XIII Sammitində çıxışının mətni yer alıb.

Çoxcildliyin 78-ci kitabında Prezident İlham Əliyevin ABŞ, Peru, Finlandiya, Estoniya, Fransa, İran, Pakistan və digər dövlətlərin, beynəlxalq təşkilatların ölkəmizə səfər etmiş yüksəkvəzifəli şəxslərini qəbul etməsinə dair materiallar da verilib.

Oxucular bu kitabda ölkə rəhbərinin Əl-Cəzirə televiziyasına geniş müsahibəsinin mətni ilə tanış ola bilərlər.

Nəşrdə dövlət başçısının Naxçıvan Muxtar Respublikasına səfəri, Ordubad, Culfa və Şahbuz rayonlarında, habelə ölkəmizin paytaxtında sosial infrastruktur obyektlərinin açılışında iştirakına, ictimaiyyət nümayəndələri ilə görüşlərinə, eləcə də Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun ailəsi ilə görüşünə dair informasiyalar toplanıb.

Prezident İlham Əliyevin Nazirlər Kabinetinin 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında, "Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının üçüncü ilinin yekunlarına həsr olunmuş konfransda, "Cənub qaz dəhlizi" Məşvərət Şurası çərçivəsində keçirilən nazirlərin üçüncü toplantısında söylədiyi nitqlərin mətnləri də bu nəşrə daxil edilib.

Kitabda "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri verilib.

"Azərnəşr" tərəfindən buraxılan 78-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Dövlət başçısı milli-mədəni inkişafın prioritetlərini müəyyənləşdirdi

*Əvvəli 1-ci səh.*

Bunlardan savayı, dünyada tolerantlığın və multikulturalizmin mərkəzi kimi qəbul edilən Azərbaycanın ərazilərindəki mövcud tarixi, dini abidələr əsaslı şəkildə təmir edilib. Bakıda və bölgələrdə yüzlərlə məscid bərpa olunub. Milli irsimiz kimi böyük mənəvi əhəmiyyət daşıyan Heydər məscidi tikilib. Təzəpir, Bibiheybət, Gəncədəki İmamzadə dini-tarixi kompleks, Əjdərbəy, Azərbaycanda ən qədim məbəd sayılan, 743-cü ildə tikilən Şamaxı Cümə məscidləri əsaslı şəkildə bərpa edilib.

Dövlət başçısı İlham Əliyevin elə ilk qərarlarından biri Azərbaycan klassiklərinin əsərlərini latın qrafikası ilə çap etdirmək olub. O zaman təhsil latın qrafikası ilə aparılırdı. Lakin bütün klassiklərimizin əsərləri vaxtilə kiril qrafikası ilə çap olunduğundan şagirdlər, tələbələr onları oxuya bilmirdilər: "O vaxt bizim o qədər də maddi imkanlarımız yox idi. 2004-cü ildə biz bu qərara gəldik. Baxmayaraq ki, maddi vəziyyətimiz çox məhdud idi, biz qısa müddət ərzində bunu da etdik. Nəinki Azərbaycan klassiklərinin, dünya ədəbiyyatının klassiklərinin kitabları latın qrafikası ilə çap olundu".

Azərbaycan Prezidenti görüşdə mədəniyyətin ayrı-ayrı sahələrindəki mövcud duruma konkret münasibət bildirərkən vurğuladı ki, kinoteatrların yaradılması, özəllərinin fəaliyyətə başlaması sevindirici haldır.

Əlbəttə, Nizami Kino Mərkəzinin əsaslı şəkildə təmir edilməsi, Qara Qarayev, Fikrət Əmirov, Bülbül, Niyazi və digər görkəmli mədəniyyət xadimlərimizin xatirəsinin əbədiləşdirilməsi üçün abidələrinin qoyulması dövlət başçısının xalqımızın milli sərvətinə diqqət və qayğısı kimi dəyərləndirilir. Yaddaqalan mədəniyyət hadisələrindən biri də iki konservatoriyadan birinin əsaslı şəkildə təmiri, digərinin isə yenidən tikilməsidir.

Bu sahədə görülən işlər, təbii ki, yalnız dövlət başçısının yeri gəlmişkən, xatırladıqları deyil. Azərbaycan Prezidenti bundan sonra görüləcək işlər barədə fikrini bildirərkən üzünü görüş iştirakçılarına tutaraq dedi: "Bunu siz deməlisiniz. Çünki mən istəyirəm ki, bundan sonra mədəniyyət sahəsində işlər sistemli qaydada görülsün. Biz bu məsələlərlə bağlı siyasətimizi ardıcıl olaraq aparmalıyıq. Əlbəttə ki, sadəcə olaraq, mədəniyyət obyektlərinin tikintisi, təmiri bizim məqsədimizi tam ifadə edə bilməz. Biz bu məsələlərə daha da geniş kontekstdə baxmalıyıq. Ümumiyyətlə, mədəniyyətimizin gələcək inkişafı, cəmiyyətdə mövcud olan ovqat, gənc nəslin tərbiyə olunması, bütün bu məsələlər bir-biri ilə bağlıdır. Ölkə iqtisadi cəhətdən inkişaf edə bilər, siyasi cəhətdən də beynəlxalq mövqeləri güclü ola bilər, ancaq əgər biz xalqımızın əsas, təməl prinsiplərini diqqətdən kənarda qoysaq, onda ölkəmizin uğurlu inkişafı dayanıqlı ola bilməz".

Xatırlatmaq yerinə düşər ki, Azərbaycan Prezidenti bir ay öncə gənclərlə görüşündə gənc nəslin milli ruhda tərbiyə olunması məsələsinə heç də təsadüfən toxunmamışdı. Dövlət başçısının fikrincə, ancaq bu halda Azərbaycan əbədi müstəqillik yolu ilə gedə bilər. Buna nail olmaq üçün isə əsas amil mədəniyyətimiz, incəsənətimiz, ədəbiyyatımız, ana dilimiz, milli təfəkkürümüzdür. Ona görə bu məsələlərlə bağlı Prezident ölkənin tanınmış mədəniyyət xadimləri və sənət adamları ilə fikir mübadiləsinin vacibliyini qeyd etdi. Dövlət başçısı milli-mədəni inkişafın prioritetlərini müəyyənləşdirdi.

Xalq yazıçısı Anar, xalq artistlərindən Firəngiz Əlizadə, Arif Babayev, Zeynəb Xanlarova, Fərhad Bədəlbəyli, xalq rəssamı Tahir Salahov və digərlərinin görüşdəki çıxışlarında qaldırılan vacib məsələlərin həlli ilə bağlı dövlət başçısının tapşırıqlar verməsi məhz mədəni sahənin daha da inkişafına nail olmaq deməkdir.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# Ombudsman Milli Məclisdə hesabat verəcək

İnsan Hüquqları üzrə müvəkkil Elmira Süleymanova martın 5-də Milli Məclisdə ötənilki fəaliyyətinə dair hesabat verəcək. Bu barədə Milli Məclisin İnsan hüquqları komitəsinin dünən keçirilən iclasında məlumat verilib. Elə komitənin iclasının müzakirəsinə çıxarılan sənəd də bununla bağlı olub.

Milli Məclis Sədrinin müavini, İnsan hüquqları komitəsinin sədri Bahar Muradova sənədi təqdim edərək bildirib ki, "Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanununun 14-cü maddəsinə əsasən, illik məruzə Prezident İlham Əliyevə təqdim edilib və Ombudsman həmin məruzə ilə Milli Məclisdə çıxış edəcək. Məruzə eyni zamanda qanunda nəzərdə tutulmuş digər subyektlərə - Nazirlər Kabinetinə, Konstitusiya Məhkəməsinə, Ali Məhkəməyə və Baş Prokurorluğa göndərilib.

Ombudsman Aparatının rəhbəri Aydın Səfixanlı məruzə ilə bağlı ətraflı məlumat verərək bilirib ki, müvəkkilin fəaliyyəti dövründə onun ünvanına ümumilikdə 187.350, 2018-ci ildə isə 20.400 müraciət daxil olub. Həmin müraciətlərin 66,8 faizi şikayətlərdən, 33,2 faizi isə ərizələrdən ibarət olub. Şikayətlərin 45 faizi baxılmaq üçün icraata qəbul edilib, bunların da 63,5 faizi təmin olunub.

İl ərzində Ombudsman və onun Milli Preventiv Qrupu tərəfindən cəzaçəkmə müəssisələrinə əvvəlcədən xəbərdarlıq edilmədən ümumilikdə 343, o cümlədən plan üzrə 220, plandankənar 123 başçəkmə həyata keçirilib. Saxlanılan şəxslərlə rəftar, saxlanma şəraiti, qidanın rasionu və keyfiyyəti, tibbi xidmətin və asudə vaxtın təşkili vəziyyəti öyrənilib.

Müvəkkilin fəaliyyəti dövründə onun vəsatəti ilə ümumilikdə 638, 2018-ci ildə isə 72 məhkum əfv edilib. İnformasiya əldə etmək azadlığı ilə bağlı müvəkkilin ünvanına daxil olan 39 müraciət təhlil edilərək araşdırılıb və müvafiq qurumlara sorğular göndərilib.

Müzakirələr zamanı deputatlardan Tahir Kərimli, Fazil Mustafa, Yevda Abramov, Əflatun Amaşov, Elman Nəsirov, Flora Qasımova, Sona Vəliyeva çıxış edərək fikir və təkliflərini bildiriblər. Qeyd edilib ki, çox müfəssəl və əhatəli hazırlanan məruzə əksər sosial məsələləri özündə ehtiva edir. 60 səhifəlik məruzədə mühüm sosial məsələlərin həlli istiqamətində görülən işlər də öz əksini tapıb.

Komitə sədri Bahar Muradova isə vurğulayıb ki, vətəndaşla dövlət arasında vasitəçi kimi çıxış edən qurumun hazırladığı məruzə Ombudsman təsisatının üzərinə düşən öhdəliyi yerinə yetirdiyini bir daha təsdiqləyir.

Sonda məruzə Milli Məclisin plenar iclasına tövsiyə olunub.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Prezident İlham Əliyevin tapşırığına əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

Kənd təsərrüfatı naziri İnam Kərimov martın 1-də Sabirabad Dövlət Aqrar İnkişaf Mərkəzinin inzibati binasında Neftçala, Sabirabad, Saatlı, Hacıqabul, Salyan rayonları, Şirvan şəhəri və digər rayonlardan olan vətəndaşları qəbul edib, onların müraciətlərini dinləyib, ərizə və şikayətlərinə baxıb.

Nazirliyin idarə və tabeli qurumlarının rəhbərlərinin iştirakı ilə keçirilən qəbulda 69 nəfərin müraciətinə baxılıb. Qəbula gələn vətəndaşların müraciəti əsasən fermerlərə güzəştli şərtlərlə kreditlərin verilməsi, kənd təsərrüfatı texnikası və təsərrüfat suyu ilə təminat, ixtisasa uyğun işlə təmin edilmə və digər məsələlərlə bağlı olub. Nazir İnam Kərimov hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib, qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verib.

Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, qaldırılan bəzi məsələlər isə araşdırılması üçün nəzarətə götürülüb. Nazirliyin fəaliyyət dairəsinə aid olmayan müraciətlər müvafiq qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb.

***

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova martın 1-də Göyçayda vətəndaşların qəbulunu keçirib. Qəbulda Göyçay, Ağdaş, Kürdəmir, Ucar və Zərdab rayonlarından olan sakinlər iştirak ediblər.

Komitənin müvafiq struktur bölmələrinin məsul şəxslərinin iştirakı ilə Heydər Əliyev Mərkəzində keçirilən qəbulda müraciətlər əsasən sağlamlıq imkanları məhdud uşaqların müalicəsi, erkən nikah və boşanmalardan yaranan problemlər, imkansız ailələrin təminatı, övladlığa verilmə, uşaq hüquqlarının müdafiəsi, məişət zorakılığına məruz qalma və digər məsələlərlə əlaqədar olub.

Komitə sədri Hicran Hüseynova hər bir müraciəti diqqətlə dinləyib, bir sıra müraciətlərin həlli ilə bağlı konkret tapşırıqlar verib. Bəzi müraciətlər araşdırılmaq üçün qeydiyyata alınıb.

Sonda komitə sədri Hicran Hüseynova rayonun bir qrup fəal qadını ilə görüşüb.

***AZƏRTAC***

# Atəşkəs rejimi 26 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində cəbhənin müxtəlif istiqamətlərində atəşkəs rejimini 26 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Berd rayonunun Çinari kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Azərbaycan Respublikasının Tovuz rayonunun Ağbulaq, Gədəbəy rayonunun Zamanlı kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Tağıbəyli, Baş Qərvənd, Qaraqaşlı, Yusifcanlı, Füzuli rayonunun Qorqan, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

# İƏT Xarici İşlər Nazirləri Şurasının sessiyasında Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzkarlığı məsələsi qaldırılıb

Yarandığı son beş onillik ərzində İslam Əməkdaşlıq Təşkilatı (İƏT) İslam dünyasının tək çoxtərəfli qurumu kimi dünyada sülh və təhlükəsizliyin qorunması üzrə beynəlxalq ictimaiyyətin strateji tərəfdaşına çevrilib. Bu gün təşkilatımız hələ də üzv ölkələrin birliyi, bütövlüyü və suverenliyini təhdid edən görünməmiş daxili və xarici təhdidlər ilə üzləşir.

Coğrafiyamızın bir çox yerində, xüsusən də İraq, Suriya, Yəmən, Liviya, Əfqanıstanda davam edən silahlı münaqişələr və terror hücumları, eləcə də dünyanın müxtəlif yerlərində dözümsüzlük, irqçilik və ksenofobiya kimi yüksələn trendlər beynəlxalq sülh və təhlükəsizliyin təmin olunmasına yönəlmiş hazırkı beynəlxalq mexanizmlərin yetərsizliyini nümayiş etdirir. Buna görə də coğrafiyamızdakı münaqişələrin sülh və qardaşlıq yolu ilə həllinə, terrorizmə qarşı mübarizədə qəti mövqeyə, bütün üzv dövlətlərin ərazi bütövlüyü və suverenliyinin qorunmasına, islamofobiyaya qarşı mübarizəyə yönələn birgə səylərimiz çox vacibdir. Bu baxımdan Azərbaycan İƏT-də təşkilatın ümumi səmərəliliyinin artırılması məqsədini güdən, xüsusilə münaqişələrin həllində vasitəçilik imkanlarının gücləndirilməsi məqsədini güdən islahatlar prosesinə böyük əhəmiyyət verir.

Bu fikirləri Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov İslam Əməkdaşlıq Təşkilatının Xarici İşlər Nazirləri Şurasının Əbu-Dabidə keçirilən 46-cı sessiyasında çıxışı zamanı deyib.

Nazir bildirib ki, Azərbaycan Respublikası təşkilatın kollektiv yanaşması və birgə strategiyasına sadiq qalaraq, üzvü olduğu müxtəlif İƏT Təmas Qrupları, o cümlədən Fələstin, Cəmmu və Kəşmir, Somali və Avropada müsəlman azlıqları vasitəsilə münaqişələrin sülh yolu ilə həlli istiqamətində üzv dövlətlərlə işləməyə davam edəcək. Bu baxımdan biz bütün üzv dövlətləri kollektiv yanaşma və İslam həmrəyliyi prinsiplərinin həyata keçirilməsində səylərini əsirgəməməyə çağırırıq.

İƏT-in mövcudluğunun ana xəttini təşkil edən Fələstin məsələsi belə bir kollektiv yanaşma tələb edən məsələdir. Azərbaycan bu məsələnin ədalətli və dayanıqlı həlli üçün tam həmrəyliyini və davamlı dəstəyini bir daha təsdiq edir və Fələstin münaqişəsinin Fələstin Dövlətinin paytaxtı Şərqi Qüds olmaqla "iki dövlət" prinsipinə əsasən həllini dəstəkləyir. Bu məqsədə sadiq qalan Azərbaycan Fələstin hökumətini onun beynəlxalq aləmdə siyasi və hüquqi statusunu, eləcə də BMT-nin tamhüquqlu üzvlüyünü əldə etmək hüququnu möhkəmləndirəcək "G77 və Çin qrupu"nda rəsmi sədrliyə başlaması münasibətilə təbrik edir. Ötən il Azərbaycan Qoşulmama Hərəkatının 18-ci Aralıq Nazirlər Toplantısı çərçivəsində Fələstinə dair Qoşulmama Hərəkatının Nazirlər Komitəsinə evsahibliyi edib. Bakı Yekun Bəyannaməsi Fələstində zorakılığın tamamilə dayandırılması üçün ciddi kollektiv səylərə çağırışı bir daha bəyan etdi. 2018-ci ilin noyabrında Azərbaycan Fələstin Dövlətinin Asiyada akkreditə olunmuş səfirlərinin illik toplantısına evsahibliyi etdi və bununla Fələstin hökumətinin imkanlarının qurulmasına töhfə verdi. Humanitar istiqamətdə Fələstin xalqına yardıma gəldikdə isə Azərbaycan ötən ilin oktyabr ayında BMT-nın Fələstinli Qaçqınlara Yardım və İşlərin Təşkili üzrə Yaxın Şərq Agentliyinə 200 min ABŞ dolları ayırıb. Bu təşkilatı əmin etmək istərdim ki, 2019-2022-ci illərdə Qoşulmama Hərəkatına sədrliyi dövründə Azərbaycan Fələstində sülhə, eləcə də bütövlükdə İslam ölkələrində sülh, təhlükəsizlik və inkişafa daha da töhfə verilməsi üçün səylərini əsirgəməyəcək.

Beynəlxalq sülh və təhlükəsizliyi təmin etmək üçün mümkün olan hər şeyi edərkən Azərbaycan hələ də Ermənistanın davam edən hərbi təcavüzü ilə üzləşir. Bu təcavüz nəticəsində ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazisinin 20 faizi, o cümlədən Dağlıq Qarabağ və ətrafındakı yeddi rayonu işğal olunub, təxminən 1 milyon azərbaycanlı etnik təmizləməyə məruz qalaraq qaçqın və məcburi köçkünə çevrilib, Ermənistanın işğalı altında olan ərazilərimizdə çoxsaylı tarixi, mədəni və dini abidələr məhv edilib.

Təəssüf ki, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının vasitəçilik səyləri işğal olunmuş torpaqların azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpası nəticələrinə gətirib çıxarmayıb. Danışıqların bu qəti nəticəsi BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrində, habelə İƏT-in qətnamələrində, ATƏT-in, Avropa İttifaqının və münaqişə mövzusu ilə məşğul olan, demək olar ki, hər bir beynəlxalq təşkilatın müvafiq sənədlərində təsbit olunub.

Bütün bu çağırışlara və münaqişənin sülh yolu ilə həlli üzrə bütün səylərimizə baxmayaraq, Ermənistan işğalın nəticələrini möhkəmləndirmək məqsədilə işğal olunmuş ərazilərdə təbii sərvətlərin talan edilməsi, tarixi və İslam irsinin məhv edilməsi siyasətini davam etdirir. Demək olar ki, hər gün atəşkəsi pozur, azərbaycanlı hərbçiləri və mülki şəxsləri öldürür və yaralayır. İƏT-ə üzv ölkələrin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı İƏT xarici işlər nazirlərinin qətnamələrində əks olunmuş ədalətli mövqeyini yüksək qiymətləndirirəm. Eyni zamanda, bu ədalətli mövqeyin və bu çox hörmətli qurum çərçivəsində nümayiş etdirilmiş həmrəyliyin təcavüzkar dövlətə münasibətdə ikitərəfli əsasda, eləcə də beynəlxalq forumlarda ifadə olmasına çağırıram. İşğal siyasətini təşviq etmək və bu təşkilatın həmrəyliyini pozmaq üçün Ermənistanın beynəlxalq mədəni, dil birliyinə əsaslanan və ya humanitar forumlardan sui-istifadə etmək cəhdləri bizim birgə mövqeyimizlə cavablandırılmalıdır. Ermənistanın bəzi üzv ölkələri iqtisadi və mədəni əməkdaşlığa cəlb etmək cəhdləri, Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsinin turistik bölgə kimi və ya işğal olunmuş ərazilərdəki mirası məhv etdiyi bir halda öz ərazisində guya ki, qorunan "İslam mirası"nın təşviqi, işğalın legitimləşdirilməsi və işğalçının gücləndirilməsi siyasətindən başqa bir şey deyil. Üzv ölkələri bundan çəkinməyə çağırırıq.

Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü ilə bağlı İƏT Təmas Qrupunun 2016-cı ildə Nyu Yorkda keçirilmiş illik görüşlərini yüksək qiymətləndirərək, bu xüsusda İƏT-in baş katibinə və üzvlərinə minnətdarlığımızı ifadə edərək, bütün qrup üzvlərini İƏT-in Ermənistan-Azərbaycan münaqişəsinə dair qərar və qətnamələrinin yerinə yetirilməsini praktiki fəaliyyətləri ilə dəstəkləməyə və Ermənistanı İƏT-in müvafiq sənədlərinə riayət etməsinə məcbur etmək üçün müvafiq tədbirlərin görülməsini təmin etməyə çağırırıq.

Azərbaycan beynəlxalq aləmdə həmrəyliyimizi möhkəmləndirmək və kollektiv səsimizi ucaltmaq məqsədilə İƏT institutlarının fəaliyyətini yüksək qiymətləndirir. Bu xüsusda, mən beynəlxalq hüququn ciddi pozulması halı olan və Azərbaycan Respublikasının ətraf əraziləri üçün ekoloji fəlakət yaratmağı nəzərdə tutan Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərindəki Sərsəng su anbarından yeni bir kanalın tikintisinin pislənməsi barədə ISESCO tərəfindən qəbul edilmiş qətnaməni xüsusi vurğulamaq istərdim.

Biz 1992-ci ilin fevralında Azərbaycanın Xocalı şəhərində erməni silahlı qüvvələri tərəfindən mülki azərbaycanlılara qarşı soyqırımı haqqında dünyada məlumatlılığın artırılmasına hədəflənmiş "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində həyata keçirilən İslam Konfransı Gənclər Forumu tərəfindən "Xocalı qırğını qurbanları ilə həmrəylik" qətnaməsinin icrasına üzvlər tərəfindən nümayiş etdirilən həmrəyliyi yüksək qiymətləndiririk.

Mən, həmçinin çətinliklər və təbii fəlakətlər zamanı, məsələn, Azərbaycanın da töhfə verdiyi 2018-ci ildə İndoneziya zəlzələsindən sonra İƏT-in humanitar yardımı kimi, həmrəyliyimizin əhəmiyyətini vurğulamaq istəyirəm.

Bizim həmrəyliyimiz, həmçinin çox vacib olan qlobal mədəniyyətlərarası dialoqun gücləndirilməsində və xarici düşmənçilik, irqçilik, nifrət çıxışları və islamofobiya təhlükələrinə qarşı mübarizədə də nümayiş etdirilməlidir. Bu xüsusda, mən 2008-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə əsası qoyulmuş "Bakı Prosesi"nin əsas hissəsi olan, 2019-cu ilin may ayında Bakıda keçiriləcək V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda üzv dövlətləri fəal şəkildə iştirak etməyə çağırıram. İƏT, UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Dünya Turizm Təşkilatı, Avropa Şurası və ISESCO kimi nüfuzlu beynəlxalq tərəfdaşlar tərəfindən dəstəklənən proses dayanıqlı sülhün və inklüziv inkişafın təmin edilməsi üçün mədəniyyətlərarası dialoqun və qarşılıqlı anlaşmanın gücləndirilməsi məqsədini güdür.

Qədim Azərbaycan şəhəri olan və İslam mədəniyyətinin paytaxtı adlanan Naxçıvan 2018-ci ildə mədəniyyət əlaqələrimizin daha da zənginləşdirilməsinə töhfə verən müxtəlif mədəniyyət proqramlarına evsahibliyi edib. Bu il Azərbaycanda ilk İƏT Mədəniyyət Həftəsi və ölkələrimizin gənc istedadlarını və yaradıcılığını dəstəkləyən klassik musiqi ifaçılarının səkkizinci beynəlxalq müsabiqəsinə evsahibliyi etməsini səbirsizliklə gözləyirik.

Azərbaycan İslam Konfransı Gənclər Forumunun və Azərbaycan hökuməti tərəfindən Bakıda evsahibliyi edilən Avrasiya Regional Mərkəzinin fəaliyyətini dəstəkləyir və Gənclər və İdman Nazirlər Şurasında sədrliyimiz dövründə biz gənclərə və idmanın inkişafına praktiki səviyyədə töhfəmizi davam etdirəcəyik. Bu sədrlik dövründə Azərbaycan tərəfindən İslam ölkələri arasında gənclər və idman fəaliyyəti vasitəsilə dostluq əlaqələrinin gücləndirilməsi məqsədilə gənclər üçün nəzərdə tutulan 2-ci İcraçı Model İƏT oyunları, İslam ölkələrinin gənc sahibkarlar şəbəkəsinə evsahibliyi ediləcək.

Biz, həmçinin iştirakçıları İƏT-in xüsusiləşdirilmiş orqanı olan və Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin təşəbbüsü ilə, "İƏT 2025 fəaliyyət proqramı"nın mühüm məqsədi olan ölkələrimizin istehsal qüvvələri və iqtisadi artımını dəstəkləmək məqsədilə yaradılmış və İƏT Əmək Mərkəzinin təsis olunmasının ratifikasiya prosesini yekunlaşdırmağa dəvət edirik.

***AZƏRTAC***

## "Bakı Metropoliteni" QSC-nin yaradılmasından 5 il keçir

Yarım əsrdən artıq bir tarixi olan Bakı Metropoliteninin inkişaf mərhələlərində "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması xüsusi yer tutur. Yeni dövrü səciyyələndirən ən böyük yeniliklərdən biri isə inşaatla bağlıdır. Ötən beş ildə metro xətlərinin tikintisində və ümumiyyətlə, Bakı Metropoliteninin yarıməsrlik tarixində ən əlamətdar hadisə müstəqillik dövrünün ilk xəttinin - Bənövşəyi xəttin "Avtovağzal" və "Memar Əcəmi" stansiyalarının istismara verilməsidir.



***"Bakıda metro tikintisinin böyük tarixi vardır... Ancaq bu gün yeni texnologiyalar tətbiq olunur. Biz Azərbaycanda, Bakıda bu texnologiyalardan istifadə etməliyik. Əvvəlki təcrübə çox qiymətlidir. Ancaq bugünkü təcrübə, əlbəttə ki, həm işlərin daha da böyük səmərə ilə görülməsinə xidmət göstərəcək, həm də maksimum keyfiyyət təmin olunacaqdır".***

***İlham Əliyev***

# Metropolitenin infrastrukturunun müasir səviyyədə qurulması diqqət mərkəzindədir

Bakı Metropoliteninin konseptual inkişaf sxeminə müvafiq olaraq inşa olunmuş "Avtovağzal" stansiyası platformadan, 2 vestibüldən, 8 çıxışdan, havalandırma keçidindən, vestibüllərin üzərində quraşdırılmış iki piramidadan ibarətdir. Yeni xəttin hər iki stansiyasının platformalarının uzunluğu 144 metrdir. Bu isə stansiyalara əvvəlki Qırmızı və Yaşıl xətlərin stansiyalarından fərqli olaraq, 5 deyil, 7 vaqonlu qatarın daxil olmasına imkan yaradır. Stansiya və keçidlərdə müxtəlif hündürlüklü 20 eskalator, çıxışlarda isə 8 travelator qoyulub. Fiziki imkanları məhdud insanların istifadəsi üçün lift quraşdırılıb. Biləcəri qəsəbəsi sakinlərinin rahatlığını təmin etmək üçün Bakı-Sumqayıt avtomobil yolunun altından keçid inşa edilib. Daha iki keçid isə Bakı Beynəlxalq Avtovağzal Kompleksi istiqamətində quraşdırılıb. Bundan əlavə, stansiya ərazisində daha beş çıxış var.

"Avtovağzal"-"Memar Əcəmi" mənzil tunellərinin və "Memar Əcəmi" stansiyasının layihə işləri dünyanın aparıcı şirkətləri tərəfindən hazırlanıb. Tunellərin inşası üçün hazırlıq işlərinə 2011-ci ilin fevralında, tikintisinə isə həmin ilin sentyabrında başlanılıb. Podratçı təşkilat tərəfindən tunellərin tikintisi ilə yanaşı, tunellərarası 8 təxliyə keçidi və 2 havalandırma şaxtası inşa edilib. "Memar Əcəmi" stansiya kompleksinin ümumi uzunluğu 168,5 metrdir. Burada üç çıxış yaradılıb. Ümumi sahəsi 12 min kvadratmetrə yaxın olan stansiyada və çıxışlarda 17 eskalator quraşdırılıb. Burada həmçinin fiziki imkanları məhdud insanlar üçün liftlər də var.

"Avtovağzal" və "Memar Əcəmi" stansiyalarının istismara verilməsi ilə yanaşı, bu stansiyaların enerji təchizatı üçün MDB məkanında ilk dəfə olaraq 35 kV-luq elektrik yarımstansiyaları qurulub.

Şəhər əhalisi üçün mühüm əhəmiyyət daşıyan metropolitenin genişləndirilməsi, yeni stansiyaların açılması işlərinin sürətləndirilməsi üçün və maddi-texniki bazanın möhkəmləndirilməsi istiqamətində işlər son illər ardıcıl olaraq həyata keçirilir.

Bu gün tikinti yeni xəttin davamı olan "B-03" stansiyasında aparılır. Hazırda stansiyada yol divarlarının, keçidlərin, stansiya vestibüllərinin üzlük işləri görülür. "Memar Əcəmi" ilə bu stansiyanı birləşdirən dəmir yolunun çəkilişi başa çatmaqdadır. Tunellərdə yolun betonlama işləri başa çatıb. Hazırda dönmə kamerasında yolayırıcılar quraşdırılır.

Təbii ki, 52-ci ildir fəaliyyət göstərən metropolitenin mövcud infrastrukturunun müasir tələblər səviyyəsinə çatdırılması, elmi-texniki tərəqqinin tətbiq edilməsi diqqət mərkəzində saxlanılır. Bu baxımdan tunellərdə aparılan sağlamlaşdırma işləri böyük əhəmiyyət kəsb edir. Ümumiyyətlə, tunel örtüklərinin korroziyadan mühafizə olunması metropolitendə həmişə aktuallığı ilə seçilib. Son 5 ildə bu sahədə əvvəlki illərin təcrübəsini qiymətləndirməklə daha təsirli mübarizə vasitələrinin axtarışı davam edib. Bu, tunel köynəklərini korroziyadan mühafizə edən boya ilə rənglənməsi ilə tamamlanır. Müvafiq sahənin maddi-texniki bazası tamamilə yenidən qurulub, cihazlar, avadanlıqlar alınıb. Bu isə keyfiyyətli yoxlamanı ən yüksək standartlar səviyyəsinə çatdırmağa imkan verib. Tunel geyimini rəngləmək üçün keyfiyyətli yeni boyalar da sınaqdan çıxarılır. Bu sahədə aparılan axtarışların coğrafiyası da genişlənib və hətta okeanın o tayına gedib çıxıb. Sınaqdan çıxarılaraq tətbiq edilən boyaq maddələri həm tərkibinə, həm keyfiyyətinə, həm də funksionallığına görə, eləcə də sərnişinlərin və işçi personalın sağlamlığına təsiri baxımından məqbul sayılıb. Bununla belə, daha səmərəli və keyfiyyətli boyaların axtarışı mütəmadi olaraq davam etdirilir.





Bütün bunlar metropolitendən istifadə edən sərnişinlərin rahatlığı, təhlükəsizliyi, onlara təqdim olunan xidmət mədəniyyətinin səviyyəsinin yüksəldilməsinə hesablanıb. Gözəl stansiyalar, yeni qatarlar, sərnişinlərlə nəzakətli davranış, hərəkət cədvəlinin dəqiq yerinə yetirilməsi metro məkanında normal mikroiqlim şəraiti olmadan heç bir dəyərə malik ola bilməz. Metro stansiyalarının, tunellərin təmiz atmosfer havası ilə təmin olunması mövcud havalandırma sistemlərinin və qurğuların işindən asılıdır. Yarıməsrlik istismar müddətində artıq ömrünü başa vurmuş ventilyatorlar tunel və stansiyaların ildən-ilə çoxalan avadanlıqlarından, həcmi artan sərnişin axınından ayrılan istilik miqdarının öhdəsindən, demək olar ki, gələ bilmirdi. Bu da sərnişindaşımada xüsusən yay aylarında problemlər yaradır, insanların narazılığına səbəb olurdu. Artıq bu məsələ də özünə daha böyük diqqət tələb edirdi. Doğrudur, əvvəlki illərdə də ventilyasiya qurğularının yenilənməsi üçün müasir ventilyatorlar alınırdı. Amma son 5 ildə ventilyator təsərrüfatına daha peşəkar münasibətin formalaşması bu sahədə ciddi dəyişikliklərə ehtiyacın olduğunu aşkar etib.

Ötən ilin sentyabr ayına olan məlumata görə, metropolitenin ventilyasiya sistemi 114 güclü ventilyatordan ibarət idi ki, onlardan 38-i istismar müddətini çoxdan başa vurmuşdu. Digər tərəfdən, ventilyatorların iş rejimi və cədvəlinin optimallıqdan uzaqlığı, təbii havalandırmanın olmaması vəziyyəti daha da kəskinləşdirirdi.

Bu gün ventilyasiya sahəsində böyük dəyişikliklər aparılmalı, avadanlıq yenilənməlidir. Alınacaq yeni ventilyatorların texniki şərtləri işlənib. Almaniya, Avstriya, Rusiya istehsalçıları ilə danışıqlar aparılıb. Ötən il Rusiyanın Artyomovsk Maşınqayırma Zavodundan alınan yeni ventilyatorların ikisi 44 saylı şaxtada ("Koroğlu"), biri isə "Sahil" stansiyasının 7 "A" saylı şaxtasında quraşdırılıb. Elə bu günlərdə Rusiyanın "Ventprom" şirkətinin istehsalı olan 7 ventilyator Bakıya gətirilməlidir.

Bununla yanaşı, ötən ilin əvvəlindən daha səmərəli iş cədvəlinin tətbiq edilməsi, bu cədvəlin əvvəlki illərdən fərqli olaraq, 2 deyil (yay-qış), ilin hər bir fəslinə görə işlənib hazırlanması, eləcə də təbii havalandırma imkanlarından istifadə etmək nəticəsində ilin ən isti aylarında stansiya və tunellərdə havanın orta temperaturunu 1-3 dərəcə aşağı salmaq mümkün olub.

"Bakı Metropoliteni" QSC-nin dövründə baş verənlər böyük bir kitab mövzusudur. Biz burada hərəkətin təşkilindən və idarə olunmasından, yeni sistemlərdən istifadədən, yeni rabitə vasitələrinin tətbiqindən, elektrik təchizatı sisteminin etibarlığının artırılması və bu məqsədlə yeni yarımstansiyaların tikintisi ilə yanaşı köhnələrin yeniləşdirilməsi, yol təsərrüfatının yenidən qurulması, qatarların təmirdən sonra sınaqdan çıxarılması üçün dəmiryol poliqonunun yaradılması və digər maraqlı yeniliklərdən söz aça bilərik. Səhmdar cəmiyyət yarandığı dövrdən keçən qısa müddət ərzində avtomatlaşdırılmış ödəniş sisteminə keçid, İSO standartlarının tələblərinə cavab verən dəmir-beton konstruksiyaların istehsalının təşkili və bununla da yeni texnologiyanın tətbiqi ilə xarici təchizatçılardan asılılığın aradan qaldırılması nəticəsində valyuta ilə ödənilən əlavə xərclərin azaldılması, elektrik deposunda işarəvermə, rabitə və videomüşahidə sisteminin bir mərkəzdən idarə olunması üçün 5 mərtəbəli blok-post binasının tikintisi və avadanlıqlarla təchiz olunması, elektrik deposunun elektrik təchizatının etibarlığının və dayanıqlığının gücləndirilməsi məqsədilə iki yarımstansiyanın tamamilə yeni texnoloji əsaslarla qurulması, təlim-tədris mərkəzinin təsis edilməsi və digər bir çox irihəcmli layihələrin həyata keçirilməsi görülmüş işlərin yalnız müəyyən bir hissəsini təşkil edir və hazırda bu istiqamətdə işlər davam etdirilir. Yəqin ki, həmin sahələrdə görülən işləri bir mövzu altında birləşdirib, hər biri haqqında ətraflı danışmaq lazım gələcək.

Eləcə də hesabat dövründə metropolitendə həyata keçirilən sosialyönümlü proqramlar, tədbirlər də xüsusi və son dərəcə geniş bir mövzudur. Bununla belə, 5 il ərzində bu sahədə görülən işlərə toxunmadan söhbəti yekunlaşdırmaq da olmur.

Yeni rəhbərlik fəaliyyətinin ilk günlərindən metropolitençilərin sosial məsələləri ilə hərtərəfli tanış olub. Depo ərazisindəki yeməkxananın vəziyyətindən, orada işçilərə göstərilən xidmətin səviyyəsindən, hazırlanan yeməklərin keyfiyyətindən narazı qalan QSC-nin sədri Zaur Hüseynov bu sahədə təxirəsalınmaz dəyişikliklər edilməsi barədə qərar qəbul edib. Yeməkxana qısa müddətdə əsaslı şəkildə təmir edilib, iaşə avadanlığının ən son nümunələri ilə təchiz edilib. Təmirdən sonra orada hazırlanan yeməklərin çeşidi artıb, keyfiyyəti yaxşılaşıb.

Metropolitençilərin yeməkxananın xidmətindən rahat və əlverişli şəkildə istifadə etməsi üçün nağdsız və güzəştli ödəniş sistemi tətbiq edilib. Qiymətlərin 52 faizinin ödənilməsini Metropoliten İşçilərinin Həmkarlar İttifaqı öz üzərinə götürüb. İşçi tərəfindən ödəniləcək məbləğ isə ayın axırında ona hesablanan əməkhaqqıdan tutulur.

Həmin dövrdən deponun ərazisində əsaslı təmir-bərpa işlərinə başlanıb. Ayrı-ayrı xidmətlərə aid olan yaşıllıqlar birləşdirilərək geniş bir parka çevrilib. Orada köhnə hovuz təmir edilərək üzərində fəvvarə qurulub. Həmin ərazidə ulu öndər Heydər Əliyevin büstü, bir qədər aralıda ölkəmizin azadlığı, torpaqlarımızın bütövlüyü uğrunda mübarizədə həlak olmuş insanlara xatirə abidəsi qoyulub.

Depo işçilərinin sosial problemlərinin həlli istiqamətində görülən əhəmiyyətli tədbirlərdən biri də deponun 1 saylı nəzarət-keçid məntəqəsinin yaxınlığında şəxsi avtomobillər üçün dayanacağın yaradılması olub.

Metropolitençilərin istirahəti, asudə vaxtlarının səmərəli, yay istirahətlərinin daha məzmunlu təşkili üçün tədbirlər görülüb. Ölkənin görməli yerlərində istirahət etmək, xarici ölkələrə turist səfərlərinə yollanmaq imkanı yaranıb. Müəssisənin Bilgəhdəki istirahət sahəsində aparılan yenidənqurma işləri, köhnə kottec tipli evlərin yerində 2-3 mərtəbəli binaların ucaldılması, sanatoriya və profilaktoriyanın müayinə-müalicə imkanlarının genişlənməsi, ən müasir tibb avadanlığı ilə təchiz edilməsi son 5 ildə sosial sahədə görülən işlərin kiçik bir hissəsidir.

Bütün bu deyilənlər bir daha təsdiq edir ki, dövlət başçısının 5 il əvvəl Bakı Metropoliteninin gələcək inkişafı, şəhərin ən kütləvi ictimai nəqliyyatı kimi öz funksiyasını daha səmərəli yerinə yetirməsi üçün qəbul etdiyi qərar - Bakı Metropoliteninin və "Azərtunelmetrotikinti" Səhmdar Cəmiyyətinin yenidən təşkili yolu ilə "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin yaradılması sözün tam mənasında özünü doğruldub.

***Bəxtiyar ƏZİZLİ,***
***"Azərbaycan"***











# “Azərbaycanın ali təhsil sistemində tədqiqat, ixtira və innovasiyaların gücləndirilməsi” layihəsi reallaşdırılır



Martın 1-də “Azərbaycanın ali təhsil sistemində tədqiqat, ixtira və innovasiyaların gücləndirilməsi” (Tİİ) layihəsinin açılış konfransı keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən təhsil nazirinin müavini Firudin Qurbanov Prezident İlham Əliyevin elmə, təhsilə daim xüsusi önəm verdiyini vurğulayıb. O, dövlət başçısının təhsil sahəsi ilə bağlı imzaladığı sənədlərin əhəmiyyətindən danışıb.

Nazir müavini bildirib ki, son illərdə Azərbaycanın ali təhsil sistemində mühüm dəyişikliklər və islahatlar həyata keçirilir, tədqiqat, ixtira, innovasiyayönümlü layihələrə dəstək verilir.

F.Qurbanov qeyd edib ki, Avropa İttifaqı ilə birgə həyata keçirilən “Azərbaycanın ali təhsil sistemində tədqiqat, ixtira və innovasiyaların gücləndirilməsi” layihə çərçivəsində müvafiq sahələrin idarəolunması üçün imkanların yaradılması, tədqiqatların dəstəklənməsi istiqamətində potensialın gücləndirilməsi və müasir doktorantura təhsil proqramlarının formalaşdırılması nəzərdə tutulur. Həmçinin ali təhsil sistemində Tİİ üçün milli koordinasiya modelinin təklif olunması məqsədilə biri maliyyə mexanizmi olmaqla üç dəstək mexanizmi hazırlanacaq. Həmin mexanizmlərdən biri pilot olaraq həyata keçiriləcək.

Nazir müavini vurğulayıb ki, ali təhsil müəssisələrində tədqiqat və ixtira fəaliyyətinin genişləndirilməsi üçün həvəsləndirici mexanizmlər, “Açıq innovasiya” konsepsiyasının hazırlanması planlaşdırılır. Bu, mövcud tədqiqat və ixtira imkanlarından daha yaxşı istifadə edilməsinə və yeni investisiyaların stimullaşdırılmasına imkan yaradacaq.

Tədbirdə məlumat verilib ki, Təhsil Nazirliyinin əsas benefisiarı olduğu və Avropa İttifaqının maliyyələşdirdiyi “Azərbaycanın ali təhsil sistemində tədqiqat, ixtira və innovasiyaların gücləndirilməsi” layihəsi 2018-ci ilin oktyabr ayından 2020-ci ilin aprel ayına qədər olan dövrü əhatə edir. Layihənin əsas məqsədi ali təhsil sistemində tədqiqat, ixtira və innovasiyaların strategiyası və idarəedilməsinin gücləndirilməsindən ibarətdir.

Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri, səfir Kestutis Yankauskas bildirib ki, Azərbaycan ilə təmsil etdiyi qurum arasında əməkdaşlıq müxtəlif sahələrdə olduğu kimi, təhsil sahəsində də uğurla davam edir. O, layihənin əsas məqsədinin Azərbaycanın ali təhsil sistemində tədqiqat və innovasiyayönümlü yeni mexanizmlərin yaradılması olduğunu qeyd edib.

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) vitse-prezidenti, akademik İsa Həbibbəyli ölkədə elm və təhsil sahəsində beynəlxalq əməkdaşlıq üçün geniş imkanlar yaradıldığını, layihənin uğurlu nəticələr verəcəyinə əminliyini qeyd edib.

AMEA-nın akademik-katibi, İnformasiya Texnologiyaları İnstitutunun direktoru, akademik Rasim Əliquliyev müasir dünyada elmin, təhsilin mühüm rolundan bəhs edib, respublikamızda bu sahənin inkişafı istiqamətində görülən işlərdən danışıb. Layihə barədə fikirlərini diqqətə çatdıran akademik onun təhsilə töhfə verəcəyinə əminliyini vurğulayıb.

Təhsil Nazirliyinin şöbə müdiri və layihənin Azərbaycan tərəfindən əlaqələndiricisi Emin Əmrullayev, Tİİ Türkiyə ofisinin direktoru Yasemin Erdal, layihənin eksperti Krzysztof Qulda tədqiqat, ixtira və innovasiya sahəsində beynəlxalq təcrübələrdən danışıb, layihənin əhəmiyyətini qeyd ediblər.

Sonra müzakirələr aparılıb.

# Bakıda, respublikanın bütün şəhər və rayon mərkəzlərində Novruz yarmarkaları fəaliyyətə başlayır

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığı ilə paytaxtın 14 ünvanında, ölkənin bütün şəhər və rayon mərkəzlərində martın 2-dən etibarən hər həftənin şənbə və bazar günləri, martın 16-dan 21-dək isə hər gün Novruz yarmarkaları keçiriləcək. Yarmarkalarda respublikamızın müxtəlif bölgələrindən fermerlər, ailə təsərrüfatları əhaliyə geniş çeşiddə kənd təsərrüfatı məhsullarını bazar qiymətlərindən xeyli ucuz təklif edəcəklər. Yarmarkalarda məhsulların keyfiyyətinə və qiymətlərinə müvafiq qurumlar tərəfindən nəzarət olunacaqdır.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının təşkilatçılığı ilə Bakı Şəhər İcra Hakimiyyəti və Kənd Təsərrüfatı Nazirliyi ilə birgə əhalinin tələbatı nəzərə alınaraq kənd təsərrüfatı məhsullarının satış yarmarkaları paytaxt Bakıda 14 ünvanda - Yasamal rayonunda H.Cavid prospektində, AMEA-nın binasının qarşısındakı parkda, Nərimanov rayonunda F.X.Xoyski prospektindəki Qələbə meydanında (metronun Gənclik stansiyasının çıxışı), Nizami rayonunda iki yerdə - Qara Qarayev prospekti 55/57 ünvanının qarşısındakı “Orbita” ticarət mərkəzinin avtomobil dayanacağında və C.Naxçıvanski küçəsi, 74-də 8-ci kilometr yarmarkasında, Səbail rayonunda iki yerdə - Seyran Məmmədov küçəsi, 6 ünvanında və Nizami küçəsi, 154-də “Landmark” mehmanxanasının yanında, Binəqədi rayonunda 7-ci mikrorayondakı Kunanbayev küçəsində, Xətai rayonunda Məzahir Rüstəmov küçəsinin Sarayevo və S.Ə.Şirvani küçələri ilə kəsişməsində, Qaradağ rayonunun Lökbatan qəsəbəsində, 28 May küçəsindəki Olimpiya İdman bazasının qarşısında, Nəsimi rayonunda Mərdanov Qardaşları küçəsi, 59 ünvanında, Pirallahı rayonunda Pirallahı qəsəbəsindəki K.Rzayev küçəsi, 14-də qeyri-yaşayış obyektində, Sabunçu rayonunun Bakıxanov qəsəbəsinin M.Fətəliyev küçəsi, 72 ünvanında, Suraxanı rayonunun Qaraçuxur qəsəbəsinin Yeni Günəşli “V” yaşayış sahəsindəki “Günəş” ticarət mərkəzində və Xəzər rayonunun Mərdəkan qəsəbəsindəki S.Yesenin küçəsi, döngə 2 ünvanında təşkil olunacaq.

Bakı şəhərində təşkil olunacaq 14 yarmarkada satışa respublikanın 42 rayonundan 52 adda məhsul çıxarılacaq.

Təşkilatçılar paytaxt sakinlərini yarmarkalara dəvət edirlər.

# Martın 1-dən Azərbaycanda minimum əməkhaqqı 180 manat, pensiyanın minimum məbləği isə 160 manat müəyyən olunur

Prezident İlham Əliyevin 2019-cu il 8 fevral tarixli sərəncamı ilə martın 1-dən ölkəmizdə minimum əməkhaqqı 38,4 faiz artırılaraq 180 manata və dövlət başçısının qanunvericilik təşəbbüsü əsasında qəbul olunan qanunla əmək pensiyasının minimum məbləği 38,5 faiz artırılaraq 160 manata çatdırılır. Hər iki artım respublikamızda əhalinin rifah səviyyəsinin yaxşılaşdırılması istiqamətində əhəmiyyətli irəliləyişə imkan verən mühüm addımlardır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, minimum əməkhaqqının artımı birbaşa olaraq 600 min insanı əhatə edir və onlardan dövlət sektorunda işləyən 450 min nəfərin əməkhaqqında 30 faiz, özəl sektorda işləyən 150 min nəfərin əməkhaqqında isə 25 faiz artım edilir. Artımın təmin edilməsi üçün dövlət büdcəsindən illik 400 milyon manat, bu ilin 10 ayı ərzində 335 milyon manat əlavə vəsait ayrılacaq.

Minimum pensiya məbləğinin artırılması isə 233 min pensiyaçını, o cümlədən 140 min nəfər əlilliyə görə pensiya alan vətəndaşı əhatə edəcək. Onlardan 9 min nəfərin pensiyasında 93 faiz, 26 min nəfərin pensiyasında 30 faiz, 74 min nəfərin pensiyasında 16 faiz və s. artımlar edilir. Artımın edilməsi üçün Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondundan cari ilin 10 ayı (mart-dekabr) üzrə 41 milyon manat, illik isə 49 milyon manat əlavə vəsait yönəldiləcək.

# Silahlı Qüvvələrə Yardım Fonduna 98 milyon manatdan çox vəsait daxil olub

Martın 1-dək Azərbaycan Respublikasının Silahlı Qüvvələrinə Yardım Fonduna 97 milyon 647 min 955,09 manat, 213 min 577,88 ABŞ dolları, 15 min 736 avro və 5 min rubl vəsait daxil olub.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Silahlı Qüvvələrə Yardım Fondu Azərbaycan Prezidentinin 2002-ci il 17 avqust tarixli fərmanı ilə yaradılıb. Fond Azərbaycan Respublikası Silahlı Qüvvələrinin müasir tələblər səviyyəsində inkişafını təmin etmək, onun maddi-texniki bazasını möhkəmləndirmək və zəruri sosial tədbirləri maliyyələşdirmək məqsədilə yaradılıb. Fondun maliyyə mənbəyi Azərbaycan Respublikası Silahlı Qüvvələrinin maddi-texniki və sosial bazasının möhkəmləndirilməsinə maliyyə köməyi məqsədilə Azərbaycanın ərazisində fəaliyyət göstərən hüquqi və fiziki şəxslərdən könüllülük əsasında daxil olan maliyyə vəsaiti və qanunvericiliklə qadağan edilməyən digər daxilolmalardır.

Fondun əsas vəzifəsi Azərbaycan Respublikasının etibarlı müdafiəsi üçün Silahlı Qüvvələrin inkişafını və onun maddi-texniki bazasının möhkəmləndirilməsini, həmçinin hərbi qulluqçuların sosial müdafiəsinin daha da gücləndirilməsini təmin etməkdir.

# Çin şirkətləri Azərbaycana 800 milyon dollardan çox investisiya yatırıblar

## Şahin MUSTAFAYEV: “Azərbaycan və Çin dövlət başçılarının siyasi iradəsi əlaqələrin inkişafı üçün əlverişli zəmin yaradır”

İqtisadiyyat naziri, Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının həmsədri Şahin Mustafayevin rəhbərliyi ilə rəsmi şəxslərdən və iş adamlarından ibarət nümayəndə heyəti Çin Xalq Respublikasında səfərdədir.



### Ölkəmizdə müxtəlif sahələrdə Çin şirkətləri fəaliyyət göstərir

Səfərin ilk günü Azərbaycan nümayəndə heyəti Çinin “Huawei” və “Çin Milli Elektrik Mühəndisliyi Ko. Ltd” (CNEEC) şirkətlərinin rəhbərləri ilə görüşlər keçirib, müzakirələr aparıb.

“Huawei” şirkətinin rəhbəri ilə görüşdə İKT sahəsində əməkdaşlığın inkişafı imkanları müzakirə edilib. Bildirilib ki, İKT-nin inkişafı Azərbaycan iqtisadiyyatının prioritet istiqamətlərindəndir. Bu baxımdan Azərbaycan dünyada aparıcı şirkətlərdən olan “Huawei” ilə əlaqələrin genişləndirilməsində maraqlıdır.

İqtisadiyyat naziri Şahin Mustafayevin “Çin Milli Elektrik Mühəndisliyi Ko. Ltd” (CNEEC) şirkətinin prezidenti Zanq Yanfey ilə görüşündə şirkətin ölkəmizdə fəaliyyətinə və əməkdaşlığın inkişafına dair fikir mübadiləsi aparılıb. Azərbaycanda sənaye, tikinti, ticarət, xidmət və digər sahələrdə Çin sərmayəli şirkətlərin fəaliyyət göstərdiyini qeyd edən nazir CNEEC-in Azərbaycanda müxtəlif layihələrin icrasında iştirak etdiyini vurğulayıb. Şirkətin prezidenti Zanq Yanfey isə Azərbaycanla əməkdaşlıqda maraqlı olduqlarını ifadə edib. Görüşdə Azərbaycanda avtomobil şinlərinin istehsalının təşkili də müzakirə mövzusu olub.

### Ötən il ticarət dövriyyəsi 1,3 mlrd. dollar təşkil edib

Səfər çərçivəsində Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının 7-ci iclası keçirilib. Komissiyanın həmsədri Şahin Mustafayev iki ölkə arasındakı münasibətlərin qarşılıqlı hörmət və dostluq prinsiplərinə əsaslandığını vurğulayıb. Bildirilib ki, əməkdaşlığımızın qədim tarixi var, hələ 2500 il bundan əvvəl xalqlarımız İpək yolu vasitəsilə sıx ticari və humanitar əlaqələrə malik olub.

Azərbaycan və Çinin dövlət başçılarının siyasi iradəsi və aparılan intensiv dialoqlar əlaqələrin inkişafı üçün əlverişli zəmin yaradıb. Prezident İlham Əliyevin Çin Xalq Respublikasına 2015-ci ildəki dövlət səfəri münasibətlərin inkişafında yeni mərhələnin başlanğıcı olub. Səfər zamanı aparılan danışıqlar, əldə olunan mühüm razılaşmalar, imzalanmış dostluq və əməkdaşlıq haqqında Birgə Bəyannamə, “İpək yolu İqtisadi Kəməri”nin yaradılmasının birgə təşviqi haqqında Anlaşma Memorandumu ölkələrimiz arasında əlaqələrin genişlənməsində xüsusi əhəmiyyət kəsb edir.

2018-ci ildə ölkələrimiz arasında ticarət dövriyyəsi 1,3 mlrd. dollar təşkil edib. Çinin Cənubi Qafqaz ölkələri ilə ticarətinin təqribən 43 faizi Azərbaycanın payına düşür. Azərbaycanda 120-ə yaxın Çin kapitallı şirkət fəaliyyət göstərir. Çin şirkətləri Azərbaycana 800 milyon ABŞ dollarından çox investisiya yatırıblar.

### Azərbaycan Cənubi Qafqazda Çinin əsas ticarət tərəfdaşıdır

Ölkəmizdə biznes mühitinin davamlı olaraq yaxşılaşdırılması üçün həyata keçirilən sistemli və ardıcıl tədbirlər barədə məlumat verən nazir Şahin Mustafayev Çin şirkətlərini Azərbaycanda yaradılan əlverişli biznes və investisiya mühitindən yararlanmağa, sənaye parklarında və məhəllələrində birgə müəssisələrin təşkilinə dəvət edib.

Komissiyanın iclasında iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən nəqliyyat-tranzit əlaqələrinin genişləndirilməsi müzakirə olunub. Şahin Mustafayev Transxəzər Nəqliyyat Dəhlizinin üstünlükləri, Çindən Avropaya və əks istiqamətdə yüklərin daşınmasında Azərbaycanın nəqliyyat-logistika potensialından istifadənin səmərəliliyini diqqətə çatdırıb, Çində bu dəhlizin təşviqinin genişləndirilməsinin önəmini, ölkələrimiz arasında əməkdaşlığa töhfə verəcəyini qeyd edib.

Komissiyanın həmsədri, Çinin Kommersiya Nazirliyinin Avrasiya Departamentinin rəisi Lu Veydon ölkəsinin Azərbaycanla əlaqələrin inkişafında maraqlı olduğunu bildirib, əməkdaşlığın inkişaf perspektivləri barədə fikirlərini bölüşüb. Lu Veydon Azərbaycanın Cənubi Qafqazda Çinin əsas ticarət tərəfdaşı olduğunu, Azərbaycan-Çin iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsində və yeni əməkdaşlıq imkanlarının təşviq olunmasında komissiyanın rolunu vurğulayıb.

İclasın sonunda Azərbaycan-Çin Hökumətlərarası Ticarət-İqtisadi Əməkdaşlıq Komissiyasının 7-ci iclasının yekunlarına dair Protokol imzalanıb. İclas çərçivəsində müzakirə olunmuş məsələlərin və komissiyanın gələcək fəaliyyət istiqamətlərinin əksini tapdığı sənəddə sənaye, kənd təsərrüfatı, tranzit-logistika, ticarət, investisiya, İKT, maliyyə, turizm, humanitar və s. sahələrdə əməkdaşlığın genişləndirilməsi nəzərdə tutulur.

### Azərbaycan Çinə yüksəkkeyfiyyətli kənd təsərrüfatı məhsulları ixrac edə bilər

Çinə səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti bir sıra görüşlər keçirib. Çinin kommersiya naziri Conq Şan ilə görüşündə Şahin Mustafayev Azərbaycanın Çin ilə ikitərəfli əlaqələrə xüsusi əhəmiyyət verdiyini və bu əlaqələrin bütün sahələrdə genişlənməsində maraqlı olduğunu diqqətə çatdırıb. Bildirilib ki, Azərbaycanın Çində ticarət nümayəndəsi, Urumçidə və Şanxayda Azərbaycan şərab evləri, Lucouda “Azərbaycan Ticarət Evi” fəaliyyət göstərir, Çinə ixrac missiyaları təşkil edilir. Bu il Çinə daha 3 ixrac missiyasının təşkili nəzərdə tutulur.

Bundan başqa, Çinin paytaxtında və müxtəlif regionlarında keçirilən sərgilərdə Azərbaycan şirkətlərinin məhsulları və xidmətləri nümayiş etdirilir və böyük maraqla qarşılanır. Çin ilə ikitərəfli ticarətin genişləndirilməsi üçün Birinci Çin Beynəlxalq İdxal Sərgisi platformasından da səmərəli istifadə olunub, 180 çeşiddən çox Azərbaycan məhsulu təqdim edilib. Nümayiş etdirilən Azərbaycan məhsullarına çinli ziyarətçilər tərəfindən böyük maraq göstərilib.

Azərbaycan Çinlə kənd təsərrüfatı sahəsində də əməkdaşlıqda maraqlıdır. Çəltikçilik, çayçılıq, pambıqçılıq, ipəkçilik, tütünçülük sahələrində əlaqələrin inkişafı üçün imkanlar genişdir. Çin şirkətləri pambıqçılığın və ipəkçiliyin maddi-texniki bazasının inkişafında Azərbaycanla uğurlu əməkdaşlıq edir. Azərbaycan Çinə yüksəkkeyfiyyətli kənd təsərrüfatı məhsullarını, o cümlədən pambıq, tütün, şərab, alüminium və kimya sənayesi məhsulları ixrac edə bilər. Ölkəmiz isə Çindən yüksəkkeyfiyyətli məhsulların idxalını dəstəkləyir.

Görüşdə Kommersiya Nazirliyinin tərkibində olan Çin İnvestisiyanın Təşviqi Agentliyi və Çin Avropa Texniki-İqtisadi Əməkdaşlıq Assosiasiyası tərəfindən Azərbaycan məhsullarının Çində daha geniş təşviqi və satışının təşkilinin genişləndirilməsi, infrastruktur, qida təhlükəsizliyi sahələrində əməkdaşlığın genişləndirilməsi və s. məsələlər müzakirə edilib.

### Çinin böyük marketlər şəbəkəsində Azərbaycan şərablarının satışına başlanılıb

Nümayəndə heyətinin Çinə səfəri çərçivəsində “Çin Xalq Respublikasının Mədəniyyət və Turizm Nazirliyi ilə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi arasında 2019-2023-cü illər üçün mədəni əməkdaşlıq haqqında” Protokol, “Çin Xalq Respublikasının Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi arasında çinli turistlərin ölkəmizə qrup səfərlərinin sadələşdirilməsi haqqında” Anlaşma Memorandumu imzalanıb.

Qeyd edək ki, 25 fevral - 1 mart tarixlərində İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə bu ilin ilk ixrac missiyası Çin Xalq Respublikasının Pekin şəhərinə təşkil edilib. Missiyaya qida, şərab və digər spirtli içki istehsalı sahəsində fəaliyyət göstərən 16 Azərbaycan şirkəti daxil edilib. İxrac missiyası çərçivəsində Çin və Azərbaycan şirkətlərinin iştirakı ilə “dəyirmi masa” keçirilib, Azərbaycan məhsulları barədə məlumat verilib, ixracın artırılması istiqamətində fikir mübadiləsi aparılıb.

Dünəndən etibarən Çinin “BHG” marketlər şəbəkəsində Azərbaycan şərablarının satışına başlanılıb.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# Heydər Əliyev Fondunun təşkilatçılığı ilə “Bakı Marafonu-2019” başlayır

Mayın 5-də Heydər Əliyev Fondunun təşkilatçılığı ilə “Bakı Marafonu-2019” keçiriləcək. Layihənin məqsədi idmanın inkişafına dəstək göstərmək, sağlam həyat tərzini təbliğ etmək, insanları xeyirxah amallar ətrafında bir araya gətirməkdir.

AZƏRTAC xəbər verir ki, “Küləyə qalib gəl” şüarı altında artıq dördüncü ildir təşkil olunan Bakı marafonu Dövlət Bayrağı Meydanından start götürərək Bakı Olimpiya Stadionuna qədər 21 kilometr məsafəni əhatə edəcək.

Yarışda iştirak etmək istəyən 16 yaşdan yuxarı şəxslər martın 4-dən mayın 1-dək Bakı şəhərinin ticarət mərkəzlərindəki (“28 Mall”, “Gənclik Mall”, “Port Baku Mall”) qeydiyyat məntəqələrinə və ya “Bakı Marafonu-2019”un saytına (www.baku.marathon.az) müraciət edə bilərlər.

Qeydiyyat zamanı müvafiq anket formasını doldurmaq, şəxsiyyət vəsiqəsinin surətini (tələbələr, eyni zamanda, tələbə vəsiqəsinin surətini) təqdim etmək və iştirak üçün müəyyən olunmuş vəsaiti ödəmək lazımdır.

Yarışda iştirak etmək istəyən fiziki şəxslər üçün ödəniş məbləği 20 AZN-dir. Korporativ olaraq qoşulanlar isə info@marathon.az elektron poçt ünvanına yazaraq müraciət edə bilər. Yarımarafonda tələbələrin iştirakı ilə bağlı vəsaitlər Heydər Əliyev Fondu tərəfindən qarşılandığından, onlar qeydiyyat zamanı ödəniş etməyəcəklər.

“Bakı Marafonu-2019”un eksklüziv tərəfdaşı “Azercell Telekom” şirkətidir. Marafon Dənizkənarı Bulvar İdarəsi, Bakı Olimpiya Stadionu, Təhsil Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, “Regional İnkişaf” İctimai Birliyi, eləcə də AFFA və SOCAR-ın dəstəyi ilə təşkil olunacaq. Layihənin icrasını isə Sport Marketing Group (SMG) şirkəti həyata keçirəcək.

“Bakı Marafonu-2019”un mükafatlandırılması iki kateqoriyada olacaq. Belə ki, marafonun kişi və qadın iştirakçıları qaçış zolağında ilk 3 yer uğrunda mübarizə aparacaqlar. Kişi və qadın kateqoriyalarının hər birində 1-ci yerin qalibi 3 000 AZN, 2-ci yerin qalibi 2 000 AZN, 3-cü yerin qalibi isə 1 000 AZN məbləğində mükafat və hədiyyələrlə, eləcə də medal və sertifikatlarla təltif olunacaq.

O cümlədən bütün marafon iştirakçılarına və yarışın təşkilində dəstək göstərən könüllülərə sertifikatlar təqdim olunacaq. Finiş xəttini keçən ilk 1000 iştirakçı isə “Bakı Marafonu-2019”un xüsusi medalları ilə təltif ediləcək.

Bundan əlavə, marşrut boyunca bir sıra əyləncəli proqramlar təşkil ediləcək.

Qeyd edək ki, ötən il keçirilən sonuncu Bakı marafonunda 18 min iştirakçı qeydiyyatdan keçmişdi.

Keçən yarışlara Azərbaycan vətəndaşları ilə yanaşı, ölkəmizdə yaşayıb-çalışan əcnəbilər, ABŞ, Braziliya, Çex Respublikası, Fransa, Hindistan, İran, İsveçrə, İspaniya, Qazaxıstan, Malayziya, Meksika, Özbəkistan, Səudiyyə Ərəbistanı, Tacikistan, Türkmənistan, Ukrayna və digər ölkələrin Azərbaycandakı səfirliklərinin, Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin, “BP Azərbaycan” şirkətinin, Böyük Britaniyanın Azərbaycana Birgə Yardım (UAFA) təşkilatının təmsilçiləri də qoşulmuşdu. Yarımarafonlarda ABŞ, Almaniya, Avstriya, Birləşmiş Ərəb Əmirlikləri, Böyük Britaniya, Çin, Fransa, Gürcüstan, İraq, İran, İspaniya, Keniya, Kolumbiya, Polşa, Rusiya, Türkiyə, Ukrayna, Yaponiya və digər ölkələrdən turistlər də iştirak etmişdi. Layihə region sakinləri tərəfindən böyük maraqla qarşılandığından 2017-ci il sentyabrın 17-də Gəncə şəhərində də yarımarafon təşkil olunmuşdu.

“Bakı Marafonu-2019” ilə bağlı yeniliklər, yarış ərəfəsində keçiriləcək məşqlər barədə ətraflı məlumatlar layihənin rəsmi feysbuk səhifəsi - www.facebook.com/bakumarathon və www.baku.marathon.az saytında təqdim ediləcək.

# *DTX:* Fəxrəddin Abbasovun Azərbaycan əleyhinə çağırışları və digər əməlləri ilə bağlı istintaq araşdırmaları davam etdirilir

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətində (DTX) istintaqı aparılan cinayət işi üzrə Azərbaycan Respublikasının vətəndaşı Abbasov Fəxrəddin Fərman oğlu Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 281.2-ci (Dövlət əleyhinə yönələn açıq çağırışlar) və 283.1-ci (Milli, irqi nifrət və düşmənçiliyin salınması, milli ləyaqətin alçaldılması) maddələrində nəzərdə tutulan cinayət əməllərini törətməkdə şübhəli bilinib.

DTX-nin ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, F.Abbasovun bu əməllərə görə təqsirləndirilən şəxs kimi məsuliyyətə cəlb olunmasına dair qərar qəbul edilib.

Bakı şəhəri Səbail Rayon Məhkəməsinin 2018-ci il 14 iyul tarixli qərarı ilə Abbasov Fəxrəddin Fərman oğlunun barəsində həbs qətimkan tədbiri seçilib.

Abbasov Fəxrəddin Fərman oğlu Rusiya Federasiyasında müvəqqəti yaşamaq hüququ müddətinin bitməsi ilə əlaqədar Moskva vilayəti Lyuberetsk Şəhər Məhkəməsinin deportasiya haqqında qərarı icra olunarkən 2019-cu ildə fevralın 28-də Bakıdakı Heydər Əliyev Beynəlxalq Aeroportunda Azərbaycan Respublikası hüquq mühafizə orqanları tərəfindən saxlanılıb və istintaqa cəlb edilib.

Hazırda Azərbaycan Respublikasının vətəndaşı Abbasov Fəxrəddin Fərman oğlunun Ermənistan Respublikasına səfərləri, özünün də bildirməsinə görə Ermənistan xüsusi xidmət orqanının əməkdaşı ilə apardığı görüş və əlaqələrinin mahiyyəti, Ermənistan Respublikasında keçirilən və kütləvi informasiya vasitələrində, sosial şəbəkələrdə yayımlanan tədbirlərə canlı yayımda qoşularaq Azərbaycan Respublikası və onun ərazi bütövlüyü əleyhinə etdiyi çağırışlar və digər əlaqəli məsələlərlə bağlı istintaq araşdırmaları davam etdirilir.

# UEFA Avropa Liqasının kubokunun Bakıya gətiriləcəyi tarix açıqlanıb

Bakı Olimpiya Stadionunda keçiriləcək futbol üzrə UEFA Avropa Liqasının kubokunun Azərbaycana gətiriləcəyi tarix açıqlanıb.

AZƏRTAC xəbər verir ki, kubok mayın 16-da Bakıya gətiriləcək. Kubok səyahətinə martın 9-da Cenevrədə start veriləcək. Martın 22-23-də Sevilya, ayın 29-30-da Berlin, aprelin 5-6-da London, 12-də Milan, səkkiz gün sonra Moskva, mayın 10-da Parisdə olacaq kubok daha sonra paytaxtımıza göndəriləcək. Səyahət çərçivəsində azarkeşlər kuboku görmək imkanı əldə edəcəklər. Həmçinin mükafat yerli həvəskar klublar və məktəblərdə də nümayiş olunacaq. Eləcə də kampaniya çərçivəsində futbolçu və azarkeşlər istifadə olunmuş idman geyimlərini UEFA-nın Fonduna bağışlamağa təşviq ediləcəklər. Bu geyimlər İordaniyadakı Zaatari qaçqın düşərgəsindəki suriyalı uşaqlara bağışlanacaq.

UEFA Avropa Liqasının final oyunu mayın 29-da Bakı Olimpiya Stadionunda keçiriləcək.

Xatırladaq ki, 2017-ci il sentyabrın 20-də UEFA İcraiyyə Komitəsi 2019-cu ildə futbol üzrə UEFA Avropa Liqasının final oyununun Bakı Olimpiya Stadionunda keçirilməsi haqqında qərar qəbul edib.

# Növbə problemli kreditlərin həllinə çatdı

## Prezidentin imzaladığı fərman minlərlə vətəndaşımızı kredit girovluğundan xilas edəcək

*Əvvəli 1-ci səh.*

İnanırdılar ki, hər zaman olduğu kimi, bu problemin aradan qaldırılmasında da dövlət başçısı vətəndaşların yanında olacaq.

Budur, Prezident “Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında” hamının gözlədiyi fərmanı imzalamışdır. Fərmanı heç vəchlə gecikmiş hesab etmək olmaz. Dəfələrlə sübut olunmuşdur ki, Prezident İlham Əliyev hər hansı bir problemin həlli ilə əlaqədar qərar verəndə heç vaxt tələsmir, məsələnin mahiyyətini, başvermə səbəbini dərindən öyrənir, təhlil edir, eləcə də aradan qaldırılması yollarını və mənbələrini araşdırır. Bu dəfə də belə olmuşdur. Fərmanın preambulasında yazılmışdır: “Son dövrdə respublikada makroiqtisadi sabitliyin təmin olunması, iqtisadi inkişaf templərinin bərpa edilərək artması və maliyyə imkanlarının genişlənməsi digər sahələr kimi, əhalinin xarici valyutada olan ödəmə vaxtı keçmiş kredit borclarının ödənilməsində də dövlət dəstəyi göstərilməsi üçün şərait yaratmışdır”.

Bəs bu yaranmış şərait xarici valyuta ilə banklara borcu olan, amma onu ödəyə bilməyən əhaliyə nə verəcək? Fərmanda bildirilir ki, qeyd olunan tarixlərə fiziki şəxslərin banklara 10 min ABŞ dollarınadək xarici valyutada olan əsas kredit borclarının devalvasiya ilə bağlı manatla artmış hissəsi aşağıdakı qaydada qiymətləndirilməklə bu fərman qüvvəyə mindiyi günə Mərkəzi Bankın elan etdiyi məzənnəyə uyğun olaraq dövlət büdcəsinin vəsaiti hesabına 3 aydan gec olmayaraq manatla ödəniləcək:

- 2015-ci il fevralın 21-nə xarici valyutada mövcud olan əsas kredit borcuna münasibətdə - 1 ABŞ dollarına 0,25 manat (0,15 ABŞ dolları) kimi;
- 2015-ci il fevralın 22-dən həmin il dekabrın 21-dək bağlanmış kredit müqavilələri üzrə xarici valyutada əsas kredit borcuna münasibətdə - 1 ABŞ dollarına 0,6 manat (0,35 ABŞ dolları) kimi;
- 2015-ci il fevralın 21-nə və dekabrın 21-nə mövcud olmuş xarici valyutada əsas kredit borclarına münasibətdə - bu fərmanın 1.1-ci və 1.2-ci bəndlərində qeyd olunan hər iki qaydada nəzərdə tutulduğu kimi.

Fərmanda daha sonra qeyd olunur ki, ödəniş ilk növbədə fiziki şəxslərin banklar və ləğvetmə prosesində olan banklar qarşısında ödəniş müddəti keçmiş əsas kredit borclarının ödənilməsinə yönəldiləcək, qalan məbləğ isə həmin fiziki şəxslərin sərəncamına veriləcək. Bir fiziki şəxsə ödəniləcək vəsaitin ümumi məbləği isə 5000 ABŞ dollarının ekvivalentindən çox olmayacaq.

Fərmanı şərh edən mütəxəssislər qeyd edirlər ki, güzəşt yalnız 10 min ABŞ dollarına qədər olan borclara aid ediləcək və 2015-ci ilin 21 fevral və 21 dekabr devalvasiya qərarları nəticəsində artmış məbləğlərin kompensasiyası ilə bağlı olacaq. Güzəşt üçün başlanğıc tarix 2012-ci il yanvarın 1-i, son tarix isə 2019-cu il fevralın 28-dir.

Mütəxəssislər bildirirlər ki, bu fərmanla vətəndaşların 10 min dollara qədər kreditlərinə görə hesablanmış bütün faiz borcları silinir. Həmçinin 2012-ci il yanvarın 1-dən 2015-ci il fevralın 21-dək olan kredit borclarının hər dollar üçün dövlət büdcəsindən 25, 2015-ci il fevralın 21-dən dekabrın əvvəlinədək verilən kreditlərin hər dolları üçün isə 60 qəpik vəsait ödənilir. Dövlət büdcəsi hesabına bu sxem üzrə kompensasiya ödəniş müddəti 360 günü üstələdiyi halda banklara ödənilir, həmin müddət keçmədiyi halda isə vətəndaşın özünə verilir.

Fərmana əsasən, devalvasiya nəticəsində borcun artan və hesablanmış faiz hissələri dövlət büdcəsindən ödəndikdən sonra yerdə qalan məbləğ restrukturizasiya ediləcək, yəni şərtlər dəyişdiriləcək. Bu o deməkdir ki, məsələn, 2015-ci ilin yanvarında vətəndaş 0.78 manat məzənnə ilə 5 min dollar borc götürüb. Həmin tarix üçün manatla borcu 3950 manat olmuşdusa, 2015-ci il dekabrın 21-də artıq həmin məbləğ 7750 manata çatmışdır. Belə vəziyyətdə məzənnə dəyişikliyi nəticəsində zərəri qarşılamaq üçün 5000 dollara görə 3000 manat (hər dollar üçün 60 qəpik) büdcə kompensasiyası ödənilir.

Fərmanda həmçinin nəzərdə tutulur ki, devalvasiya nəticəsində kreditin artan hissəsi ödənildikdən sonra yerdə qalan borcları ödəmək üçün vətəndaşlara bir il güzəşt müddəti olmaqla 5 illiyə illik 1 faizlə banklar tərəfindən kredit xətti açılacaq. Bunun üçün Azərbaycan Mərkəzi Bankı banklara illik 0,1 faizlə ümumi həcmi 682 milyon manat kredit verəcək.

Fərman təzə imzalanıb və bu səbəbdən, sözsüz ki, onun şərhi, əhəmiyyəti barədə çox yazılacaq, çox danışılacaq, mütəxəssislər öz fikirlərini bildirəcəklər. Lakin indidən demək olar ki, Prezidentin digər fərman və sərəncamları kimi, imzaladığı bu sənəd də sosial sifariş olaraq birbaşa əhalinin problemlərinin həllinə, deməli, həm də rifahının yüksəlməsinə, güzəranının yaxşılaşmasına və layiqli həyat səviyyəsinin təmin olunmasına xidmət edir. Bu fərmanla bir daha sübut olundu ki, Azərbaycan dövləti qarşısında onun vətəndaşının mənafeyindən üstün heç nə yoxdur.

***Raqif MƏMMƏDOV,***
***“Azərbaycan”***

# Sosial paketdən 3 milyona yaxın insan faydalanacaq

*Əvvəli 1-ci səh.*

Artıq problemli kredit məsələsi də həllini tapdı. Prezident fevralın 28-də bununla bağlı çox möhtəşəm, dünyada analoqu olmayan fərman imzaladı.

Dövlət başçısının problemli kreditlərə şəxsən toxunması, minlərlə insanı narahat edən məsələyə qayıtması böyük rəğbətlə qarşılanır, vətəndaşların öz dövlətinə olan güvəncini birə-on artırır. Bu addım bank strukturları ilə vətəndaşlar arasında mövcud olan narazılıqlara son qoyacaq, həm də bütövlükdə iqtisadiyyatımızın və Azərbaycan dövlətinin inkişafına təkan verəcək. Bu həm də əhalinin müxtəlif təbəqələrini birləşdirən vacib amilə çevrilir, bir daha iqtidar-xalq münasibətlərinin qırılmaz vəhdətini təsdiq edir. Bu tədbirlər həm iqtisadi, həm də psixoloji baxımdan böyük əhəmiyyət daşıyır.

Ekspertlər həmçinin belə qənaətə gəlirlər ki, sosial müavinətlərin artırılması əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində tədbirləri davam etdirməklə yanaşı, əhatə dairəsini də nəzərəçarpacaq dərəcədə genişləndirəcəkdir. Bu istiqamətdə daim müəyyən tədbirlər görülsə də, vacib qərarlar qəbul edilsə də, sonuncu paket mükəmməlliyi ilə seçilir.

Ölkə iqtisadiyyatında neqativ hallara qarşı aparılan geniş mübarizə, 300-ə yaxın vergi dəyişikliyinin olması, idarəetmə mexanizmlərindəki yeniliklər dövlətin maliyyə imkanlarını yaxşılaşdırır, vətəndaşların xeyrinə, sadə insanların rifah halının yüksəldilməsinə təkan verən qərarların qəbuluna maddi imkanlar yaradır.

Prezident İlham Əliyevin ötən 15 ili əhatə edən fəaliyyəti onu göstərir ki, o, sosial məsələlərin həllinə xüsusi qayğı ilə yanaşıb, aztəminatlı ailələrin yaşayış səviyyəsinin yaxşılaşdırılmasını daim diqqət mərkəzində saxlayıb, sosial sahəni əhatə edən bir sıra proqramların həyata keçirilməsinin təşəbbüskarı olub. Bu vaxta qədər məcburi köçkünlər üçün 100-dən çox şəhərcik tikilib. Şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə 6500-dən çox mənzil verilib və bu proses davam edir. 2019-cu il ərzində məcburi köçkünlərə daha 800 mənzilin verilməsi nəzərdə tutulub. Şəhid vərəsələrinə 11 min manat məbləğində birdəfəlik maddi yardımın verilməsi dövlət başçısının atdığı ən nəcib addımların sırasındadır.

Bu il dövlət başçısının böyük sosial paketin icrasına start verməsi, müavinətlərin artırılması ilə bağlı sonuncu sərəncamı onun həyata keçirilən sosial siyasətə sadiqliyinin bariz nümunəsidir.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Azərbaycan Prezidentinin sərəncamını şərh edərkən bu sənədin ümumilikdə 576,8 min nəfərə yönələn sosial müavinətlərin və Prezidentin aylıq təqaüdlərinin əhəmiyyətli dərəcədə artırılmasına, eləcə də həmin təqaüdlərin əhatə dairəsinin daha da genişləndirilməsinə xidmət etdiyini bildirib. Sərəncama uyğun olaraq, sosial müavinətin məbləğinin yaşa görə müavinət alanlar üçün 73 manatdan 130 manata, I qrup əlilliyə görə (ümumi səbəbdən əlillər üçün 82 manatdan, müharibə əlilləri üçün 101 manatdan, “Çernobıl AES-də hərbi xidmətlə əlaqədar” və “hərbi xidmət vəzifəsini yerinə yetirməklə əlaqədar” əlilliyi olanlar üçün 94 manatdan) 150 manata, II qrup əlilliyə görə (ümumi səbəbdən əlillər üçün 61 manatdan, müharibə əlilləri, “Çernobıl AES-də hərbi xidmətlə əlaqədar” və “hərbi xidmət vəzifəsini yerinə yetirməklə əlaqədar” əlilliyi olanlar üçün 81 manatdan) 130 manata, III qrup əlilliyə görə isə (ümumi səbəblərdən əlillər üçün 52 manatdan, müharibə əlilləri üçün 73 manatdan və “Çernobıl AES-də hərbi xidmətlə əlaqədar” və “hərbi xidmət vəzifəsini yerinə yetirməklə əlaqədar” əlilliyi olanlar üçün 61 manatdan) 110 manata, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar üçün 82 manatdan 150 manata, ailə başçısını itirməyə görə isə ailə üzvlərinin hər biri üçün 68 manatdan 80 manata çatdırılması nəzərdə tutulur.

Dövlət başçısının yeni sərəncamı ilə müharibə əlillərinə də Prezident təqaüdünün məbləğin I qrup əlilliyə görə 182 manatdan 250 manata, II qrup əlilliyə görə 158 manatdan 230 manata, III qrup əlilliyə görə 121 manatdan 210 manata çatdırılacaq.

Beləliklə, biz onun şahidi oluruq ki, Azərbaycanda sosial məsələlərin həlli istiqamətində həyata keçirilən siyasət müvəqqəti xarakter daşımır, əksinə, davamlı və prinsipial aparılan geniş güzəştlər sistemidir.

***Bahadur İMANQULİYEV,***
***“Azərbaycan”***

# Xalq gördüyünə inanır

Son illər Azərbaycanda sosial müdafiə sistemi uğurla yenilənir. Yeni islahatlar həyata vəsiqə alır. Dövlət siyasətinin mərkəzində sosial-iqtisadi inkişafı və onun vətəndaşlarının yüksək rifahı dayanır. İnsanların sosial müdafiəsinin son zamanlar hissolunacaq dərəcədə gücləndirilməsi aparılan islahatların məntiqi nəticəsidir. Xalq yaxşı bilir ki, ölkə Prezidentinin ali məqsədi xalqın rifahının daim yaxşılaşdırılması, vətəndaşları düşündürən, narahat edən problemlərin həll edilməsidir. Görülən işlər, həyata keçirilən məqsədyönlü siyasət, ölkə Prezidentinin əhalinin rifah halının yüksəlməsinə xidmət edən sosialyönümlü siyasəti xalq tərəfindən həmişə böyük rəğbətlə qarşılanır və yüksək qiymətləndirilir. Çıxışlarında “mənim siyasətimin mərkəzində mənim xalqım dayanır” deyən Prezident həyata keçirdiyi sosialyönümlü siyasətlə sözünə sahib çıxır. Ancaq gülüncdür ki, adını müxalifət qoyan üzdəniraq qüvvələr bütün bu işləri öz adlarına çıxmağa çalışırlar. Bir şeyi dərk etmirlər ki, Azərbaycan xalqı həmişə ağı qaradan seçməyi bacarır və bu gün də bunu nümayiş etdirir. Əvvəllər də mütəmadi olaraq əməkhaqları və sosial müavinətlər artırılmışdır və bu gün də artırılır, gələcəkdə də artırılacaqdır. Çünki ölkənin gəliri yüksəldikcə bu cür artımlar olacaqdır. Prezident İlham Əliyevin fevralın 25-də iqtisadi və sosial məsələlərlə bağlı müşavirədə söylədiyi fikirlər bunun tam təsdiqidir. İlin birinci ayının sosial-iqtisadi göstəriciləri deməyə əsas verir ki, aparılan islahatlar öz gözəl nəticələrini verir. 2018-ci il dərin iqtisadi islahatlar ili olub, xüsusilə son 1 ildə islahatların yeni mərhələsinə başlanılıb və bu, davam etməkdədir. 2017-ci ildə iqtisadi sabitliklə bağlı çox önəmli addımlar atıldı. Bu sabitlik imkan verdi ki, hökumət 2018-ci ildə çox ciddi islahatlara başlasın və islahatlar özünü göstərdi. Son 2-3 il ərzində qeydə alınan yüksək iqtisadi göstərici onu göstərir ki, 2019-cu ildə Azərbaycanda iqtisadi artım yüksək templə müşahidə olunacaq.

Qısa zaman ərzində böyük sosial paketin tərkib hissəsi kimi minimum əməkhaqlarının, pensiyaların, tələbələrin təqaüdünün artırılmasında, digər ödənişlərin verilməsində mühüm qərarlar verildi və konkret addımlar atıldı. 600 min vətəndaşın minimum əməkhaqqı 130 manatdan 180 manata qədər artırıldı, şəhid ailələrinin müavinətləri 242 manatdan 300 manata çatdırıldı, eyni zamanda bu il ərzində şəhid ailələrinə 800 mənzil verilməsi nəzərdə tutulur. Uzun illər vətəndaşları narahat edən vaxtilə tikilmiş və hansısa səbəblərə görə rəsmi olaraq qəbul edilməmiş çoxmənzilli binaların sənədləşməsi məsələsi də ölkə Prezidentinin imzaladığı fərmanla həllini tapdı.

Əhalinin əsas hissəsini narahat edən problemli kreditlərin də həllinin vaxtı çatdı. Prezident bu məsələ ilə bağlı tarixi fərman imzaladı. 28 fevralda imzalanan bu fərman 800 min nəfəri əhatə edəcək, onları problemli kreditlərin girovundan azad edəcək.

Bundan başqa, vətəndaşların əsas hissəsini əhatə edən sosial müavinətlərin əhəmiyyətli dərəcədə artırılması xalq tərəfindən yüksək qiymətlənidirilir. Prezidentin “Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında” sərəncamı 100 minlərlə insanın gəlirinin hədsiz artmasına səbəb oldu. Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycanda dövlət siyasətinin əsas məqsədi xalqın sosial rifahının daha da yaxşılaşması və onların ailə gəlirlərinin artırılmasıdır. Bu kimi addımlar həm də xalq-iqtidar birliyinin bariz nümunəsidir. Təbii ki, bunları həzm edə bilməyən qüvvələr bundan sonra daha da aqressivləşəcək və bu bağı qırmağa cəhd edəcəklər. Amma Azərbaycana tarixinin ən qüdrətli dövrünü yaşadan Prezident İlham Əliyevin bu ölkəni daha böyük zəfərlərə doğru aparmasına mane olmağa çalışanlar bir şeyi unudurlar ki, dövlətin və Prezidentin ən böyük dayağı elə xalqdır. Xalqın gözü isə tərəzidir. İndi xalq meydanlarda populist çağırışlara deyil, həyatın reallığına inanır.

***Vüsal MİRZƏYEV,***
***YAP Ağdam rayon təşkilatı***
***Gənclər Birliyinin sədr müavini***

## Dövlət başçısına minnətdarlıq

# Müəllim ailəsinin sevinci



2019-cu il başlayandan Prezident İlham Əliyev əhalinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı çoxsaylı sərəncamlar imzalamışdır. Qısa vaxt ərzində elə bir sahə qalmadı ki, orada əhalinin həyat səviyyəsinin yüksəldilməsi üçün müəyyən addımlar atılmasın. Fevralın 26-da isə dövlət başçısı məcburi köçkünlərə verilən müavinətlərin artırılması ilə bağlı daha bir sərəncam imzaladı.

Bu artımdan yararlanacaq məcburi köçkünlərdən biri Musa Əzizdir. O, uzun illər Kəlbəcər rayonunun Başlıbel kəndindəki orta məktəbdə müəllim işləyib. Rayon qəzetində məqalələrlə də çıxış edib. Kənddə hamı onu fəal insan kimi tanıyıb. Rayon tədbirlərində iştirak edib. Qarabağ müharibəsi başlayanda o da silaha sarılaraq torpaqlarımızın müdafiəsinə qalxıb. Lakin ovaxtkı respublika rəhbərlərinin səriştisizliyi və vəzifə uğrunda gedən daxili çəkişmələr Kəlbəcərin də işğalına səbəb olub. 1993-cü ilin aprel ayının 2-də rayon işğal olunduqdan sonra Musa müəllim də məcburi köçkün düşüb və ailəsi ilə birlikdə Gəncəyə pənah gətirib. Gəncə Dövlət Universitetinin tələbə yataqxanasında məskunlaşıb. Ailə üzvləri ilə birlikdə 20 il orada yaşayıb.

Prezident İlham Əliyevin məcburi köçkünlərə göstərdiyi qayğı nəticəsində Gəncədə salınmış qəsəbədə yeni mənzillə təmin olunub. Həmin qəsəbədə oğlu Gündüzə də ayrıca mənzil verilib. Bacısı Marağa, xalası qızı Kifayət də mənzillə təmin olunublar. Dolanışıqları da pis deyil. Hər ay məcburi köçkün statusu ilə müavinət alırlar. Dövlət başçısının “Məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün vahid aylıq müavinətin artırılması haqqında” imzaladığı sərəncam digər məcburi köçkün ailələrində olduğu kimi, Musa müəllimin ailəsində də razılıqla qarşılanıb.

Musa Əzizlə söhbət zamanı dedi ki, bir problemimiz var. O da Dağlıq Qarabağdır. Biz əminik ki, bu məsələ də öz həllini tapacaq. Çünki iqtisadiyyatımız yüksəldikcə ordumuz da güclənir. Əgər münaqişəni sülh yolu ilə həll edə bilməsək, ordumuz torpaqlarımızı düşməndən azad edəcək.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***

# Hər kəsin sevimlisi idi

Dünyaya 1970-ci ildə Zəngilan rayonunun Alıbəyli kəndində göz açan Vüqar Abbasov ailənin yeddi övladının beşincisi idi. 1987-ci ildə Alıbəyli kənd orta məktəbini bitirib kolxozda əmək fəaliyyətinə başlamış, bir il sonra sovet ordusu sıralarına hərbi xidmətə çağırılmışdı. Daxili qoşunlarda xidmət zamanı özünü hər cəhətdən yaxşı göstərmiş və buna görə 6 ay sonra məzuniyyətə buraxılmışdı. Hərbi xidməti başa vurub yenə kəndə qayıtmışdı...

Qarabağ savaşı başlayandan bir qədər sonra qardaşına deyir ki, anam bilməsin, döyüşə gedirəm. Bacısı bu xəbəri eşidib anasına çatdıranda ana deyir ki, o getməyib kim gedəcək ki, qoy getsin...

Vüqar rayonda yaradılan batalyonun tərkibində döyüşlərdə hünər göstərir. Yaşadığı ərazini yaxşı tanıdığı üçün dəfələrlə ermənilərin Alıbəyliyə hücumlarının qarşısının alınmasında iştirak edir. Şükrətaz yüksəkliyini tutmağa çalışan 20 nəfərə yaxın erməninin qarşısını təkbaşına kəsir. Bu hünərinə görə ona bir neçə günlüyə məzuniyyət verirlər. Bir müddətdən sonra cəbhəyə qayıdıb düşmən qarşısına çıxır.

1993-cü il aprelin 10-da Kolluqışlaq kəndinə hücum edən ermənilərlə aparılan qeyri-bərabər döyüşdə qəhrəmancasına həlak olur. Onu Zəngilan rayonundakı Şəhidlər xiyabanında torpağa tapşırırlar.



Respublikamızın ərazi bütövlüyü uğrunda həlak olmuş şəhid ailələrinə Azərbaycan Prezidentinin 2018-ci il 19 aprel və 2019-cu il 28 yanvar tarixli fərmanlarına uyğun olaraq hərbi qulluqçuların ailələrinə 11 min manat verilməsi Abbasovlar ailəsi tərəfindən də rəğbətlə qarşılanmışdır. Şəhidin bacısı Xanım, qardaşı Zabit dedilər ki, bu, dövlət başçısı tərəfindən şəhid ailələrinə göstərilən yüksək qayğının daha bir təzahürüdür. Biz inanırıq ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ordumuz Qarabağı işğaldan azad edəcək, üçrəngli bayrağımız o torpaqlarda da dalğalanacaq, məcburi köçkünlərimiz, o cümlədən biz doğma yurd-yuvamıza qayıdacağıq.

***Akif ƏLİYEV,***
***“Azərbaycan”***

# Dövlətin dəstəyini daim hiss edirik

Azərbaycan Prezidenti son günlər tələbə-gənclərin həyatında mühüm əhəmiyyəti olan daha bir sənəd imzalayıb ki, bu da onlara dövlət dəstəyinin bariz nümunəsidir. Tələbələrin təqaüdlərinin artırılması nəinki onlara sosial dəstək anlamı verir, bu, həm də gəncliyin elm və təhsildə sağlam rəqabətin daha yeni formasına keçidini təmin edir.



Elə gənclik də dövlət başçısına dərin rəğbətini müxtəlif formada həmişə göstərir. Prezident İlham Əliyev həyata keçirdiyi uğurlu dövlət gənclər siyasətinə, gəncliyə göstərdiyi yüksək diqqət və qayğıya görə 2016-cı ildə “İlin adamı” adına layiq görüldü. Bu gün də Azərbaycan gəncliyi Prezident İlham Əliyevin yürütdüyü siyasəti birmənalı şəkildə dəstəkləyir və dövlət başçısını özünün ən böyük himayədarı hesab edir.

Radikal müxalifətin kiçik bir qrupunun Azərbaycan gəncliyi adından danışmağa haqqı yoxdur. Onlar inkişafda olan dövlətimizə xaricdən təsir göstərməyə çalışan antiazərbaycançı şəbəkənin əlində, sadəcə, oyuncağa çevrilənlərdir. Biz tələbə-gənclər onların saxta çağırışlarını, boş hay-küylərini eşitmir və məhəl qoymuruq. Sosial şəbəkələrdə savadsızcasına yazılan şər-böhtanların müəlliflərini qətiyyətlə pisləyir və avantüraya nifrət edirik.

Biz gənclər daim dövlətin dəstəyini öz üzərimizdə hiss etdiyimizə görə bilik və bacarığımızla respublikamızın inkişafına töhfəmizi verəcəyik. Bunun üçün bizə hər cür qayğı göstərən ölkə rəhbərinin yanındayıq və ona gəncliyə olan diqqətinə görə minnətdarlığımızı bildiririk.

***Aynur ƏSGƏROVA,***
***Bakı Slavyan Universitetinin***
***Tərcümə fakültəsinin IV kurs tələbəsi***

# Qayğı bizə yüksək ruh verir

Müxtəlif təbəqələrdən olan insanların sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində atılan addımlar məni də sevindirir. Sosial müdafiəyə ehtiyacı olan digər insanlar da ölkəmizin müharibə vəziyyətində olmasına, silahlanmaya milyardlarla vəsaitin sərf edilməsinə baxmayaraq, vətəndaşların da dövlət dəstəyi ilə əhatə olunmalarından məmnundurlar.

Bir tərəfdən dövlətimiz qüdrətli orduya sahiblənir, digər tərəfdən də vətəndaşların güzəranı yaxşılaşır və cəmiyyət üçün daha layiqli gənclərin yetişməsinə şərait yaranır. Bu da, sözsüz ki, ölkəmizin dayanıqlı iqtisadiyyata və daima xalqını düşünən rəhbərə malik olmasından qaynaqlanır.

Mən II qrup Qarabağ müharibəsi əliliyəm. Qarabağ müharibəsində bölük komandirinin təlim-tərbiyə işləri üzrə komandir müavini vəzifəsində vətənə xidmət etmişəm. Müasir Azərbaycanın memarı, ulu öndər Heydər Əliyevin apardığı daxili və xarici siyasət nəticəsində 1994-cü ilin may ayında müharibədə atəşkəsə nail oundu. Ali Baş Komandan İlham Əliyevin ümummilli liderin siyasətini davam etdirməklə bərabər, şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə və Qarabağ müharibəsi veteranlarına daim diqqət və qayğı göstərir. Son zamanlar şəhid ailələrinə 11 min manat birdəfəlik yardımın verilməsi, şəhid ailələrinin Prezident təqaüdlərinin 300 manata çatdırılmasını da sevinclə qarşılamışdır.

Prezidentin əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında 25 fevral 2019-cu il tarixində imzaladığı sərəncam Qarabağ müharibəsi əlillərinə, veteranlara qayğının daha bir təzahürüdür. O da sevindiricidir ki, həmin sərəncam digər təbəqələri təmsil edən on minlərlə insanı əhatə edir. Həm maddi rifah halımızın yüksəlməsinə, həm də mənəvi dəstəyə görə Ali Baş Komandan İlham Əliyevə dərin minnətdarlığımızı bildirirəm.

***Kamil DADAŞOV,***
***II qrup Qarabağ müharibəsi***
***əlili, İsmayıllı şəhər sakini***

# Minlərlə ailə sevindi

Prezident İlham Əliyev 2019-cu ildə əhalinin sosial müdafiəsi baxımından mühüm dəyişikliklər olacağını bəyan etdi. Dövlət başçısının cari ilin əvvəlindən bu sahədə atdığı bütün addımlar biz sadə vətəndaşlar tərəfindən sevinclə qarşılanır.

Minimum əməkhaqqının və aşağı pensiya alanların pensiyalarının artırılması, onların indeksləşdirilməsi biz təqaüdçülərin sosial vəziyyətinin yaxşılaşmasına xidmət edir. Dövlət başçısı tərəfindən minimum əməkhaqqının, təqaüdlərin və digər sosial müavinətlərin artırılması vətəndaşlar tərəfindən rəğbətlə qarşılandı. Bu, dövlətin öz vətəndaşına sahib çıxması, onun problemlərinin həllini qarşıya məqsəd qoymasından irəli gəlir.

Pensiyaçıyam. Evimin təmiri ilə bağlı 4 min ABŞ dolları məbləğində kredit götürmüşdüm. Baş verən devalvasiya nəticəsində həmin kreditin ödənilməsində çətinliklərlə qarşılaşdım. Cənab Prezidentin 28 fevral 2019-cu ildə imzaladığı “Azərbaycan Respublikasında fiziki şəxslərin problemli kreditlərinin həlli ilə bağlı əlavə tədbirlər haqqında” fərman bizə bu çətinlikdən çıxmağa kömək edir. Həmin fərman tək bizim ailəmizi yox, minlərlə bizim vəziyyətdə olan ailələri də sevindirdi. Buna görə dövlət başçısına bir daha dərin minnətdarlığımızı bildiririk.

***Səkinə ƏLİYEVA,***
***Bakı şəhəri***

# Azərbaycan BMT məkanında

## Ölkəmizin bu mötəbər quruma üzv qəbul olunmasından 27 il ötür

Bu gün Azərbaycanın BMT-yə üzv qəbul olunmasının 27-ci ili tamam olur. BMT Baş Məclisinin 1992-ci il martın 2-də keçirilən 46-cı sessiyasında Azərbaycan Respublikasının BMT-nin üzvlüyünə qəbul olunması barədə qətnamə qəbul edildi. BMT-nin tamhüquqlu üzvlüyünə qəbul olunmaqla Azərbaycan ilk növbədə beynəlxalq səviyyədə özünün maraq və mənafelərini müdafiə etmək üçün əlverişli tribuna qazandı.



### Azərbaycan beynəlxalq diqqəti Dağlıq Qarabağ münaqişəsinə yönəltdi

1992-ci ilin həmin tarixində ermənilər Azərbaycan ərazilərində hərbi əməliyyatları intensivləşdirmiş, Malıbəylidə, Xocalıda dinc azərbaycanlı əhalinin soyqırımını həyata keçirmişdilər. Belə bir vaxtda respublikamız BMT-yə üzv qəbul olunmaqla ilk növbədə informasiya blokadasının yarılması, Dağlıq Qarabağda baş verənlərlə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması üçün mühüm platforma qazandı. Bu təşkilatla əməkdaşlığa başlayandan sonra respublikamız onun platformasından beynəlxalq ictimaiyyətin diqqətini Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə cəlb etdi, BMT-nin potensial imkanlarından istifadə etməklə problemin ədalətli həllinə çalışdı. 1993-cü il ərzində BMT Təhlükəsizlik Şurası Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair 822, 853, 874 və 884 saylı qətnamələr qəbul etdi. Bu qətnamələrdə Dağlıq Qarabağ və digər ərazilərin işğalı göstərildi, erməni hərbi birləşmələrinin Azərbaycan torpaqlarından dərhal çıxarılması tələb olundu.

Ulu öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra ölkəmizin BMT tribunasından daha səmərəli yararlanması diqqəti cəlb edir. Məhz Heydər Əliyevin sayəsində Azərbaycan BMT platformasından beynəlxalq ictimaiyyətin diqqətini Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə daha çox cəlb etməyə başladı. 1994-cü ilin sentyabrında BMT Baş Məclisinin iclasında nitq söyləyən Heydər Əliyev bu tribunadan Azərbaycanın haqq səsini dünyaya çatdırdı, Ermənistanın ölkəmizə qarşı təcavüzünü və onun ağır nəticələrini beynəlxalq aləmə bəyan etdi. 1995-ci ilin oktyabrında BMT-nin 50 illik yubileyi ilə bağlı keçirilən BMT Baş Məclisinin xüsusi təntənəli iclasında iştirak edən Heydər Əliyev bu qurumun yüksək kürsüsündən mövcud qlobal problemlərə dair Azərbaycanın prinsipial mövqeyini açıqladı, xüsusilə Ermənistanın təcavüzünün aradan qaldırılması ilə bağlı beynəlxalq səylərin artırılmasına çağırdı. Heydər Əliyev 2000-ci ilin sentyabr ayında BMT-nin Minillik Zirvə Toplantısında çıxışında da qlobalizasiya mövzusuna toxundu, həmçinin Cənubi Qafqazda təhlükəsizlik məsələlərinə Azərbaycanın verdiyi töhfələri xüsusilə qeyd etdi.

Prezident İlham Əliyev xarici siyasətdə BMT ilə əlaqələrin inkişafına mühüm önəm verir. Hələ 2003-cü ilin sentyabrında cənab İlham Əliyev Baş nazir statusunda BMT Baş Məclisinin sessiyasında iştirak etmiş, milli sosial-iqtisadi inkişaf, regional və beynəlxalq təhlükəsizliyə qarşı təhdidlərlə bağlı fikirlərini açıqlamışdı. BMT Baş Məclisinin 2004-cü ilin sentyabrında keçirilən 59-cu sessiyasında çıxış edən Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamənin hələ də yerinə yetirilmədiyini bəyan etmiş və onların həyata keçirilməsinin işlək mexanizminin yaradılmasını ümdə məsələ kimi irəli sürmüşdü.

Həmin il oktyabrın 29-da BMT Baş Məclisinin sessiyasında Azərbaycan nümayəndə heyətinin təşəbbüsü ilə "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı məsələ iclasın gündəliyinə salındı. Daha sonra BMT Baş Məclisinin 2006-cı il sentyabrın 7-də keçirilən 60-cı sessiyasının 98-ci plenar iclası və 2008-ci il martın 14-də keçirilən 62-ci sessiyanın 86-cı plenar iclasında "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" adlı qətnamələr qəbul edildi. Bu sənədlərdə Azərbaycanın işğal olunmuş ərazilərində ermənilərin məskunlaşdırılması, həmin ərazilərdə yanğınların törədilməsi pislənilir, Təhlükəsizlik Şurasının məlum 4 qətnaməsinə istinad edilməklə erməni silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılması tələb olunur. Bununla yanaşı, qətnamələrdə Azərbaycanın suverenliyi, ərazi bütövlüyünə hörmət ifadə olunur, eləcə də öz torpaqlarından qovulmuş azərbaycanlıların doğma yurdlarına qayıtmaq hüququ bir daha təsdiqlənir.

2010-cu ilin sentyabrında BMT Baş Məclisinin 65-ci sessiyasında iştirak edərək dərin məzmunlu nitq söyləyən Prezident İlham Əliyev diqqəti bir daha Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə cəlb etmişdir.

### Bütün sahələrdə səmərəli əməkdaşlıq formalaşıb

Azərbaycan Respublikası BMT-nin bir çox xüsusi qurum və orqanları ilə fəal və səmərəli əməkdaşlıq edir. Onların sırasında BMT-nin İnkişaf Proqramı (BMTİP), BMT-nin qaçqınlar üzrə ali komissarı, BMT-nin Uşaq Fondu, BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı, Sənaye İnkişaf Təşkilatı, Dünya Səhiyyə Təşkilatı, BMT-nin Qadınlar Fondu, Atom Enerjisi üzrə Beynəlxalq Agentlik, Nüvə Sınaqlarının Hərtərəfli Qadağan olunması haqqında Müqavilə Təşkilatı və s. qeyd etmək olar. Təhsil, elm və mədəniyyət məsələlərinin vacibliyini nəzərə alaraq, Azərbaycan Respublikası BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı (UNESCO) ilə geniş əməkdaşlıq edir və bu məqsədlə Azərbaycanın UNESCO-nun nəzdində Milli Komissiyası təsis edilib.

Azərbaycan BMT-nin müvafiq orqan və qurumlarına öz namizədlərini irəli sürməklə bu orqanlara seçkilərdə aktiv iştirak edir. Respublikamız 1995-1997, 1998-2000-ci illər ərzində UNICEF-in İcra Heyətinin, 2000-2002-ci illər ərzində Qadınların vəziyyəti haqqında Komissiyanın və 2002-2004-cü illər ərzində BMT-nin Davamlı İnkişaf üzrə Komissiyasının üzvü olmuşdur. Azərbaycan 2003-2005-ci illər üçün BMT-nin İqtisadi və Sosial Şurasının (ECOSOC) üzvü seçilib.

### Azərbaycan BMT Təhlükəsizlik Şurasında

2011-ci ildə Azərbaycanın həm beynəlxalq, həm də BMT-dəki diplomatik uğurları sırasına mühüm əlamətdar hadisə əlavə olundu. Həmin il oktyabrın 24-də BMT Baş Məclisinin plenar iclasında gizli səsvermənin nəticələrinə görə Azərbaycan bu mötəbər təşkilatın Təhlükəsizlik Şurasına (TŞ) üzv seçildi. Bu möhtəşəm hadisə dövlət müstəqilliyimizin bərpasının 20-ci ildönümünə təsadüf etdiyi üçün cəmiyyətimizin xoş ovqatını daha da yüksəltdi. Bu münasibətlə xalqımızı təbrik edən Prezident İlham Əliyev Azərbaycanın BMT TŞ-yə üzv seçilməsini tarixi nailiyyət kimi qiymətləndirdi.

Azərbaycan Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda BMT TŞ-nin üzvü seçilən ilk ölkə olmuşdur. Bununla yanaşı, Azərbaycanın BMT TŞ-nin üzvü olarkən ən mühüm müvəffəqiyyəti 2012-ci ilin may ayında, BMT TŞ-yə sədrlik etdiyi dövrdə terrorçuluğa qarşı mübarizəyə dair öhdəliyin təmin olunması yolu ilə beynəlxalq əməkdaşlığın gücləndirilməsi mövzusunda yüksəksəviyyəli konfransın keçirilməsi idi. Bu, Azərbaycanın diplomatiya tarixində əldə edilmiş ən böyük nailiyyətlərindən biri olmaqla ölkəmizin beynəlxalq aləmdə çəkisinin artması, dünya siyasətindəki müxtəlif qlobal problemlərin müzakirəsinə cəlb olunması, regional siyasətlə yanaşı, dünya siyasətinin də əsas aktorlarından birinə çevrilməsi demək idi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin başçılıq etdiyi konfransda BMT-nin Baş katibi Ban Ki Mun və Təhlükəsizlik Şurasının digər yüksəksəviyyəli nümayəndələri iştirak edirdilər.

Azərbaycan BMT TŞ-yə üzvlüyü və sədrliyi dövründə üzərinə düşən vəzifələri layiqincə yerinə yetirdi, iki il ərzində dünyada sülh və təhlükəsizliyin təmin olunması istiqamətində səylərini davam etdirdi. Ölkəmiz beynəlxalq hüquq normalarının və ədalətin müdafiəsinə çalışdı, TŞ-yə sədrliyi zamanı sülh və beynəlxalq təhlükəsizliyə dair qlobal, yaxud regional əhəmiyyətli məsələlərin gündəliyini müəyyənləşdirdi. Təbii ki, Azərbaycanın bütün məsələlərlə bağlı özünün mövqeyi var idi. Digər tərəfdən, Azərbaycanın BMT TŞ-də fəaliyyəti ərzində diplomatiyamızın səyləri dövlətimizin mili maraqlarının qlobal səviyyədə genişləndirilməsinə yönəldi. Terrordan və işğaldan əziyyət çəkmiş ölkə kimi Azərbaycan beynəlxalq sülh və təhlükəsizliyə yaradılan təhdidləri, o cümlədən Ermənistanın təcavüzkar siyasətini daim gündəmdə saxladı.

### İlham Əliyevdən Ermənistana növbəti diplomatik zərbə

Azərbaycan Prezidentinin 2017-ci il sentyabrın 20-də Nyu Yorkda BMT Baş Assambleyasının 72-ci sessiyasının açılışında etdiyi çıxış ölkəmizin Ermənistana növbəti siyasi-diplomatik zərbəsi kimi tarixə düşdü. Bununla həm də Ermənistanın beynəlxalq səviyyədə ifşası istiqamətində növbəti uğurlu addım atıldı. Prezident İlham Əliyev çıxışında öncə Ermənistanın işğalçılıq siyasətindən və BMT-nin qərarlarının hələ də icra olunmamasından bəhs etdi. Prezidentin xüsusi vurğuladığı məqam isə Ermənistan prezidentini hərbi kriminal adlandırması idi. Tam yerinə düşən bu ifadə o zaman Ermənistana rəhbərlik edən S.Sarkisyanın terrorçu mahiyyətini bütün incəliklərinə qədər ifadə etdi. Ən əsası isə ondan ibarətdir ki, Ermənistan hakimiyyəti S.Sarkisyanın hərbi cinayətkar olduğunu heç vaxt təkzib edə bilmədi.

Azərbaycan bu gün bir çox mötəbər təşkilatların üzvü olmaqla onların işində yaxından iştirak edir. Belə təşkilatlardan biri olan BMT ilə səmərəli əməkdaşlıq Azərbaycanın beynəlxalq əlaqələrinin inkişafında mühüm rol oynamaqla yanaşı, respublikamızın dünya miqyasında nüfuzunun möhkəmlənməsinə, imicinin yüksəlməsinə yol açır. Diqqəti çəkən məqam həm də odur ki, Azərbaycanın mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun inkişafına, multikulturalizm dəyərlərinin yayılmasına göstərdiyi təşəbbüslər BMT tərəfindən ən yüksək səviyyədə dəstəklənir. Bütün bunlar Azərbaycanın BMT-nin nüfuzlu üzvü olmasından xəbər verir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycan bütün dünyada etibarlı tərəfdaş kimi tanınır

*Əvvəli 1-ci səh.*

Belə ki, AÇG üzrə sazişin müddəti əsrin ortalarına - 2049-cu ilin sonunadək uzadıldı və bu zaman layihənin tərəfdaşları eyni olaraq qaldı. Bu da Azərbaycanın yaratdığı mükəmməl tərəfdaşlıq formatının daha bir mühüm nümunəsidir.

AÇG-dən sonra Azərbaycan beynəlxalq şirkətlərlə əməkdaşlıq şəraitində Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum kimi möhtəşəm kəmərlər inşa etdi. "Şahdəniz" qaz-kondensat yatağı işlənməyə başladı. Prezident İlham Əliyev beynəlxalq əməkdaşlıqdan bəhs edərkən diqqəti Azərbaycan enerji siyasətinin tarixinə yönəldərək demişdir: "Bu regional və daha sonra beynəlxalq əməkdaşlığın yaranmasında iki mühüm mərhələ oldu. Regional əməkdaşlığa gəldikdə, bu regionda üç ölkə - Azərbaycan, Gürcüstan və Türkiyə uzun illərdir ki, uğurla əməkdaşlıq edir və bu üç ölkə dəhlizlər yaratmağa müvəffəq olmuşdur. Bu, ən vacib olan məsələ idi. Xəzər dənizini Qara dənizlə bağlayan neft kəmərləri mövcud deyildi. Biz ilk olaraq buradan Gürcüstanın Qara dəniz sahillərinədək uzanan Bakı-Supsa neft kəmərini inşa etdik. Daha sonra Azərbaycan, Gürcüstan və Türkiyəni birləşdirən Bakı-Tbilisi-Ceyhan əsas neft kəməri və nəhayət, Bakı-Tbilisi-Ərzurum qaz kəməri inşa edilmişdir".

Məhz bu kəmərlər Azərbaycanın daha qlobal bir layihənin - "Cənub qaz dəhlizi"nin təşəbbüskarı və lideri olmasına zəmin yaratdı. Hazırda bu layihədə 7 ölkə - Azərbaycan, Gürcüstan, Türkiyə, Yunanıstan, Albaniya, Bolqarıstan və İtaliya iştirak edirlər. Azərbaycan Bosniya və Herseqovina, Xorvatiya və Monteneqro ilə də Avropada enerji sahəsində əməkdaşlığın genişləndirilməsinə dair anlaşma memorandumu imzalayıb.

Ölkəmizin yaratdığı mükəmməl əməkdaşlıq və tərəfdaşlıq formatı Bakıdan, Xəzərin sahilindən başlayaraq neçə-neçə ölkənin ərazisindən və Adriatik dənizinin altından keçib İtaliya torpağına çıxan 3500 kilometrlik dəhlizin çəkilişinin müvəffəqiyyətlə sona yaxınlaşmasına imkan verib. Başqa sözlə, "Cənub qaz dəhlizi"nin üç seqmenti istifadəyə verilib və artıq fəaliyyətdədir. "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsi işə düşüb. Qazı Azərbaycanın və Gürcüstanın ərazisi ilə daşıyan Cənubi Qafqaz Boru Kəməri genişləndirilib. Türkiyədə 1900 kilometr məsafə boyu uzanan və "Cənub qaz dəhlizi"nin "onurğa sütunu" adlandırılan TANAP (Transanadolu Qaz Boru Kəməri) vasitəsilə indiyədək 1 milyard kubmetr mavi yanacaq nəql olunub.

Gələn il TAP (Transadriatik Qaz Boru Kəməri) Azərbaycan qazını TANAP-dan qəbul edərək Avropaya çatdıracaq. Hazırda TAP-ın çəkilişi də davam edir və kəmərin tikintisində işlərin 87 faizdən çoxu tamamlanıb.

Uğurlu enerji layihələri Azərbaycanı dünyada etibarlı tərəfdaş kimi tanıtdı. İndi hamı çox yaxşı bilir ki, Azərbaycan xarici investisiyaları 100 faiz qoruyan ölkədir. Bu sahədə bağlanan bütün müqavilələr Azərbaycan parlamenti tərəfindən ratifikasiya olunur və bundan sonra qüvvəyə minir. İnvestorlar həmin müqavilələrdə bir sözün belə dəyişdirilməyəcəyinə əmindirlər. Odur ki, indiyədək Azərbaycana yatırılmış 250 milyard dollarlıq ümumi investisiyanın yarısı xarici sərmayələrdir. Deməli, ölkəmiz yaxşı biznes mühiti yaratmağa nail olub və bu baxımdan dünyada ön yerlərdən birini tutur.

Avropa Komissiyasının büdcə və insan resursları üzrə komissarı, "Cənub qaz dəhlizi" Məşvərət Şurasının fəaliyyətdə olan həmsədri Günter Ottinger də Azərbaycanın etibarlı tərəfdaş olduğunu və əməkdaşlıq əlaqələrini təkcə enerji sektorunda deyil, digər sahələrdə də genişləndirdiyini qeyd edib.

Bu əməkdaşlıq və tərəfdaşlıq hamıya - həm istehsalçı, həm istehlakçı və tranzit ölkələrə, həm də sözügedən layihələri həyata keçirən şirkət və qurumlara, bütün iştirakçılara fayda gətirir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Elm xadimləri

Türkiyənin Ankara şəhərində fəaliyyət göstərən Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyası türkdilli dövlətlərdə müəyyən sahələrdə böyük işlər görmüş insanları layiq olduqları mükafatlarla təltifləndirirlər. Bu günlərdə daha bir sevindirici xəbər aldıq. Müstəqil Azərbaycan Respublikası səhiyyəsinin inkişafında böyük xidmətlərini nəzərə alaraq həkim, alim, səhiyyə təşkilatçısı Kamran Aslanov Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının fəxri professoru seçildi və Beynəlxalq Qızıl Ulduz medalı ilə təltif olundu.



# Əməyə verilən dəyər qürur doğurur

### Peşəyə sevgi və məsuliyyət...

Hər yüksək mükafat, fəxri ad uzun illərin gərgin əməyinin nəticəsidir. Kamran Aslanov da əlli beş ildir ki, Azərbaycanda stomatologiya sahəsində çalışır. Bu illərin uğurları çoxdur. Kamran Aslanov Səhiyyə Nazirliyinin baş stomatoloqu, tibb elmləri üzrə fəlsəfə doktoru, respublika Stomatoloji Mərkəzinin direktoru, Azərbaycan Özəl Stomatoloji Fəaliyyətlə Məşğul Olanların Assosiasiyasının prezidentidir. Nailiyyətlərinin hər biri öz peşəsinə sevgisinin, bilik və bacarığını ona üz tutanlardan heç vaxt əsirgəməməsinin bəhrəsidir.

1943-cü ilin sentyabrında Bakıda dünyaya gələn Kamran Aslanov həkim olmağın məsuliyyətini uşaqlıq illərindən bilib. İxtisasca həkim olan ata-anasının bu peşəyə sevgi ilə bərabər, böyük məsuliyyətlə yanaşdıqlarını görüb. Valideynlərinin müqəddəs saydıqları bu sənəti özünə doğma bilərək seçdiyini deyir: "Bakının Səbail rayonunda yerləşən məşhur bir məktəb var - 7 saylı orta məktəb... Məzunları arasında görkəmli şəxsiyyətlər çoxdur. 1960-cı ildə həmin məktəbdə orta təhsilimi başa vurdum. Azərbaycan Tibb İnstitutunun (indiki Azərbaycan Tibb Universiteti) Stomatologiya fakültəsinə daxil oldum. 1965-ci ildə təhsilimi başa vurdum".

1966-cı ildən stomatoloq-həkim kimi Bakıdakı 2 saylı stomatoloji poliklinikada əmək fəaliyyətinə başlayıb. Həmin vaxtdan da bu sahədə çalışır. İllər boyu qazandığı təcrübə, oxuyub-öyrəndiyi bilik və bacarığını artırdıqca, ona həvalə edilən vəzifələr dəyişdikcə, daha da yüksəldikcə üzərinə düşən məsuliyyətin böyüklüyünü dərindən hiss edib. Gənc yaşlarından rəhbər vəzifələrə irəli çəkilən Kamran Aslanov ona etibar edilmiş bütün işlərdə etimadı doğrultmağa çalışıb.

Tibb elminin bütün sahələri kimi, stomatologiyada da hər zaman peşəkarlara ehtiyac var. Bu sahədə tanınmaq isə hər həkimə müyəssər olmur. Kamran Aslanov isə buna nail olub. O, əmək fəaliyyətinə başladığı poliklinikada tanınmağa başlayıb. Orada on ilədək həkim-stomatoloq və şöbə müdiri işləyib. 1976-cı ildə Bakı şəhər 1 saylı stomatoloji poliklinikanın baş həkim müavini, 1979-cu ildən baş həkimi vəzifəsində çalışıb. 1982-ci ildən 4 saylı stomatoloji poliklinikanın baş həkimi işləyib.

1986-cı ildə Respublika Stomatoloji Mərkəzinin direktoru təyin olunan Kamran Aslanov bu vəzifədə indiyədək çalışır. Həmin ildən respublikanın baş stomatoloqudur. 1987-1993-cü illərdə, 1996-2003-cü illərdə Səhiyyə Nazirliyinin baş stomatoloqu olub və qısa bir fasilədən sonra 2006-cı ildən yenə də həmin vəzifədədir.

### Sağlamlığın birinci şərti inamdır

Kamran Aslanov uzun illər çəkdiyi zəhmətdən, qazandığı uğurlardan çox sevib-seçdiyi həkimlik peşəsinin xüsusiyyətlərindən, stomatologiya sahəsindən, başçılıq etdiyi kollektivdən, ölkəmizin səhiyyə və tibdə qazandığı nailiyyətlərdən söhbət açır. Deyir ki, həkimlik sevgi, məsuliyyət, həssaslıq tələb edir. Bir də xəstə müraciət etdiyi tibb işçisinə inanmalıdır. Xəstəlikdən qurtuluşun, sağalmağın birinci şərti budur. Yoxsa istənilən nəticəni əldə etmək çətin olacaq. Əsl həkim bu ünsiyyəti qurmağı bacarmalıdır. Elə etməlidir ki, xəstə ona etibar etsin, sağaldacağına şübhəsi qalmasın. Həkimlə xəstə arasında inam və birlik olarsa, xəstəlik gücünü, hökmünü itirər. Bunun üçün həkim yüksək intellektə malik ziyalı olmalıdır. Yalnız ona müraciət edən xəstələrə deyil, həm də onlarla birlikdə gələn doğmalarına, yaxınlarına alicənablıqla yanaşmaq, yorğun olsan da, səbrin tükənsə də, bunu hiss etdirməmək lazımdır. Kamran Aslanovun çoxillik həkimlik və həyat təcrübəsindən gəldiyi qənaətlər budur ki, bəzən özünü belə unudaraq yardım üçün gəlmiş xəstələrin qayğısına qalmağı başlıca məqsədə çevirmədən bu inamı, güvəni qazanmaq mümkünsüzdür. Hər gün neçə-neçə müxtəlif yaşlı, fərqli xarakterli xəstəni səbirlə dinləmək, onunla dil tapmaq, dərdinə çarə edəcəyinə əminlik yaratmaq lazımdır. Əsl həkimin xəstəsini yalnız dava-dərmanla, tibb alətlərilə, həm də şəfqətli sözlərilə sağaltmalıdır. Bildirir ki, bəzən xoş davranış, şirin söz, ümid dolu bir baxışı da xəstəliyi yenməyə kömək edir.

Deyirlər ki, insanın harası ağrıyırsa, canı ordadır. Dişlərin sağlamlığının isə insanın rahat yaşamasına təsiri çox böyükdür. Bir də sağlamlığının ilkin göstəricisi olduğu kimi, diş həm də insanın simasının gözəlliyidir. Deməli, stomatoloqlar dişləri müalicə etməklə insanın həm də başqa orqanlarının sağlamlığının, eyni zamanda, onun gözəlliyinin qayğısına qalırlar.

Həyatı boyu gəldiyi nəticələrdən biri də budur ki, insan qazandığı nailiyyətlərə baxıb arxayınlaşmamalıdır. Dəyişən zamanın, inkişaf edən texnologiyaların yüksəlişindən geri qalmaq olmaz. Odur ki, fəaliyyətə başladığı ilk günlərdən daim axtarışlar aparıb, oxuyub, öyrənib. Hələ 1985-ci ildə Moskvada Mərkəzi Stomatoloji İnstitutda (Mərkəzi Stomatoloji Universitet) "Körpüyəbənzər protezlərdən sonra əmələ gələn fəsadlar və onların aradan qaldırılması üsulları" mövzusunda müdafiə etdiyi namizədlik dissertasiyası tibb elmini uzun müddət narahat edən məsələlərdən birinə həsr olunub.

O, əlli beş ildir ki, stomatologiya, stomatoloji xəstəliklərin müalicəsi, profilaktikası, problemlərinin öyrənilməsi ilə məşğuldur. Həm praktik həkim, həm də nəzəriyyəçi alim kimi çalışdığı sahənin problemlərini yaxşı bilir, onları aradan qaldırmağın yollarını araşdırır.

### Kamran həkimin yetirmələri

Çoxşaxəli fəaliyyətlə məşğul olan həkim, alim, təşkilatçı, rəhbər vəzifələr sahibi olan Kamran Aslanov həm də qayğıkeş pedaqoqdur. Ali dərəcəli həkim olan Kamran Aslanov 1992-2000-ci illərdə Əziz Əliyev adına Həkimləri Təkmilləşdirmə İnstitutunun Stomatologiya kafedrasının assistenti, eləcə də ATU-nun Ortopedik Stomatologiya kafedrasının dosenti olub. Bildiklərini heç vaxt tələbələrindən əsirgəməyib. Yetirmələrinə hörmətlə, həm də böyük tələbkarlıqla yanaşır.

Tibb elminin ayrı-ayrı bölmələri var. Kamran Aslanov həmin sahələr üzrə respublikamızdan xarici ölkələrə müraciət edən müəyyən xəstələr olduğunu qeyd edir: "Ancaq Azərbaycanda stomatologiya yeganə sahədir ki, elə səviyyəyə çatıb, o dərəcədə inkişaf edib ki, heç bir xəstə xaricə stomatoloji müayinə və müalicə üçün müraciət etmir. Hələ sovet hakimiyyətinin son dövrlərində SSRİ-nin baş stomatoloqu, akademik Leontyev Azərbaycana gəlmişdi. O, bizim klinikalarla tanış olanda birinci sözü bu olmuşdu: "Mən inanmazdım ki, Azərbaycanda bu səviyyəli mütəxəssislər, klinikalar olsun. Sizin klinikalar dünya klinikaları ilə müqayisəediləcək dərəcədədir". Stomatoloji xidmət elmi-texniki tərəqqi ilə sıx bağlıdır. Yəni o illərdən bəri Azərbaycan stomatologiyası daha da inkişaf edib".

Azərbaycan stomatologiyasının bugünkü səviyyəyə çatmasında müsahibimiz öncə kadrların hazırlıqlı olmasına diqqəti çəkir. Bu sahədə də onun xidmətləri var. Belə ki, Kamran Aslanov uzun illər Həkimləri Təkmilləşdirmə İnstitutunun Stomatologiya kafedrasının müəllimi olub. Həkimlərin təkmilləşdirilməsində öz təcrübəsini və biliyini onlara çatdırıb. Rəhbərlik etdiyi Stomatoloji Mərkəzin öz yetirmələri var. Onların arasında hazırda professorlar da var. On nəfərə yaxın tibb elmləri namizədi bu mərkəzdə çalışır. Onlar da əhaliyə yüksək səviyyədə stomatoloji tibbi xidmət göstərirlər. Ümumiyyətlə, Kamran Aslanov rəhbərlik etdiyi mərkəzin fəaliyyətini həm təşkilati-metodik, həm də elmi istiqamətə yönəldib. Nəticədə mərkəzdə ənənəvi tədbirlərlə yanaşı, yeni profilaktik metodlar işlənib sınaqdan keçirilir.

Kamran Aslanov direktoru olduğu Respublika Stomatoloji Mərkəz uzun illərdir ki, Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Stomatologiya kafedrasının tədris-təcrübə bazasıdır. Kamran Aslanov bu mərkəzə rəhbər təyin olunduğu ilk vaxtlarda bu müəssisədə təmir-yenidənqurma işləri həyata keçirildiyini, nəticədə terapiya, cərrahiyyə, ortopedik stomatologiya, rentgen və fizioterapiya kabinetlərinin müasir avadanlıqlarla təchiz edildiyini və yüksəkixtisaslı mütəxəssislərlə təmin olunduğunu vurğulayır.

O, müstəqillik illərində ölkədə stomatologiya sahəsinin inkişafından, kadrların təkmilləşdirilməsinə diqqətin artırılmasından da söz açır. Diqqətə çatdırır ki, stomatologiya səhiyyənin mühüm, özünəməxsus sahələrindən biridir: "Buna görə də stomatoloji poliklinikaların maddi-texniki bazası daha da gücləndirilir, təkmilləşdirilir, həkimlərin peşəkarlığına diqqət artırılır. Səhiyyə sistemində keçirilən islahatlar əhaliyə stomatoloji xidmətin səviyyəsinin yüksəlməsi ilə nəticələnir".

### Əməkdaşlıq inkişafa xidmət edir

Kamran həkim bildirir ki, bu gün Stomatoloji Mərkəzdə insanlara dünya standartları səviyyəsində tibbi-stomatoloji xidmət göstərmək üçün maddi baza mövcuddur, eyni zamanda, müəssisənin yüksək peşəkarlığa malik kadr potensialı var.

Əldə olunmuş nailiyyətlərlə kifayətlənmək tərəqqini ləngidə bilər. İnkişaf etmək üçün istər respublikada, istərsə də xaricdə yaşayan həmkarlarla fikir mübadiləsi aparılmalı, bir-birlərinin bilik və bacarıqlarından, uğurlu yeniliklərindən öyrənilməlidir. Kamran Aslanov bu vacib məqamları hər zaman nəzərə aldığını söyləyir. Buna görə də xarici ölkələrdəki həmkarları ilə də sıx əməkdaşlıq əlaqələri saxlayırlar.

Bütün dünyada geniş yayılmış stomatoloji xəstəliklərə çarə tapılması, profilaktik işlərin yaxşılaşdırılması onu daim düşündürür. Arzu edir ki, tibb elminin tərəqqisi elə səviyyəyə çatsın ki, profilaktik baxışlar aparılarkən aşkar edilən bütün xəstəliklərin müalicəsi mümkün olsun. Nəzəriyyəçi-alim, praktik həkim Kamran Aslanovun çoxsaylı çıxışları, məqalələri, kitabları da bu məqsədi daşıyır. "Azərbaycanda stomatologiyanın tarixi və inkişaf mərhələləri", eləcə də həmmüəllifi olduğu "Diş və ağız boşluğu xəstəlikləri (dərs vəsaiti)", "Terapevtik stomatologiyanın propedevtikası" adlı kitablarda onun uzun illik araşdırmalarının nəticələri əksini tapıb.

### Nailiyyətlər insanı arxayınlaşdırmamalıdır

Gərgin zəhmətinin, çəkdiyi əziyyətlərin bəhrəsiz qalmaması haqlı olaraq onu qürurlandırır. Kamran Aslanov Azərbaycan Respublikasının əməkdar həkimidir. Uzun illik zəhməti, yüksək peşəkarlığı həm də "Əməkdə fədakarlığa görə" medalı, "Səhiyyə əlaçısı" döş nişanı ilə mükafatlandırılıb. Son təltifləri də azərbaycanlı mütəxəssisin, alimin əməyinə verilmiş dəyərdir. Buna görə Kamran Aslanov deyir: "Mən fəxr edirəm ki, əlli beş illik tibb sahəsində çalışmalarıma Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyası da öz yüksək qiymətini verdi".

Hər təltif, hər mükafat həm də insanı geri boylanmağa vadar edir. Kamran Aslanovun keçib gəldiyi ömür yolu enişli-yoxuşlu olub. Bu dünyanın həm sevincini, həm də kədərini, itkilərini görüb. Həyatdan aldığı dərslərdən biri də bu olub ki, əldə etdiyi bilik və bacarığına arxalanmaq olar, amma onu daim inkişaf etdirmək də vacibdir. Gənc həmkarlarına da tövsiyəsi budur ki, qazandıqları nailiyyətlərin onları arxayınlaşdırmasına yol verməsinlər.

***Zöhrə FƏRƏCOVA,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***




# Qax turizm və sağlamlıq mərkəzinə çevrilir

Azərbaycanda turizm ildən-ilə sürətlə inkişaf etməkdədir. 2017-ci ildə turizmin inkişafına görə respublikamız beynəlxalq reytinq cədvəlində 13 pillə ən çox irəliləyən ölkə olmuşdur. Yanvarın 29-da "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunan müşavirədə Prezident İlham Əliyev turizm sənayesinin ölkədə çox geniş imkanlara malik olduğunu bildirmiş və bu sahənin inkişafı üçün bir çox göstərişlər vermişdir. Həmin göstərişlərə əsasən, Qax rayonunda da xeyli işlər görülməkdədir.

Qax rayonu Böyük Qafqaz sıra dağlarının cənub-qərb ətəklərində yerləşir. Rayon şimal-şərqdən Dağıstan Respublikası, cənub-qərbdən Gürcüstan Respublikası, şimal-qərbdən Zaqatala rayonu, cənub-şərqdən Şəki rayonu, cənub-qərbdən isə Yevlax və Samux rayonları ilə həmsərhəddir.

Qax rayonunun bütün təsərrüfat sahələrində ilbəil baş verən müsbət dəyişiklikləri görəndə həm təəccüblənir, həm də çox böyük qürur hissi keçiririk. Rayonda inşa edilən çoxsaylı təsərrüfat obyektləri, yüksək dərəcədə inkişaf etmiş infrastruktur sahələri, idman qurğuları, turizm, istirahət, iaşə və s. sahələrdə sadalamadığımız digər obyektlər Prezident İlham Əliyevin Azərbaycanın bütün bölgələrinə, o cümlədən Qax rayonuna göstərdiyi diqqətin və qayğının bariz nümunəsidir. İndi Qax rayonu 20-30 il bundan əvvəlkindən çox fərqlənir. Qax rayonu müasir gözəlliyi ilə nəinki Azərbaycanın, eləcə də Avropanın bir sıra şəhərləri arasında müqayisə edilə bilər.

Rayonun ərazisində dörd iqlim zonası mövcuddur. Burada temperaturun dəyişmə həddi çox böyükdür, dağların zirvəsində mənfi $40^{0}$C, Acınohurda isə müsbət $40^{0}$C-yə qədər temperatur müşahidə olunur. Rayonun xeyli sahəsində subtropik tipli iqlim olur.

Qax rayonu Böyük Qafqazın Azərbaycan hissəsinin su ehtiyatlarının 3873 $km^3$ və ya 13 faizini təşkil edir. Bu məkan Azərbaycanda yeraltı və yerüstü su resurslarına görə, xüsusən də termal və mineral suların zənginliyi ilə fərqlənir. Digər xammal ehtiyatlarından fərqli olaraq, rayon ərazisində böyük müalicəvi əhəmiyyəti olan termal sular və mineral bulaqlar da qeydə alınmışdır. Bunlardan "Oğlanbulaq", "Qızbulaq" və "Hamambulaq" daha məşhurdur. Qax rayonunun termal suları, əsasən rayonun dağəmələgəlmə proseslərinin davam etdiyi yüksək dağlıq ərazilərdə daha çox yayılmışdır. Termal suların mövcud olduğu ərazilərin əksər hissələrində avtomobil yollarının olmaması onlardan istifadə imkanlarını çətinləşdirir. Bu ərazilərə avtomobil yolunun çəkilişi çox böyük maliyyə resursları tələb etdiyindən hələlik belə ərazilərə avtomobil yollarının çəkilişi real görünmür.

Digər tərəfdən, belə ərazilərdə qış vaxtı iqlim sərt keçdiyindən qış aylarında insanların dəniz səviyyəsindən 1500-2000 metr yüksəklikdə daimi istirahət və müalicə məqsədilə istirahət etmələri real görünmür. Digər tərəfdən, dəniz səviyyəsindən yüksək olan belə ərazilərdə tez-tez baş verən qar uçqunlarının, sürüşmələrin, zəlzələlərin, sellərin neqativ təsiri nəticəsində termal suların yer səthinə çıxdığı yerlərdə "gözləri itir" və qeyri-müəyyən yerlərdə Kürmük çayına qarışırlar. Fasilələrlə baş verən təbii fəlakətlər göstərilən ərazilərdə mövcud termal suların debitinin, temperaturunun qismən azalmasına və ya çoxalmasına səbəb olur. Azərbaycanda xarici və daxili turizmin son illərdə yüksək səviyyədə inkişafını nəzərə alaraq, Qax rayonunun termal və mineral sularından da səmərəli istifadənin təmin edilməsi üçün vaxt itirmədən göstərilən ərazilərdə mövcud təbii fəlakətlərə qarşı əsaslı tədbirlər görülməlidir.

* * *

Bizim üçün bəzi hallarda istifadəsi əlçatmaz olan Qax rayonunun termal sularını 150 il bundan əvvəl rus, alman, polyak, yəhudi və s. ölkələrin alimləri tədqiq etmiş, termal və mineral bulaqların texniki göstəriciləri haqqında tam dəqiqliklə məlumat vermişlər. Termal və mineral suların debiti, temperaturu, kimyəvi tərkibi, müalicəvi xüsusiyyətləri və s. göstəriciləri özünün elmi praktiki əhəmiyyətini bu gün də saxlayır.

Qaxın 1500 $km^2$ ümumi ərazisində 5 termal və 6 mineral soyuq bulaq var. Onlardan yeddisi bilavasitə yer səthinə çıxışı olan termal sulardır. İlisu, Qaynama, Nohbulaq, Kürmükçay hər birinin bir çıxışı olan bulaqlardır. Göstərilən termal və mineral bulaqların ilk tədqiqi 1887-ci ildə Q.V.Strube, 1928-ci ildə isə K.N.Paffenqolts tərəfindən aparılmışdır. İlisu termal suyunun hərarəti müsbət $40^{0}$C-yə, debiti 40000 litr/sutkaya bərabərdir. Paffenqoltsun 1930-cu ildə İlisunun termal suyunun kimyəvi tərkibi haqda çap etdirdiyi məqalə 1940-cı ilə qədər İlisu termal suyu haqda nəşr olunan ilk və yeganə elmi məqalə olmuşdur. Sonrakı illərdə Azərbaycan tədqiqatçıları bu sahədə araşdırmaları davam etdirmişlər.

İlisu termal su mənbəyi dəniz səviyyəsindən 1460 metr yüksəklikdə Kürmük çayının sol qolu olan Hamamçayın sol sahilində yerləşir və çoxsaylı çıxışları olan termal sulara malikdir. Hamamçayın geniş vadisi ilə İlisu termal su mənbəyinə gedən yol tədricən daralaraq eni 3-4 metrə çatır və kanionvarı dərə əmələ gətirir və Qızbulağın çıxışında bu ərazi sıldırımlı qayalarla əvəz olunur. İlisuyun əsas mənbəyindən çıxan sular çaydan təxminən 12-15 metr hündürlükdə yerləşən şaquli vəziyyətdə yerləşmiş qayaların çatlarından çıxır.

Oğlanbulağın bu suyundan yerli və Gürcüstanın yaxın yaşayış məntəqələrindən gələn əhali 3x3 m sahəsi və 1,4 metr dərinliyi olan hovuzdan müalicə üçün istifadə edərmişlər. Oğlanbulaqdan 20 metr şimalda hərarəti müsbət $40^{0}$C olan Qızbulaq termal suyu yerləşir. Qızbulaqdan azacıq şimalda isə temperaturu müsbət $35^{0}$C olan çoxsaylı çıxışlı termal sular mövcuddur. Bundan başqa, çayın sağ sahilində hərarəti müsbət $35^{0}$C olan termal sular istifadəsiz axır. İnsan sağlamlığı üçün çox qiymətli olan, hələlik istifadə edilməyən bu sular Oğlanbulağa qarışaraq Hamamçaya çıxır. Suyun kimyəvi tərkibi xlor, natrium, kalsium və s. element ionları ilə zəngindir.

* * *

İlisu termal suyunun əsas çıxışı olan Oğlanbulaq və Qızbulaq sularının çıxdığı ərazi qədimdən yerli əhali tərəfindən müqəddəs bir ziyarətgah kimi qəbul edilmişdir. Ona görə də bura gələn insanlar saf niyyətlə gəlməlidirlər. Həmin bulağın çıxdığı yerdə iki vanna fəaliyyət göstərir. Vanna qəbulu isə pulsuzdur.

İlisu termal suları tərkibində natrium hidrokarbonat və sərbəst karbonat turşusu olan qələvi karbonat tərkibli su qrupuna aiddir.

Rayonun ərazisində yerləşən digər mineral sular əsasən yerli əhali tərəfindən xəstəliklərin müalicəsi üçün istifadə edilir. Tarix boyu burada yaşayan insanlar bəzi xəstəliklərini müalicə etmək üçün göstərilən soyuq mineral bulaqların ətrafında xəndəklər qazır, böyük çay daşlarını tonqalda qızdırıb, qızmar daşları həmin xəndəklərə tökərək suyu isidib, vanna kimi istifadə edirmişlər.

Belə mineral bulaqlardan biri də rayonun Suskəndi yaxınlığında yer səthinə çıxan, öz kimyəvi-mineral tərkibinə görə məşhur Naftusiya hidrokarbonatlı mineral sularla oxşarlıq təşkil edən "Qax" mineral bulağıdır. 1988-ci ildən həmin su qablaşdırılaraq çox məhdud sayda Bakı şəhərində, respublikanın digər şəhər və rayonlarında satışa çıxarılır. Onun əsasında 1989-cu ilin fevralından etibarən "Şəfa" müalicə pansionatı da fəaliyyət göstərir.

Pansionata gələnlərin əksəriyyəti "Qax" mineral suyu ilə müalicəyə üstünlük verənlərdir. Süfrə suyu kimi də məşhur olan bu suyun tərkibi müxtəlif minerallarla zəngin olduğundan onun çox böyük müalicəvi əhəmiyyəti vardır. Pansionatda mədə-bağırsaq, qaraciyər, öd yolları, maddələr mübadiləsi pozğunluqları, böyrək daşı, ürək qan-damar, sümük oynağı sistemi və başqa xəstəliklər müalicə olunur. Burada xəstələr təbii bitki mənşəli vannalar, parafin-naftalanlı müalicə, fizioterapiya, masaj, mədənin və bağırsağın yuyulması və s. müalicələr alırlar. 70 nəfər tibbi heyətin çalışdığı pansionatın müalicə şöbəsində yüksəkixtisaslı uroloq, kardioloq, terapevt, pediatr fəaliyyət göstərir.

Təəssüf ki, hər cür şəraiti və böyük müalicəvi əhəmiyyəti olan bu müalicə müəssisəsi 1997-ci ilin fevral ayından ilin cəmi 4 ayı (iyun-sentyabr) fəaliyyət göstərir. Qalan vaxtlarda isə işçilər məcburi məzuniyyətə göndərilir. Halbuki 1997-ci ilin fevral ayına qədər pansionat il boyu fəaliyyət göstərmişdir. Əlaqədar təşkilatlar xəstələrə şəfa bəxş edən bu müalicə-istirahət müəssisəsinin daha da genişləndirilməsi və il boyu fəaliyyət göstərməsi üçün müvafiq tədbirlər görsə, bunun böyük əhəmiyyəti olar.

* * *

Qax rayonu ərazisində yerləşən "Uludağ" istirahət və turizm mərkəzi 2005-ci ildə istifadəyə verilmiş, dörd hektar sahəni əhatə edir. İlisu termal suyu plastik borularla mərkəzə gətirilmişdir. Mərkəzdə kafe, bar, restoran eyni vaxtda 140-150 nəfər yerli və xarici turistlərə xidmət göstərir. 2-4 nəfərlik kotteclər, bura istirahətə gələnlər üçün vannalar, hovuz, eləcə də uşaqlar üçün kiçik hovuz, kişi və qadınlar üçün masaj kabinləri, həkim məntəqəsi və s. fəaliyyətdədir. Vannaların qəbulu, masaj, hovuzdan istifadə üzrə qiymətlər Avropa ölkələrində olan müalicə mərkəzlərindəki qiymətlərdən ucuzdur.

İnsanların burada qəbul etdikləri müalicə vannaları qan-damar, dayaq-hərəkət sistemlərinin, qan təzyiqi, ginekoloji, damar, dəri, piylənmə və s. xəstəliklərin müalicəsində çox yaxşı nəticə verir. Uludağa 6 kilometr məsafədən çəkilən plastik borular açıq halda olduğundan gətirilən termal suların hərarəti 10-$15^{0}$C aşağı düşür və suyu yenidən qızdırmaq lazım gəlir. Bu isə onun müalicəvi xüsusiyyətinə mənfi təsir göstərir. "Uludağ" turizm və istirahət mərkəzinə çəkilib gətirilmiş bu termal su bir neçə yerdə Kürmük çayından keçdiyindən vaxtaşırı çayda baş verən sellərin, eləcə də sürüşmələrin, zəlzələlərin, qar uçqunlarının təsirinə məruz qalaraq yararsız hala düşür. Göstərilən təbii proseslərdən suyun gətirildiyi plastik boruları qorumaq üçün hər dəfə külli miqdarda maliyyə vəsaiti sərf olunur. "Uludağ" turizm və istirahət mərkəzinə plastik borularla gətirilən termal su qış aylarında hökm sürən kəskin şaxtalar zamanı donur və ondan istifadə edilə bilmir. Göstərilən termal sudan il boyu istifadə üçün müvafiq təsirli müdafiə tədbirləri görülərsə, bura gələnlərin sayı artar. Burada yalnız müalicəyə gələnlərin təzyiqinin ölçülməsi və vanna qəbulundan başqa əsaslı digər tibbi xidmətlər, demək olar ki, yoxdur.

Qax rayonunun iş adamları rayonda tikdirdikləri çoxlu mehmanxana, ictimai iaşə obyektləri, istirahət, əyləncə və s. sahələrə külli miqdarda vəsait qoymuşlar. Onların tikdirdikləri dəbdəbəli qəsrlər o zaman səmərə verə bilər ki, rayon mərkəzindən çoxlu termal suları olan ərazilərə nəqliyyat yolları çəkilsin və beləliklə, turist axını artsın.

Qax rayonu Azərbaycanın ən çox təbiət abidələrinə: şəlalələrə, füsunkar sıldırımlı relyefə, selli dağ çaylarına, hələlik istifadə olunmayan tarixi qalalara, məbədlərə, dini yerlərə və s. malik olmaqla belə yerlər haqqında çox ətraflı bukletlər, xəritə sxemlər hazırlanmalı və onlar rayona xarici ölkələrdən gələn turistlərin diqqətinə çatdırılmalıdır.

Turistlər üçün yol boyu bəlli kilometrdən bir Qax rayonuna nə qədər qaldığını, yollarda olan hotel və kempinqlər, yanacaqdoldurma məntəqələri, yaxınlıqda olan tarixi və təbii abidələr və s. kimi çoxsaylı məlumatverici nişanların olması yaxşı olardı.

Payız və qış aylarında rayonda işsizliyin qismən azaldılması, həm də rayona gələn turistlərin marağını artırmaq üçün toxuculuq, xalçaçılıq, müxtəlif növ suvenirlərin və başqa sahələrin inkişafının təşkili Qax sakinlərinin arzusudur.

Bakı-Yevlax-Balakən dəmir yolu Qax şəhərindən 15 km məsafədən keçir. Bu dəmiryol xəttinin bilavasitə həm də Qax şəhərinə kimi çəkilməsi rayonun bütün təsərrüfat sahələrinin, o cümlədən yerli və xarici turizmin inkişafına müsbət təsir göstərər.

Azərbaycanın əksər bölgələrində olduğu kimi, Qax rayonunda da hotellər, kempinqlər, ictimai iaşə obyektləri, turizm və əyləncə mərkəzlərində qiymətlərin yüksək olması turizmin inkişafına mənfi təsir göstərir. Bunları nəzərə alaraq qiymətlərin tənzimlənməsinə də xüsusi diqqət göstərilməlidir.

***Neron BABAXANOV,***
***BDU-nun professoru***
***İsmayıl ƏLİYEV,***
***BDU-nun professoru***



# Sağlıq olsun

## Qızıl mərəz

### Həkim məsləhəti



**Son zamanlar ölkəmizdə uşaqlar, o cümlədən böyüklər arasında qızılca infeksiyasının yayılması müşahidə olunur. Adətən, qızılcanın müalicəsi evdə aparılır, amma mütəxəssislər, ağırlaşmış qızılcanın, hətta ölümə də səbəb ola biləcəyi barədə xəbərdarlıq edirlər.**

Həkim - pediatr Vaqif Qarayev məlumat verir ki, qızılca hava-damcı yolu ilə yoluxan kəskin virus infeksiyasıdır. O, səpgilərlə xarakterizə olunur. Lakin xəstəlik gedişatına görə başqa səpgili infeksiyalardan fərqlənir: "Klassik gedişdə səpgilər mərhələlərlə olur, birinci gün üzdə, boyunda, ikinci gün bədəndə, üçüncü gün ətraflarda əldə, ayaqda müşahidə edilir. Əsasən ləkəli səpgilər şəklində görmək mümkündür. Səpgilər dövründə vəziyyət ağırlaşır, qızdırma daha da yüksəlir, öskürək kəskinləşir, tutma şəkilli olur, gözlər qızarır, işıqdan qorxma yaranır".

### Sürətlə böyük məsafələrə yayılır

V.Qarayevin sözlərinə əsasən, xəstəlik soyuqdəymə kimi başlayır, daha sonra səpgi dövründə vəziyyət ağırlaşır: "Qızılcanın ağırlaşmaları isə çox təhlükəlidir və fəsadları hətta ölümlə də nəticələnə bilər. Səpgiləri öskürək müşayiət edir. Öskürək uşağı boğur, hətta qısa müddətdə onun həyatına son da qoya bilər. Buna qızılca pnevmoniyası (ağciyərin iltihabı) deyirlər, el arasında sətəlcəm adlanır. Sətəlcəm isə müalicəyə çox çətin tabe olan xəstəlikdir. Qızılca meningitə də səbəbə olur, mərkəzi sinir sistemini zədələyir. Otit (qulaq iltihabı), ensefalit (beyin iltihabı), korluq təhlükəsi yarada bilir. Qızılca ağırlaşmasız keçirsə, o qədər də təhlükəli deyil".

Bu virus çox sürətlə böyük məsafələrə yayıla bilir. Sağlam uşaq səpgili bir xəstə ilə təmasda, ünsiyyətdə olubsa, mütləq həkimə müraciət edilməlidir. Çünki artıq onda da qızılca başlaya bilər: "Qızılca diaqnozunu ancaq həkim qoya bilər. Ağırlaşma olmayanda xəstəxanada yatmağa ehtiyac yoxdur. Lakin ağırlaşma yarandıqda, mütləq xəstəxanada müalicə olunmalı, sağalana qədər həkim nəzarəti altında qalmalıdır. Yəni, bütün hallarda həkimə müraciət etmək ona görə mütləqdir ki, ağırlaşmalar uşağın həyatına son qoymasın".

### Peyvənd mütləqdir

Keçmişdə qızılca xəstəsi yatan otaqlarda qırmızı pərdə asar, qırmızı süfrə sərərmişlər. Həkim bu qaydaların tibbi izahının olduğunu qeyd edir: "Qırmızı rəng işığın birbaşa uşağın gözünə düşməsinin qarşısını alır. Hətta qədimdə qızılcanı Allahın lütfü kimi qəbul edirdilər. Uşaq qızılca olanda qoçun başına qırmızı bağlayırdılar, qurban kəsirdilər. Bu xəstəliyin müalicəsi üçün heç bir tədbir görülməzdi ki, öz-özünə keçib gedəcək. Amma nəticədə xəstəlik yüz minlərlə insanın həyatına son qoyurdu. İndi də bəzi yaşlı insanlar qızılca xəstəsini iynə-dərmanla müalicə etməyə qoymurlar".

Pediatr xəstəliklə bağlı peyvəndin mütləq lazım olduğunu vurğulayır: "Valideynlər peyvəndə biganə yanaşmamalıdırlar. Nə qədər də desələr ki, peyvəndin əks təsirləri, ağırlaşması var, tərəziyə qoysaq, qızılca peyvəndinin pis təsiri heç vaxt ölümə aparmır və apara da bilməz. Amma xəstəlik ağırlaşma ilə getdikdə uşağı öldürür. Bu mənada uşaq bir yaş 2 aylıq olanda mütləq qızılcaya qarşı peyvənd olunmalıdır".

## Bilirik?

- Hamiləlik zamanı ananın hər hansı orqanı zədələnsə, döl bu orqanın bərpası üçün kök hüceyrə ötürür;
- Döş qəfəsindən çıxarılan insan ürəyi qısa müddət döyünə bilir. Çünki onun özünün xüsusi elektrik sistemi var və ətraf mühitdən elektrik ala bilir;
- İnsan burnu 50 min qoxunu ayırıb yadda saxlaya bilər;
- Qan damarlarının ümumi uzunluğu 96 min kilometrdir. Bu da ekvator xəttini iki dəfədən artıq fırlanmağa bərabərdir;
- İnsan xoruldayan zaman 80 destibel gücündə səs çıxarır. 85 destibeldən yuxarı səs insan sağlamlığı üçün təhlükəlidir;



- İnsanın ürək ritmləri və mimikası qulaq asdığı musiqidən asılı olaraq dəyişir;
- İnsan sümüyü poladdan möhkəmdir. Baxmayaraq ki, sümüklərin 31 faizi sudan ibarətdir;
- İnsan gözü 10 min rəngi seçə bilir;
- Bir addım atmaq üçün 200 əzələ işləməlidir;
- Dil dad reseptorları olan yeganə orqan deyil. Bu reseptorlar mədədə, bağırsaq traktında, mədəaltı vəzdə, beyində də var;
- Beyinin 60 faizi yağdan ibarətdir.

### Sağlam qida

## "Qan deposu"nu necə yeyək

## *Süfrədə tibbi möcüzə*



**Ciyər yeməyin faydalı olduğu, ta qədim zamanlardan məlumdur. Xüsusilə də müxtəlif vitaminlər və minerallarla zəngin olan qara ciyər əsl təbii vitamin-mineral kompleksidir. Məhz bu səbəbdən qara ciyər bir çox xəstəliklər zamanı müalicəvi qidalanmaya daxildir.**

Tərkibində çoxlu sayda müxtəlif vitaminlər (A, C, B qrupu, E, K, PP, D) minerallar (kalsium, mis, maqnezium, fosfor, sink, xrom və s.) var. Qara ciyər orqanizm üçün əvəzolunmaz olan bir çox amin turşularla zəngindir.

Bu qida dəmir defisitli anemiyanın ilk təbii müalicə vasitəsidir. Dəmirlə olduqca zəngindir, həm də bu dəmir, qara ciyərdə orqanizm tərəfindən ən asan mənimsənilən formadadır. Beləliklə, qara ciyər anemiyadan əziyyət çəkən, hər hansı səbəbə görə qan itirmiş (cərrahi əməliyyat, travma, daxili qanaxma və s.) insan üçün çox faydalıdır.

Tərkibində xeyli miqdarda A vitamini var və bu vitamin gözlərimizin sağlamlığında böyük rol oynayır.

B qrupu vitaminlərlə də zəngin olduğu üçün insanın sinir sistemi üçün çox xeyirlidir.

Qara ciyər ürək xəstəlikləri zamanı da faydalıdır.

İmmun sistemi zəif olan insanlar və xüsusilə uşaqlar mütləq qara ciyər yeməlidirlər. Fol turşusu və dəmirlə zəngin olan qara ciyər, hamilə qadınlar üçün inanılmaz qida vasitəsidir. Fol turşusu döldə müxtəlif inkişaf qüsurlarının (xüsusilə beyin qüsurlarının) əmələ gəlməsinin qarşısını alır.

Amma tərkibində ağır metallar olan ciyəri mütəmadi yemək olmaz. Həddindən çox yeyilən ciyər qanda xolesterol səviyyəsini artırır, bu isə ürək xəstəliklərini, o cümlədən ürəktutma və iflic riskini artırır.

Buna görə də ciyəri hər gün yox, həftədə bir dəfə yemək məsləhətdir.

Ciyəri bişirərkən diqqət etmək lazımdır ki, nazik formada doğranmış olsun, öz yağında bişsin və kalorisinin az olması üçün tərkibinə çox əlavələr qatılmasın.

O cümlədən, uzun müddətli, rəngi tündləşənədək də bişirmək olmaz, çünki tərkibindəki faydalı maddələr itər.

### Şəfalı bitkilər



## Dadlı, ətirli, faydalı...

### Şəkərdən əziyyət çəkənlərə ideal qida

**Ətirli və dadlı heyva dəmir, kalium, kalsium, mis, fosfor, orqanik turşular, PP, A, B1, B2, B6, C vitaminlərlə, beta-karotinlə zəngindir. Bu meyvədən müalicəvi və profilaktik vasitə kimi skleroz, pankreatit, hipertoniya, anemiya kimi xəstəliklər zamanı istifadə etmək olar.**

Mis və sellülozla zəngin olan meyvə həzm proseslərini, qara ciyərin funksiyalarını yaxşılaşdırır, ishalla mübarizədə kömək edir.

Şəkər xəstəliyindən əziyyət çəkənlər üçün ideal qidadır.

Heyva antioksidant maddələrlə zəngindir ki, bu faydalı xüsusiyyət onu xərçəng hüceyrələrin əmələ gəlməsi ilə mübarizədə yaxşı kömək edir. Həmçinin bu meyvə orqanizmdə gedən qocalma proseslərini ləngidir.

Heyvanın unikal antivirus xüsusiyyətləri ondan qrip və soyuqdəymənin müalicəsi zamanı uğurla istifadə etməyə imkan verir.

Heyva şirəsi iltihab əleyhinə və bəlğəmgətirici təsirə malik olduğuna görə, bronxit, bronxial astma, müxtəlif soyuqdəymələr və iltihablar zamanı uğurla istifadə oluna bilər.

Heyva dəmir mikroelementi ilə də olduqca zəngindir. Bu səbəbdən anemiya (qan azlığı) zamanı istifadəsi çox kömək edir.

### Xalq təbabəti:

## Sirli eleksir

### İştahsızlıq, yorğunluq, ürək ağrılarına son



**Bal, zəncəfil və limon qarışımı orqanizmin sağlamlığı üçün olduqca faydalıdır.**

Soyuqdəymələr, piylənmələr, ürək ağrıları, daim üşümələr, iştahsızlıq, yorğunluq, immunitet zəifliyinə müsbət təsir edir. Beyin və qan dövranının yaxşı işləməsini təmin edir.

**<u>Hazırlanması:</u>**
- Limon 200 qram
- Zəncəfil 150 qram
- Bal 500 qram

Limon və zəncəfil əvvəlcə yuyulur, qabıqlı vəziyyətdə sürtgəcdən keçirilir və balla qarışdırılır. 1 həftə soyuducuda saxlanılır və yenidən yaxşı qarışdırılır.

Bundan sonra gündə 3 dəfə yeməkdən yarım saat əvvəl 1 xörək qaşığı istifadə olunur.

Qeyd edək ki, qarışım, hər zaman soyuducuda saxlanılmalıdır.

## Bişmiş halda faydalı olan tərəvəzlər



**Adətən, tərəvəzlərin çiy halda yeyilməsi məsləhət görülür, çünki onlar yüksək temperatura məruz qalanda tərkibində olan vitamin və mineralların çoxunu itirir. Bəzi tərəvəzlərin bişirilmiş halda yeyilməsi məsləhətdir.**

Həmin tərəvəzlər sırasında ilk yeri kələm tutur. Liflə zəngin olan kələmi bişirib yeyəndə xolesterinin səviyyəsi aşağı düşür

Digər bir faydalı tərəvəz isə ispanaqdır. Kalsium, dəmir və maqnezium mənbəyi olan ispanağı bişirib yeyəndə onun qida dəyəri üç dəfə artır.

Tərkibində beta-karotin və A vitamini olan yerkökünün də bişirilib qəbul edilməsi faydalıdır.

Göbələk də həzmi çətin olan qidalardandır. Onun bişirilməsi daha asan həzm edilməsinə səbəb olur və tərkibindəki toksinlər məhv olduğuna görə orqanizm üçün daha faydalı hala gəlir.

Adətən, çiy yeyilməsi sevilən pomidorun da bişirilərək qəbul edilməsi məsləhətdir. Onu bişirəndə tərkibindəki likopenin miqdarı 30 faiz artır. Likopen xərçəngə qarşı mübarizə aparan ən güclü maddə hesab edilir.

## M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası 2019-cu il üçün
## *açıq tender elan edir*

**Tender 3 LOT üzrə keçirilir:**

**LOT - 8** Bərk inventarın satın alınması
**LOT - 9** Digər maşın və avadanlıqların satın alınması
**LOT -10** Sosial-mədəni və məişət təyinatlı obyektlərin əsaslı təmiri işlərinin satın alınması

Tenderdə iştirak etmək üçün iddiaçılar bir LOT üzrə 500 (beş yüz) manat məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Səbail rayonu, Xaqani küçəsi, 57 ünvanından ala bilərlər. Əlaqələndirici şəxs: Rübabə Sultəli qızı Nəsrullayeva. Əlaqə telefonu: 493-51-24.

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

**Dövlət Xəzinədarlıq Agentliyi**
**VÖEN: 1401555071**
**KODU: 210005**
**Büdcə səviyyə kodu: 3**
**Büdcə təsnifatının kodu: 142314**
**M/HESAB: AZ41NABZ01360100000000003944**
**SWIFT: CTREAZ22**
**AXUNDOV ADINA MİLLİ KİTABXANA**
**VÖEN: 1700241041**
**HESAB: AZ27CTRE00000000000005468301**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: yüksək keyfiyyət, aşağı qiymət, analoji işlərdə təcrübə, müqavilənin vaxtında icrası, maliyyə vəziyyəti.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *işləri yerinə yetirmək üçün potensial imkanları haqqında məlumat;*
- *tender təklifinin təminatı (zərflərin açıldığı gündən 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi qiymətinin 1 faizi həcmində bank zəmanəti (zərflərin açıldığı gündən 60 bank günü qüvvədə olmalıdır).*

İddiaçılar tələb olunan sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 17 aprel 2019-cu il saat 17:00-a qədər təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçılar 2 nüsxədə (əsli və surəti) tərtib olunmuş tender təklifi və bank zəmanətini 25 aprel 2019-cu il saat 17:00-a qədər ikiqat zərfdə bağlanmış və möhürlənmiş şəkildə təqdim etməlidirlər.

Tender zərfləri 26 aprel 2019-cu il saat 12:00-da açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Sumqayıt Kimya Sənaye Parkı" MMC tərəfindən 2018-ci il üçün illik maliyyə-təsərrüfat fəaliyyətinin auditi xidmətinin satın alınması ilə əlaqədar keçirilmiş kotirovka sorğusunda iştirak edən iddiaçıların təklifləri qiymətləndirilib.

Kotirovka sorğusunun nəticələri haqqında Tender komissiyasının 27 fevral 2019-cu il tarixli qərarına əsasən, "Baker Tilly Audit Azərbaycan" QSC qalib elan edilib və həmin təşkilatla müvafiq satınalma müqaviləsi bağlanıb.

***Tender komissiyası***

## İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu avtonəqliyyat vasitəsinin satın alınması məqsədilə
## *açıq tender elan edir*

İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu avtonəqliyyat vasitəsinin satın alınması məqsədilə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq açıq tender elan edir.

**Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir:**

- *satınalma müqaviləsini bağlamaq səlahiyyəti olmalı;*
- *maliyyə durumu qənaətbəxş olmalı;*
- *texniki, maliyyə və işçi qüvvəsinə, idarəetmə səriştəsinə malik olmalı;*
- *vergilər və digər icbari ödənişləri üzrə vaxtı keçmiş öhdəlikləri olmamalıdır.*

Tenderdə iştirak etmək istəyənlər 100 (bir yüz) manat iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu aşağıdakı ünvandan ala bilərlər:

Bakı şəhəri, A.M.Şərifzadə küçəsi, 172.
Əlaqələndirici şəxs: Ə.Abdullayev, tel: (012) 310-23-02.

**Bank rekvizitləri: Bankın adı: PAŞA Bank ASC**
**Kod: 505141**
**VÖEN: 1700767721**
**Müxbir hesab: AZ82NABZ01350100000000071944**
**S.W.I.F.T. PAHAAZ22**
**Alan: İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu**
**VÖEN: 1305619841**
**Hesablaşma hesabı: AZ03PAHA36015AZNHC0100089628**

İştirak haqqı heç bir halda geri qaytarılmır. İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *iddiaçının tam adını, hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış və s.) surətləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilmə vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq orqanlardan arayış;*
- *tender təklifi (zərflərin açıldığı gündən sonra ən azı 30 bank günü müddətində qüvvədə qalır);*
- *tender təklifi qiymətinin 1 faizi həcmində təklifin təminatı;*
- *xarici şirkətlər iştirak etdikdə onların Azərbaycanda nümayəndəliyinin olmasını təsdiq edən sənəd.*

İddiaçı tenderin əsas şərtlər toplusunda göstərilən bütün maddələrə dəqiq əməl etməlidir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 18 aprel 2019-cu il saat 17:00-dək, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 30 aprel 2019-cu il saat 17:00-a qədər İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fonduna (ünvan: Bakı şəhəri, A.M.Şərifzadə küçəsi, 172) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklif zərfləri 01 may 2019-cu il saat 12:00-da yuxarıda qeyd olunan ünvanda açılacaqdır.

**Tender təklifinin qüvvədəolma müddəti** - tender prosedurunun başlandığı gündən etibarən ən azı 30 (otuz) bank günü təşkil etməlidir.

**Tender təklifinin təminatı** - tender prosedurunun başlandığı gündən etibarən ən azı 60 bank günü (tender təklifinin qüvvədəolma müddətindən ən azı 30 bank günü) çox olmalıdır və təklifin ümumi qiymətinin 1 faizini təşkil etməlidir.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən 30.01.2019-cu il tarixdə keçirilmiş 1 LOT üzrə Texnoloji Korpusda və 20 stansiyada SCADA proqram təminatı əsasında 220V dəyişən cərəyan və 24V sabit cərəyan şəbəkələrinin elektrik parametrlərinin ötürülməsi işlərinin açıq tender üsulu ilə satın alınmasına dair müsabiqədə "I.M.S. Engineering Ltd" MMC qalib elan olunmuşdur. Qalib gəlmiş təşkilat ilə LOT-1 üzrə 26.02.2019-cu il tarixdə ƏDV daxil 106120,50 (yüz altı min yüz iyirmi manat 50 qəpik) manat məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

# Beynəlxalq aləm

## Pakistan vurduğu Hindistan təyyarəsinin pilotunu azadlığa buraxdı

Ötən ayın 27-də Pakistan hərbi hava qüvvələrinin vurduğu MiQ-21 təyyarəsinin pilotu xoşməramlı jest və böhranın aradan qaldırılması cəhdi kimi Hindistan hökumətinə təhvil verilmişdir. Bu barədə Pakistanın xarici işlər naziri Şah Mahmud Kureşi məlumat vermişdir.

Eyni zamanda Kureşi İslam Əməkdaşlıq Təşkilatının üzvü olan ölkələrin xarici işlər nazirlərinin görüşünə getməkdən imtina etmişdir. O, qərarını tədbirdə Hindistan xarici işlər nazirinin iştirak etməsi ilə əsaslandırmışdır.



Xatırladaq ki, fevralın 27-də pakistanlı hərbçilər Hindistanın iki hərbi təyyarəsini vurmuşlar. Pilotlardan biri əsir düşmüşdür. Eyni zamanda Pakistan hərbi hava qüvvələrinin qırıcı təyyarəsi hava döyüşü zamanı vurulmuşdur.

Bu arada ABŞ-ın dövlət katibi Mayk Pompeo Hindistan və Pakistan hökumətlərini hərbi əməliyyatlardan imtina etməyə çağırmışdır. Analoji çağırışla Böyük Britaniyanın Baş naziri Tereza Mey də çıxış etmişdir.

## Əfqanıstanda taliblər hərbi bazaya hücum etdilər



Bir qrup ekstremist Əfqanıstanın cənubunda yerləşən Gilmənd əyalətində hərbi bazaya hücum etmişdir. Bu barədə "Tolo News" telekanalı xəbər verir.

Məlumata görə, hücum dünən səhər saatlarında başlamışdır. Əməliyyatda azı 27 silahlı, o cümlədən 7 intiharçı-terrorçu iştirak etmişdir.

Gilmənd qubernatorunun ofisindən bildirmişlər ki, hücum edənlərdən 9-u, o cümlədən 3 intiharçı-terrorçu zərərsizləşdirilmişdir. Əfqanıstan ordusu ərazini ekstremistlərdən təmizləmək üçün əməliyyatı davam etdirir.

"Pajvak" agentliyinin xəbərinə görə, hücumu "Taliban" radikal hərəkatının silahlıları həyata keçirmişlər.

## Moqadişoda terror aktı törədildi

Somalinin paytaxtı Moqadişonun mərkəzində törədilmiş partlayış nəticəsində azı 25 nəfər həlak olmuş, 30 nəfərdən çox adam yaralanmışdır. Bu barədə vesti.ru saytı xəbər verir.

Məlumata görə, hadisə məmurların və hökumət nümayəndələrinin tez-tez qaldıqları mehmanxanalardan birinin yaxınlığında baş vermişdir. Partlayıcı qurğu intiharçı-terrorçunun idarə etdiyi avtomobildə gizlədilmişdi.

Partlayış yaxınlıqdakı binalara zərər vurmuş, onlarca avtomobil yanmışdır. Terror aktından sonra atışma başlamışdır. Bəzi məlumatlara görə, terrorçular hotelin daxilinə soxulmuşlar.



Polisdən bildirmişlər ki, ölənlərin sayı arta bilər.

Bu terror aktına görə məsuliyyəti qarşısına Qərbin dəstəklədiyi hökuməti devirmək məqsədi qoymuş "əş-Şəbab" qruplaşması üzərinə götürmüşdür.

## Yəməndə bombardman nəticəsində beş uşaq həlak oldu



Yəmənin qərbində yerləşən Hodeydə əyalətinin cənub rayonları "Ənsar Allah" (hövsilər) hərəkatının silahlıları tərəfindən top atəşinə tutulmuşdur. Nəticədə beş uşaq həlak olmuşdur. Hövsilər şəhər limanının cənubunda yerləşən Tuhaeytə rayonunun qərbində yaşayış məhəlləsinə atəş açmışlar. Mərmilərdən biri uşaq meydançasında partlamışdır. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

Xatırladaq ki, ötən ayın 19-da hövsilər Tuhaeytədə bazarı atəşə tutmuşlar. Nəticədə 4 nəfər, o cümlədən 2 uşaq həlak olmuşdur.

Yəməndə 2014-cü ildən bəri davam edən hərbi münaqişədə bir tərəfdən "Ənsər Allah" hərəkatının qiyamçıları və devrilmiş prezident Əli Abdulla Salehin tərəfdarları, digər tərəfdən Prezident Əbd Rəbbo Mənsur Hadiyə sadiq hökumət qoşunları iştirak edir. Həmin ildən bəri hövsilər ölkənin bir neçə regionuna, o cümlədən paytaxt Sənaya nəzarət edirlər.

## Polşa ordusunun modernləşdirilməsinə 50 milyard dollar sərf ediləcək

Polşa hökuməti silahlı qüvvələrin modernləşdirilməsinə təxminən 50 milyard ABŞ dolları xərcləmək niyyətindədir. Müvafiq plan hökumət saytında dərc edilmişdir.

Modernləşdirmə planını imzalamış müdafiə naziri Mariuş Blaşşakın dediyinə görə, "bu, ordunun müdafiə imkanlarını inkişaf etdirmək şansıdır. Biz ordunun simasını dəyişdirəcək, onu müasir texnika ilə təchiz edəcəyik. Şəxsi heyəti artırmaq da qarşıma qoyduğum məqsəddir".



Nazir bildirmişdir ki, plan Polşanın qarşısında duran aktual problemləri, o cümlədən bütün NATO-nun şərq cinahının möhkəmləndirilməsi anlamına gələn ölkənin şərq cinahının möhkəmləndirilməsini nəzərdə tutur. Bundan əlavə, ən müasir nəsildən olan 32 təyyarə alınacaq.

Plana uyğun olaraq nəzərdə tutulan 48,9 milyard dollar 2026-cı ilədək xərclənəcək. Lakin müdafiə naziri ordunun tələbatının bundan xeyli artıq olduğu barədə xəbərdarlıq etmişdir.

# Ermənistanda siyasi qarşıdurma güclənir

## Sarkisyan hakimiyyətinin müəllifi olduğu daha bir layihə iflasa uğradı

Ermənistanda real vəziyyətin təhlili bu ölkədə mövcud hakimiyyətlə sabiq iqtidar təmsilçiləri arasında qarşıdurmanın getdikcə daha da dərinləşdiyini göstərir. Sabiq prezident Serj Sarkisyan və onun sədri olduğu Respublika Partiyasının təmsilçiləri yeni iqtidarın daxili və xarici siyasətini indi daha sərt formada tənqid edirlər. Bu prosesdə onlara "Daşnaksütyun" partiyası da yardım edir. Elə bu fonda "Daşnaksütyun" ilə hökumət arasında qarşıdurma güclənir.

### 232 min işsiz

Sabiq iqtisadi inkişaf naziri Artsvik Minasyan hakimiyyəti ölkənin müdafiə və təhlükəsizlik problemləri ilə məşğul olmamaqda ittiham edib. "Daşnaksütyun"un təmsilçisi əlavə edib ki, Paşinyanın texnologiyaların inkişafı ilə bağlı proqramı quru şüardan başqa bir şey deyil və Ermənistanda işsizliyi daha da artıracaq. O xatırladıb ki, rəsmi məlumatlara görə, hazırda bu ölkədə 232 min işsiz var, İKT sahəsində çalışanların sayı isə cəmi 13 min nəfərdir: "Hökumətin "iqtisadi inqilab" proqramının heç bir real əsası yoxdur. Hətta ehtimal olunan 5 faizlik iqtisadi artım belə bu planı həyata keçirmək üçün kifayət deyil. Proqramın parlamentdə dar çərçivədə hazırlanması da ciddi şübhələr yaradır. Halbuki ölkənin iqtisadi həyatında bütün siyasi qüvvələrin rəyi nəzərə alınmalıdır". Eyni mövqeni Sarkisyan komandası da sərgiləyir.

### "Nazirlik və komitələrdə çalışanların 90 faizi hələ də Sarkisyanın adamlarıdır"

Baş verənlərə münasibət bildirən Nikol Paşinyan isə Serj Sarkisyanın mətbuat vasitəsilə ona mesajlar göndərdiyini açıqlayıb: "Sarkisyan mətbuat vasitəsilə demək istəyir ki, biz vergiləri yığmaqda acizlik nümayiş etdiririk. Nazirlik və komitələrdə çalışanların 90 faizi hələ də Sarkisyanın adamlarıdır, deməli, səriştəsiz olan da odur".

Daha sonra Paşinyan Sarkisyanla bağlı bunları xatırladıb: "Mənim onunla bir neçə dəfə təkbətək görüşüm olub. Hər dəfə görüşəndə o, cibindəki vərəqi çıxarıb oxuyandan sonra yadda saxladıqlarını mənə deyirdi. Sonuncu görüşümüzdə vərəqi cibinə qoymağı unutmuşdu. Görüşə başlayanda nə deyəcəyini bilmədi. Köməkçiyə bildirdi ki, otaqdan vərəqi ona gətirsin. Deməli, onun nəzərdə tutulan görüşlərində deyəcəyi sözləri kimsə əvvəlcədən yazıb verirmiş, o da oxuyurmuş. Görüşlərdə bir az diqqətli olmaq lazım idi, çünki ola bilərdi ki, cibindəki vərəqləri səhv salasan".

### AİZ layihəsi iflasa uğrayıb

Belə bir vaxtda Sarkisyan dövrü ilə bağlı daha bir maraqlı məqam üzə çıxıb. Söhbət Ermənistanın İranla birgə yaratmaq niyyətində olduğu Azad İqtisadi Zonadan (AİZ) gedir. "EADaily" saytı yazır ki, İranla Ermənistan arasında neft boru kəməri və dəmir yolu xəttinin çəkilməsi layihəsi kimi AİZ layihəsi də iflasa uğrayıb.

Sayt qeyd edir ki, keçmiş prezident Serj Sarkisyanın və spiker Ovik Abramyanın da müəllifi olduğu layihənin iflasa uğramasının əsas səbəbi korrupsiyadır: "2014-cü ildə məlum oldu ki, keçmiş yetkililər Ermənistan-İran sərhədində qurulacaq AİZ planını saxta sənədlər üzərində rəsmiləşdirdi. Keçmiş hakimiyyət bundan istifadə edərək dövlətə məxsus milyardlarla dollar həcmində pulu mənimsədi. 5 il əvvəl bu məsələyə dair ələ keçirilmiş sənədlər də gizlədildi. Hər şey korrupsiya planı üzərində bərqərar oldu. Bütün planlar xəyali idi: xəyali büdcə kəsiri, xəyali investorlar, xəyali iştirakçılar, xəyali hərrac... Bu məqsədlə guya İranla sərhəddə iş adamlarına hektarlarla ərazi satıldı. Əslində belə bir satış olmamışdı. Keçmiş hakimiyyət bununla dövlətə ciddi maddi zərər vurdu. Reallıqda isə AİZ üçün nəzərdə tutulmuş ərazilər hakimiyyətdə olan şəxslərin qohumlarına satılmışdı".

"EADaily" bildirib ki, faktlar ortaya çıxdıqdan sonra keçmiş hakimiyyət bu biabırçılığını gizlətmək üçün saxta istintaq başladıb: "Bura qədər layihənin təbliğat kampaniyası cəlbedici idi. Ermənistanla yanaşı, Rusiya, Gürcüstan və İran mediasında layihə haqda geniş yazılar dərc edilmişdi. İlkin mərhələdə layihəyə 100-150 milyon dollar həcmində investisiyanın yatırılacağı planlaşdırılırdı. Ermənistan isə bu layihənin ilkin mərhələsində 250 milyon dollar qazanacaqdı. Lakin sonradan heç kəsdən səs çıxmadı. Ermənistan hakimiyyəti isə xəyali layihəni diriltmək yerinə öz biabırçılığını gizlətməyə çalışdı".

Hesab olunur ki, bu məqamlar üzrə də Sarkisyanın ciddi problemlərlə üzləşməsi qaçılmaz olacaq. Artıq bu xüsusda istintaq hazırlığı da gedir.

### Koçaryana qarşı yeni rüşvət ittihamları

Sarkisyanın yaxın silahdaşı olan Ermənistanın sabiq prezidenti Robert Koçaryana qarşı yeni rüşvət ittihamları irəli sürülməkdədir. Artıq onun böyük oğlu Sedraka qarşı da cinayət işi qaldırılıb. İstintaq orqanları Sedrak Koçaryana qarşı çirkli pulların yuyulması və vergidən yayınma ittihamları irəli sürüb. Sabiq prezidentin oğlundan ölkəni tərk etməmək barədə iltizam alınıb.

Koçaryan həmçinin "Konqres" mehmanxanasının özəlləşdirilməsi üzrə cinayət işinin istintaqında da ifadə verib. İstintaqa nəzarət edən Ermənistan Milli Təhlükəsizlik Xidmətinin rəisi Artur Vanetsyan bildirib ki, Koçaryanın oğulları həmin obyekti 6 milyon dollar rüşvət müqabilində ələ keçiriblər. Yuxarıda qeyd olunduğu kimi, Ermənistan Xüsusi İstintaq Xidməti Robert Koçaryana qarşı daha bir ittiham irəli sürüb. Vəkillərinin sözlərinə görə, o, külli miqdarda rüşvət almaqda ittiham olunur.

Bu fonda onun, eləcə də Sarkisyan daxil olmaqla bir sıra digər keçmiş hakimiyyət təmsilçilərinin həbsi qaçılmaz sayılır.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 8599
Sifariş 701
Qiyməti 40 qəpik